Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 31 (6074) 16 avqust 2024-cü il | Qiyməti 40 qəpik

## İlham Əliyev: "Azərbaycan güclü idman dövlətidir"

**Olimpiya Oyunları bütün digər idman yarışları arasında xüsusi yer tutan bir yarışdır, dörd ildən bir keçirilən idman bayramıdır və əlbəttə ki, hər bir idmançı, hər bir ölkə bu Oyunlara xüsusilə hazırlaşır.**

**Adalet.az xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançılarını və onların məşqçilərini qəbul edərkən söyləyib.**

**Dövlətimizin başçısı qeyd edib: "Bizim Olimpiya Oyunlarındakı uğurlarımız əvvəlki illərdə də, son Oyunlarda da göstərir ki, Azərbaycan güclü idman dövlətidir. Təsadüfi deyil ki, biz bu Oyunlarda dünyanın ən güclü 30 ölkəsinin arasında yer almışıq - 2 qızıl, 2 gümüş və 3 bürünc medal, hesab edirəm ki, çox yaxşı nəticədir".**



## Ərdoğan: Türkiyə özünə qarşı qurulan bütün oyunları pozub



**Türkiyə özünə qarşı qurulan bütün oyunları pozub. Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) 23-cü ildönümü ilə bağlı keçirilən tədbirdə çıxışı zamanı deyib.**

O bildirib ki, Türkiyənin uğurlarını gözü götürməyən qüvvələr indiyə qədər müxtəlif hiylələrə əl atıblar: "Terrordan çevriliş cəhdlərinə qədər fərqli təhdidlərlə üzləşmişik. Amma bunların heç birinin qarşısından geri çəkilməmişik. Mübarizə aparmışıq".

## Azərbaycanda meymunçiçəyinə yoluxma qeydə alınmayıb

**Azərbaycanda meymunçiçəyi virusuna yoluxma hadisəsi qeydə alınmayıb.**

Bu barədə Adalet.az-a Səhiyyə Nazirliyindən bildirilib. Məlumatda qeyd edilib ki, hazırda epidemioloji vəziyyət nəzarət altındadır.

Qeyd edək ki, Afrika İttifaqının Səhiyyə Xidməti mpox (meymunçiçəyi) virusunun yayılması ilə əlaqədar qitədə sağlamlıqla bağlı fövqəladə vəziyyət elan edib. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) meymun çiçəyi xəstəliyinin yayılmasını fövqəladə hal adlandırıb.

ÜST-ün son məlumatlarına görə, dünyada meymun çiçəyi xəstəliyinə 77 264 yoluxma, 36 ölüm qeydə alınıb. Bunu 109 ölkə təsdiqləyib.

## MEDİA: "İran İnternational" və "KAN" agentliyi Azərbaycanla bağlı dezinformasiya yayıblar




**Son dövrlər bəzi ölkələrin media resursları mötəbərliyi şübhə doğuran mənbələrə istinad edərək Azərbaycan barədə həqiqəti əks etdirməyən, yerli və beynəlxalq auditoriyanın ictimai rəyini çaşdırmağa yönəlmiş məlumatlar yaymaqdadırlar. Dezinformasiyanın təsiri altında "Iran International" televiziya kanalı, habelə "The Telegraph" nəşri və "Kan" agentliyi Azərbaycan barədə beynəlxalq jurnalistika standartları ilə bir araya sığmayan informasiya manipulyasiyası həyata keçirmiş, guya İsrailin öz həbrçilərinə Azərbaycanda qalmağı qadağan etməsi barədə dezinformasiya yaymışdır.**

Adalet.az xəbər verir ki, bu barədə Medianın İnkişafı Agentliyinin (MEDİA) yaydığı bəyanatda bildirilib.

Bildirilib ki, ki, Azərbaycan ərazisində hər hansı bir xarici dövlətin hərbi kontingenti mövcud deyil və bununla bağlı yalan məlumatlara söykənmiş informasiya manipulyasiyalarını ciddi şəkildə qınanılır: "Eyni zamanda, bir daha diqqətə çatdırırıq ki, hansı ölkədə fəaliyyət göstərməsindən asılı olmayaraq, media məlumatları paylaşarkən hamı tərəfindən qəbul olunmuş jurnalistikanın vahid etik prinsiplərinə əməl etməlidir. Bu tipli klassik dezinformasiya nümunəsi olan materialların sosial şəbəkə seqmentinə sirayət etdikdən sonra bəzi yerli media subyektlərimiz tərəfindən təkrar tirajlanmasını yolverilməz hesab edirik".

Bəyanatda cəmiyyətə yalnız rəsmi mənbələrin verdiyi məlumatlara inanmağa, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumat əsaslı kampaniyaların vüsət aldığı bir şəraitdə sayıq olmağa çağırış edilib.

## Saxta ƏDV saytı yaradılıb - Xəbərdarlıq

**Kiberdələduzlar tərəfindən yığılan ƏDV-lərin geri qaytarılması üçün saxta "edv-almaq.com" adlı veb-sayt yaradılıb.**

Adalet.az Elektron Təhlükəsizlik Xidmətinin yaydığı məlumata istinadən xəbər verir ki, "edv-almaq.com" adlı veb-sayt vasitəsilə və-




təndaşlardan ilk növbədə fin kodlarını daxil etmək, daha sonra isə ƏDV-lərin bank kartına köçürülməsi üçün kart məlumatlarını daxil etmək tələb olunur.

**Elektron Təhlükəsizlik Xidməti vətəndaşlara belə saxta veb-saytlara etimad etməməyi, şübhəli keçidlər vasitəsilə bank kartı və digər fərdi məlumatlarını qarşı tərəfə təqdim etməməyi və hər hansı xüsusi təkliflərlə qarşılaşdıqda yalnız rəsmi mənbələrə istinad etməyi tövsiyə edir.**

Aqil ABBAS
aqilabbas@rambler.ru

## "QARABAĞ"ın AYĞIRLARI "LUDOQORETS"İ TAPDAQ-TAPDAQ ELƏDİ



*Qarabağ atları başqa at növlərindən çox fərqlənir. Məsələn, gözəllikdə ərəb atıdı və qısa məsafədə ərəb atları Qarabağ atlarını keçirlər. Amma uzaq məsafədə Qarabağ atları ərəb atlarına deyirlər ki, sən bir nəfəsini al, gəlirik. Bu da onların sinələrinin daha geniş olması ilə bağlıdır.*

*Qarabağ atlarının başqa atlardan bir fərqi də odur ki, Qarabağ atları döyüş atlarıdır, çevikdir, düşmənin zərbələrindən yayınıb çıxa bilir. Eyni zamanda üstündəki döyüşçü ilə bərabər savaşır, həm qabaq ayaqları ilə, həm də ağızları ilə düşməni parçalayır.*

*"Nəsimi" filmində belə bir yer var ey: "Mən sənə at ağızlı oğlanlar vermişdim". Bu ifadə də ordan gəlir.*

*İndi "Qarabağ" Çempionlar Liqasının ikinci təsnifat turunda Bakıda uduzmağına baxmayaraq (o da hakimlərin köməyi ilə), Bolqarıstanda "Ludoqorets" komandası ilə Qarabağın ayğırları kimi döyüşdülər. Son nəfəsədək çarpışdılar və möcüzə göstərdilər. Rəqib komandanın qapısına onun öz meydançasında 7 top vurdular.*

**Bax: səh.2**

## GÜNÜN LƏTİFƏSİ

Hidayət Elvüsalla Vəli Xramçaylı söhbət edirlər.

Hidayət müəllim:

**- Vəli, sən məhəbbətdən, sevgidən yazan şairsən. Səncə dünyada ideal cütlüklər var?**

Vəli:

**- Bə nədi qağa, odey limonla araq, viskiylə koka-kola, pivəylə duzlu balıq, o qədər belə qəşəng cütlüklər var ki...**

# Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin səlahiyyətləri artırıldı



**Prezident İlham Əliyevin fərmanı ilə ”Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə”də dəyişiklik edilib.**

Fərmana əsasən, nazirliyin vəzifələri sırasına aşağıdakılar əlavə edilib:

- tabeliyində olan qurum vasitəsilə yol hərəkətinin və piyada-yol infrastrukturunun təşkilində iştirak etmək, həmçinin aidiyyəti qurumlarla birlikdə nəqliyyat axınının tənzimlənməsini təmin etmək;

- Bakı şəhərinin inzibati ərazisində parklanma yerlərində nəqliyyat vasitələrinin parklanmasına dair tələblərə əməl olunmasına nəzarəti təmin etmək;

- yaşayış məntəqələri ərazilərinin və ya ərazi hissələrinin planlaşdırılması çərçivəsində hazırlanan müfəssəl planların layihələrinə insanların və yüklərin daşınması (yaxın məsafələrə daşımaları həyata keçirən ümumi istifadədə olan nəqliyyat vasitələri ilə daşımalar da daxil olmaqla), o cümlədən insanların (piyada və nəqliyyatla) hərəkət çevikliyi ilə bağlı tələblərin təmin olunması baxımından rəy verilməsini təmin etmək;

- avtomobil yollarının, avtovağzalların (avtostansiyaların), yeraltı keçidlərin, metro çıxışlarının, velosiped zolaqlarının inşasına, əsaslı təmirinə, yenidən qurulmasına və bərpasına dair layihələrə yolun buraxıcılıq qabiliyyəti və ərazinin yol-nəqliyyat infrastrukturuna uyğunluq göstəriciləri nəzərə alınmaqla rəy verilməsini təmin etmək”.

# Ekologiya və təbii sərvətlər nazinin müavinlərinin sayı artırıldı

**Ekologiya və Təbii Sərvətlər Nazirliyində birinci müavin postu yaradılıb.**

Bununla bağlı Prezident İlham Əliyev Fərman imzalayıb.

Nazirlər Kabinetinə bu Fərmandan irəli gələn məsələləri həll etmək tapşırılıb.

# İlham Əliyev: Azərbaycan-Konqo münasibətlərinin inkişaf dinamikası məmnunluq doğurur

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Konqo Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Prezident Deni Sassu Nqessoya təbrik məktubu ünvanlayıb.**

Məktubunda Prezident Deni Sassu Nqessonu və onun simasında Konqo xalqını öz adından və Azərbaycan xalqı adından ürəkdən təbrik edən, ən xoş arzularını çatdıran dövlətimizin başçısı bildirib: ”Bu gün Azərbaycan-Konqo münasibətlərinin inkişaf dinamikası məmnunluq doğurur. Aprel ayında Azərbaycana səfəriniz ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinə yeni təkan vermişdir. Eyni zamanda, bu yaxınlarda COP29-un müəyyən edilmiş Prezidentinin Konqoya səfəri iqlim dəyişmələri ilə mübarizə sahəsində ölkələrimizin tərəfdaşlığının bariz nümunəsidir.

İnanıram ki, Azərbaycan ilə Konqo arasında münasibətlərin xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq məcrasında inkişafı, çoxtərəfli müstəvilərdə, o cümlədən Bakıda təşkil ediləcək COP29 çərçivəsində səmərəli əməkdaşlığımızın davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik”.

**Azərbaycan Prezidenti belə bir əlamətdar gündə həmkarına möhkəm cansağlığı, xoşbəxtlik, işlərində uğurlar, Konqo xalqına isə daim əmin-amanlıq və firavanlıq arzulayıb.**

# DİN çağırış etdi: "Silahlar polisə könüllü təhvil verilməlidir"



**”Hələ də bəzi şəxslərdə qanunsuz saxlanılan odlu döyüş silahları, sursatlar var. Müharibə qalıqlarıdır. Kimdə varsa, könüllü təhvil verilməlidir”.**

Adalet.az xəbər verir ki, bunu Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəisi, polis polkovnik-leytenantı Elşad Hacıyev deyib.

”Polis əməkdaşlarına dünən də - avqustun 14-də paytaxt və respublikanın ayrı-ayrı rayonlarında 2 avtomat silahı, 1 tapança, 2 tüfəng, 2 patron darağı və 54 ədəd müxtəlif çaplı sursat könüllü təhvil verilib. O silahları təhvil verənlər ilk növbədə özünü və ailəsini məhrumiyyətlərdən xilas edir. Bilir ki, əməliyyat tədbirləri ilə tutulsa cinayət məsuliyyətinə cəlb olunacaqdır. Silah təhlükə mənbəyidir, geci-tezi var, o silahı gizlədən şəxs onu bir gün çıxaracaqdır. Bu sirr deyil ki, əsəb gələndə, sərxoş olduqda insanın ağlı gedir, affekt halı yaranır, yaxud şəxsiyyət ikiləşir. Heç kim deyə bilməz ki, əsəbləşən, sərxoşluq halında olan biri o silahdan istifadə etməyəcəkdir. Ona görə də bir daha çağırış edirik, o silahlardan kimdə varsa könüllü təhvil versin.

Bu halda məsuliyyət yaranmır, bununla bağlı zəmanət veririk, diqqətə çatdırırıq ki, cinayət aləti olmayan silahları könüllü təhvil verən şəxslərlə bağlı indiyə qədər heç hansı tədbir görülməyib və görülməyəcəkdir”, - deyə o qeyd edib.

# Türkiyə səmaları “Polad qübbə” vasitəsilə qorunacaq




**Türkiyə tarixinin ən böyük addımlarından biri olacaq ”Polad qübbə” hava müdafiəsi sistemi layihəsinin icrasına başlayır.**

Adalet.az xəbər verir ki, Türkiyənin yerli şirkətləri tərəfindən son zamanlarda hazırlanan yeni nəsil sistemlər vasitəsilə unikal bir qalxan yaradacaq ”Polad qübbə” ölkəyə qarşı havadan təhdidləri aradan qaldırmaq məqsədi daşıyır.

Fərqli keyfiyyət və güclərə malik hərbi texnikanı bir araya gətirəcəyi üçün ”sistemlər sistemi” olaraq xarakterizə edilən layihəyə Türkiyənin texnologiya sahəsi üzrə flaqmanları olan ”ASELSAN” və ”ROKETSAN” şirkətləri, həmçinin bir sıra müvafiq təşkilatlar cəlb edilib. Onlar tərəfindən hazırlanan yerli sistemlər süni intellektdən istifadə edilərək birbiri ilə inteqrasiya olunacaq.

Layihədə ASELSAN tərəfindən hazırlanmış hər cür hava şəraitinə uyğun özüyeriyən zenit silahı - QORQUT, hava hücumuna qarşı avtonom raket sistemi - HİSAR-A+, hava müdafiə sistemi GÖKDEMİR, hava və quru təhlükələrinə qarşı hazırlanan GÖKER silah sistemi, mobil lazer silah sistemi - GÖKBERK, qırıcı təyyarələrdən qanadlı raketlərə qədər geniş spektrli təhlükələrə qarşı orta hündürlükdə hava hücumundan müdafiə raket sistemi - HİSAR-O+ və daha bir hava müdafiə sistemi - SİPER istifadə ediləcək.

”Polad qübbə” layihəsində, həmçinin ”ROKETSAN” istehsalı lazer sistemi ilə təchiz edilmiş mini/mikro toplu pilotsuz hava vasitələrini təhlükəsiz məsafədə zərərsizləşdirən ALKA, mobil hava hücumundan müdafiə sistemi BURÇ, hava hücumundan müdafiə raket sistemi SUNGUR, dəniz vasitələrinə qarşı yer səthinə yaxın və ya yüksəkdən təhlükə yaradacaq texnikaları aradan qaldıracaq, elektron hücuma dayanıqlı raket sistemi LEVENT, müxtəlif raket və hərbi aviatexnikaya qarşı hazırlanan HİSAR raket ailəsi və uzun mənzilli regional hava müdafiə sistemi SİPER kimi müasir texnikalar da yer alacaq.

Layihənin əsasını təşkil edəcək amillərdən biri də süni intellekdir.

Layihə barədə danışan Türkiyə Respublikasının Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri Haluk Görgün bu məqama aydınlıq gətirib. O deyib ki, ”Polad qübbə” laylı hava hücumundan müdafiə sistemləri ilə bütün sensor və silahların bir şəbəkə quruluşu altında inteqrasiya olunmuş şəkildə işləməsi, eləcə də ortaq hava rəsminin yaradılması, real vaxt rejimində əməliyyat mərkəzlərinə çatdırması və süni intellekt dəstəyi ilə qərarvericilərə ötürülməsini təmin edəcək.

Ölkə səmalarında oynayacağı qalxan rolundan əlavə, günbəz düşmən elementləri üçün bir növ maneə olacaq.

Qeyd edək ki, Türkiyənin ”Polad qübbə” sisteminin fəaliyyətə başlayacağı tarixə yaxın vaxtlarda aydınlıq gətiriləcəyi gözlənilir.

*Aqil ABBAS*

# "QARABAĞ"ın AYĞIRLARI "LUDOQORETS"İ TAPDAQ-TAPDAQ ELƏDİ

*Qarabağ atları başqa at növlərindən çox fərqlənir. Məsələn, gözəllikdə ərəb atıdı və qısa məsafədə ərəb atları Qarabağ atlarını keçirlər. Amma uzaq məsafədə Qarabağ atları ərəb atlarına deyirlər ki, sən bir nəfəsini al, gəlirik. Bu da onların sinələrinin daha geniş olması ilə bağlıdır.*

*Qarabağ atlarının başqa atlardan bir fərqi də odur ki, Qarabağ atları döyüş atlarıdır, çevikdir, düşmənin zərbələrindən yayınıb çıxa bilir. Eyni zamanda üstündəki döyüşçü ilə bərabər savaşır, həm qabaq ayaqları ilə, həm də ağızları ilə düşməni parçalayır.*



*"Nəsimi" filmində belə bir yer var ey: "Mən sənə at ağızlı oğlanlar vermişdim". Bu ifadə də ordan gəlir.*

*İndi "Qarabağ" Çempionlar Liqasının ikinci təsnifat turunda Bakıda uduzmağına baxmayaraq (o da hakimlərin köməyi ilə), Bolqarıstanda "Ludoqorets" komandası ilə Qarabağın ayğırları kimi döyüşdülər. Son nəfəsədək çarpışdılar və möcüzə göstərdilər. Rəqib komandanın qapısına onun öz meydançasında 7 top vurdular.*

*7-ci top vurulanda şərhçimiz çox gözəl bir söz dedi:*

*- Yeddi oldular, bəy!*

*Qurban Qurbanov həm oyunun əvvəlində uduzanda, həm də sonra dönüş yaradıb qələbə qolları vurulanda yenə həmişəki kimi özünü təmkinli apardı.*

*Qurban xoca bir məktəbdir. Bu məktəbin nə sirri varsa, bircə özü bilir. Qurban xocanın məktəbində ən zəif oyunçusu da qısa bir müddətdə ulduza çevrilir.*

*Bu məktəbi atıb gedənlər başqa komandalarda oyun göstərə bilmirlər və getmələrinə də peşman olurlar. Çünki həmin komandaların müəllimləri*

*Qurban xoca ola bilməzlər.*

*Xocamızı ürəkdən təbrik edirəm, eləcə də bütün yetirmələrini.*

*Eyni zamanda komandanın direktoru Emrah Çelikeli və prezidenti Tahir Gözəli də təbrik edirəm.*

*Tanrı "Qarabağ"ımızı qorusun! Tanrı Qurban Qurbanovu qorusun!*

*Tanrı həmişə yar və yardımçıları olsun!*

# Əmək Məcəlləsinə hansı dəyişiklik edilib?

**Azərbaycan Prezidenti Əmək Məcəlləsinə dəyişiklikləri təsdiq edib. Yeni fərmanla Azərbaycanda əmək müqaviləsinin bağlanması qaydası dəyişir, kağız daşıyıcılardan elektron sistemə keçid edilir.**

Adalet.az xəbər verir ki, bunu Vüqar Bayramov deyib. Onun sözlərinə görə, qanuna əsasən, əmək müqaviləsi elektron sənəd formasında bağlanacaq və bildiriş ləğv olunacaq:

”Bununla da, elektron informasiya sistemində məlumatları mövcud olan əmək kitabçaları işəgötürənlər tərəfindən işçilərə təhvil veriləcək. Bu qanun qüvvəyə mindiyi günədək bağlanılmış əmək müqavilələrinin elektron sənəd formasına keçirilməsi müvafiq icra hakimiyyəti orqanın müəyyən etdiyi mərhələlərə uyğun olaraq həyata keçiriləcək. Yeni dəyişikliklər əmək münasibətləri, dövlət sosial sığorta sistemində fərdi uçot və məşğulluq sahələrində rəqəmsal xidmətlərin genişləndirilməsinin hüquqi əsaslarını müəyyən edən normativ hüquqi aktların təkmilləşdirilməsinə xidmət edəcək.

Dəyişikliklər və təkmilləşdirilən altsistem işçi qüvvəsi balansı, işçi qüvvəsinə təklif və tələbin ehtimal olunan həcmi və bölüşdürülməsi barədə dəqiq göstəricilər əsasında təhlillərin aparılmasına imkan yaradacaq.

Buna əsasən əmək, dövlət sosial sığorta sistemində fərdi uçot və məşğulluq sahələrində vahid platforma üzərindən rəqəmsal idarəetmənin tətbiqi digər inzibati orqanlar tərəfindən inzibati icraat çərçivəsində məlumat mübadiləsini asanlaşdırmaqla, bu sahədə süründürməçilik, saxtakarlıq, korrupsiyaya şərait yaradan halların aradan qaldırılmasına gətirib çıxaracaq”.

# 85 saylı Füzuli-Ağcabədi Seçki Dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Aqil Abbas seçicilərlə görüşdü

## *Aqil Abbas şəhid ailəsindən xeyir-dua aldı*

**85 saylı Füzuli-Ağcabədi Seçki Dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Aqil Məhəmməd oğlu Abbasov (Aqil Abbas) 2016-cı ilin Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuş Ağcabədi rayonunun Hindarx qəsəbə sakini Dilsuz Qarayevin ailəsini ziyarət edib. Deputatlığa namizəd şəhid ailəsi ilə səmimi söhbət edib, onların xeyir-dualarını alıb.**

Aqil Abbas Dilsuz Qarayevin vətənpərvərliyindən, cəsurluğundan, Aprel döyüşlərində göstərdiyi qəhrəmanlıqdan bəhs edib. Bildirib ki, Dilsuz kimi Vətən oğullarının sayəsində əldə edilmiş qələbə silahlı qüvvələrin şəxsi he-



yətində böyük ruh yüksəkliyi yaradaraq böyük Zəfərin başlanğıcını qoydu.Şəhid ailələri başımızın tacıdır. Onların dəstəyi mənim üçün mənəvi anlamda ən önəmli dəstəkdir. Bundan sonra da onların dəstəyinə layiq ola bilmək üçün əlimdən gələni edəcəyəm. Şəhidin anası Cəvahir Hacıyeva qəhrəman övladının qısa, ancaq şərəfli ömür yolundan danışıb.

Çay süfrəsi arxasında Aqil Ababsın şəhid ailəsi ilə söhbəti çox səmimi və yaddaqalan olub. Hətta şəhid ailəsinin başçısı Aqil müəllimlə söhbət zamanı dedi ki, mən heç kəslə belə ürək söhbəti etməmişdim. Aqil müəllim də həmişə şəhid ailələrinin yanında olacağını bildirib. Bu görüşdən şəhid ailəsinin başçısı Məmmədağa müəllim çox razı qalıb, səmimi yaddaqalan görüşə görə Aqil Abbasa öz təşəkkürünü bildirib.

## *Boyat seçiciləri ilə görüş*



**85 saylı Füzuli-Ağcabədi Seçki Dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Aqil Məhəmməd oğlu Abbasov (Aqil Abbas) Ağcabədinin Boyat kəndində seçicilərlə görüş keçirib. Əvvəlcə Vətən uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Adalet.az xəbər verir ki, seçiciləri ilə mütəmadi görüşlər keçirən Aqil Abbası kənd camaatı yüksək əhval ruhiyyədə qarşıladılar. Onlar bu illər ərzində etimad göstərdikləri deputatları ilə səmimi söhbət etdilər, rayonda , kənd və kənd yollarında aparılan abadlıq işlərindən, dövlətin əhalinin sosial rifahına yönəli atdığı addımlardan razı qaldıqlarını bildirdilər. Öz növbəsində də deputatlığa namizəd seçicilərinə 01 sentyabr tarixində keçiriləcək seçkilərdə aktiv olmağı tövsiyyə etdi. Və bütün bu illər ərzində olduğu kimi yenə də onların şikayət və problemlərini dinləməyə hazır olduğunu, həllində bütün imkanları ilə çalışacağını dilə gətirdi.

## *Hacılarda görüş*



**85 saylı Füzuli-Ağcabədi Seçki Dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Aqil Məhəmməd oğlu Abbasovun (Aqil Abbas) seçicilərlə görüşü davam edir. Görüşdən öncə Vətən uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Adalet.az xəbər verir ki, Ağcabədi rayonunun Hacılar kəndində kənd sakinləri ilə açıq havada görüşən namizəd deputat olduğu müddətdə gördüyü işlərlə bağlı məlumat verib və növbəti dəfə seçicilərinin ehtimadını qazanacağı təqdirdə görəcəyi işlər barədə planlarını açıqlayıb.

Kənd sakinləri Hacılar kəndinin yollarının yenidən qurulması, infrastrukturun yaxşılaşdırılması yolunda görülən işlərə görə ölkə prezidentinə təşəkkürlərini bildirdilər.Onlar seçkilərdə fəal iştirak edəcəklərini də bildiriblər.

## *Görüş Qaraxanlıda keçirildi*

**85 saylı Füzuli-Ağcabədi Seçki Dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Aqil Məhəmməd oğlu Abbasov (Aqil Abbas) Ağcabədi rayonun Qaraxanlı kəndində seçicilərlə açıq havada görüş keçirib.Görüşdən öncə Vətən uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Adalet.az xəbər verir ki, Kənd camaatı tərəfindən xoş qarşılanan Aqil Abbas onların problemlərini dinləyib. Öz növbəsində də deputatlığa namizəd seçicilərinə 01 sentyabr tarixində keçiriləcək seçkilərdə aktiv olmağı tövsiyyə etdi. Və bütün bu illər ərzində olduğu kimi yenə də onların şikayət və problemlərini dinləməyə hazır olduğunu, həllində bütün imkanları ilə çalışacağını dilə gətirdi.

Aqil Abbas onu da qeyd edib ki, bütün problemli məsələlərin cənab Prezidentin nəzarətində olduğunu və tezliklə öz həllini tapacağını deyib.

## *Seçicilərin sualları cavablandı*

**85 saylı Füzuli-Ağcabədi Seçki Dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Aqil Məhəmməd oğlu Abbasov (Aqil Abbas) Ağcabədi rayonun İmamqulubəyli kəndində seçicilərlə açıq havada görüş keçirib.Görüşdən öncə Vətən uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Adalet.az xəbər verir ki, Kənd camaatı tərəfindən xoş qarşılanan Aqil Abbas onların problemlərini dinləyib. Cənab prezidentin ölkədə apardığı islahatlardan məmnun olduğunu bildirən kənd camaatı onları narahat edən problemlərdən də danışıblar.



Öz növbəsində də deputatlığa namizəd seçicilərinə 01 sentyabr tarixində keçiriləcək seçkilərdə aktiv olmağı tövsiyyə etdi.

## *Aqil Abbas Qiyamadınlı seçicilərini dinlədi*

**85 saylı Füzuli-Ağcabədi Seçki Dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Aqil Məhəmməd oğlu Abbasov ( Aqil Abbas) Ağcabədi rayonun Yuxarı Qiyaməddinli kəndində seçicilərlə açıq havada görüş keçirib.Görüşdən öncə Vətən uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Adalet.az xəbər verir ki, görüş zamanı deputatlığa namizəd son vaxtlar ölkədə aparılan islahatlar, regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları, ölkənin daxili və xarici siyasətindəki vəziyyət, eləcə də, özü və fəaliyyəti haqqında ətraflı məlumat verib.



Daha sonra kənd sakinlərinin qayğılarını dinləyən Aqil Abbas ölkəmiz güclənir və yaxın zamanlarda həllini gözləyən problemlərin də öz həllini tapacağına inandığını deyib.

A. Abbas Azərbaycanın bölgədə və dünyada artan nüfuzu, beynəlxalq siyasətdə Azərbaycanın rolu və yeri haqqında, bütün ölkədə, eləcə də 85 saylı Füzuli-Ağcabədi seçki dairəsi ərazisində və ümumiyyətlə cənab Prezidentimizin rəhbərliyi altında dövlət tərəfindən həyata keçirilmiş böyük işlər, önəmli layihələri vurğulayaraq rayonun daha da inkişafı istiqamətində işlərin daha da sürətlənəcəyini deyib.

Seçicilər yenə seçimlərinin Aqil Abbas olacağını vurğulayıblar və ona uğurlar diləyiblər.

## *Minəxorlu sakinləri namizədlərini sayqı ilə qarşıladı*

**85 saylı Füzuli-Ağcabədi Seçki Dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Aqil Məhəmməd oğlu Abbasov ( Aqil Abbas) Ağcabədi rayonun Minəxorlu kəndində seçicilərlə görüş keçirib.Görüşdən öncə Vətən uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Adalet.az xəbər verir ki, seçiciləri ilə mütəmadi görüşlər keçirən Aqil Abbası kənd camaatı yüksək əhval ruhiyyədə qarşıladılar. Onlar bu illər ərzində etimad göstərdikləri deputatları ilə səmimi söhbət etdilər, rayonda , kənd və kənd yollarında aparılan abadlıq işlərindən, dövlətin əhalinin sosial rifahına yönəli atdığı addımlardan razı qaldıqlarını bildirdilər.

Çıxış edən kənd sakinləri Aqil Abbasın deputat fəaliyyəti dövründə elinə-obasına göstərdiyi diqqət və qayğını dilə gətiriblər. Və ondan bu dövr ərzində razı qaldıqlarını, onlar üçün hər zaman əlçatan deputat olduğunu xüsusi qeyd ediblər.

Həmçinin kəndin problemlərinin həllinə çalışan, reaksiya verən, burada gedən abadlıq və quruculuq işlərində yaxından iştirak ediyini bildiriblər.

Kənd sakinləri Aqil Abbası növbəti parlament seçkilərində də dəstəkləyəcəklərini bildiriblər.

## *Bir görüş də Kürdlərdə gerçəkləşdi*

**85 saylı Füzuli-Ağcabədi Seçki Dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Aqil Məhəmməd oğlu Abbasov (Aqil Abbas) Ağcabədi rayonun Kürdlər kəndində seçicilərlə görüş keçirib. Görüşdən öncə Vətən uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Adalet.az xəbər verir ki, seçiciləri ilə mütəmadi görüşlər keçirən Aqil Abbası kənd camaatı yüksək əhval ruhiyyədə qarşıladılar. Onlar bu illər ərzində etimad göstərdikləri deputatları ilə səmimi söhbət etdilər, rayonda , kənd və kənd yollarında aparılan abadlıq işlərindən, dövlətin əhalinin sosial rifahına yönəli atdığı addımlardan razı qaldıqlarını bildirdilər.

Öz növbəsində də deputatlığa namizəd seçicilərinə 01 sentyabr tarixində keçiriləcək seçkilərdə aktiv olmağı tövsiyyə etdi. Və bütün bu illər ərzində olduğu kimi yenə də onların şikayət və problemlərini dinləməyə hazır olduğunu, həllində bütün imkanları ilə çalışacağını dilə gətirdi.

## *Kəhrizli seçicilərindən dəstək*

85 saylı Füzuli-Ağcabədi Seçki Dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Aqil Məhəmməd oğlu Abbasov (Aqil Abbas) Ağcabədi rayonun Kəhrizli kəndində seçicilərlə görüş keçirib.Görüşdən öncə Vətən uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Adalet.az xəbər verir ki, sakinləri parlament seçkilərində fəal iştirak etməyə çağıran deputatlığa namizəd bütün seçkilərdə vətəndaşların fəal iştirakını onların Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə verdikləri dəyərli töhfə kimi qiymətləndirib.



Aqil Abbas torpaqlarımızın düşməndən azad edilməsi istiqamətində uğurlu hərbi əməliyyatlarda qazi adını qazanan Vətən övladları,şəhid ailələri ilə mütamadi görüşür, onların qayğıları ilə maraqlanır. Seçicilərlə səmimi keçən görüşdə Aqil Abbas qeyd edib ki: "Bütövləşən Vətən naminə dəmir yumruğumuzu düşmənin başına endirdik, onu əzdik, qələbə qazandıq. Qarabağ nisgili ilə dünyadan köçənlərimizin, şəhid oğullarımızın ruhları şad oldu. Möhkəm iradəli xalqımız 44 günlük Vətən müharibəsindən qalib ayrılan igid əsgər və zabitlərimizlə, qanını Vətən torpağına qarışdıran şəhidlərimizlə, qazilərimizlə hər birimiz fəxr edirik".

Aqil Abbas ölkəmizin əldə etdiyi qələbə münasibəti ilə qazimizi təbrik edib, göstərdiyi qəhrəmanlığa görə təşəkkürünü bildirib.

Səmimi keçən söhbət zamanı qazimiz Azərbaycan ordusunu qələbəyə çatdıran döyüş təsüratlarını bölüşüb, xatirələrini danışıb, 44 günlük müharibə Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti və iradəsi ilə müzəffər ordumuzun gücünün, xalqımızın birliyinin təsdiqi olduğunu deyib.

Görüşdə kənd sakinləri, ziyalılar Aqil Abbasın onlarla mütəmadi olaraq görüşməsini, onların problemlərinin həlli istiqamətində daim əlindən gələni etməyə çalışmasını yüksək qiymətləndirdiklərini vurğulayaraq yenidən ona etimad göstərəcəklərini, ona səs verəcəklərini deyiblər.

Rüstəm Hacıyev



## Rusiya, ABŞ və Avropadan inciyib...

*”ABŞ və Avropa Ukrayna hərbi qüvvələrinin Kursk vilayətinə hücumunu niyə qınamır?”*

*İki il yarımdı Rusiya ”xüsusi hərbi əməliyyat” adı ilə Ukraynanın demək olar ki, üçdə ikisini işğal edib və işğal etməkdə də davam edir, indi bir neçə gündür ki, Ukrayna ordusunun Kursk vilayətinə hücumunun ABŞ və Avropa tərəfindən qınanmamasından inciyir.*

*Xəbər verdiyimiz kimi, bu ilin avqust ayının 6-dan Ukraynanın hərbi qüvvələri Rusiyanın Kursk vilayətini kütləvi şəkildə bombalayır və demək olar ki, vilayətin ərazilərinin içərilərinə doğru irəliləməkdədir. UHQ-nin keçirdiyi hərbi əməliyyatlarda aktiv şəkildə dronlardan istifadə olunur.*

*Yerli sakinlərin verdikləri məlumatlara görə, ölən və yaralananların sayı durmadan artmaqdadır. On minlərlə dinc sakin, təhlükəsiz yerlərə köçmək məqsədiylə evlərini tərk etmək məcburiyyətində qalıblar. Verilən məlumatlara görə, məcburi köçkünlərin sayı yüz mini ötüb. Sosial şəbəkələrdə, hücum nəticəsində dağılan evlərin, yanan avtomobillərin şəkilləri paylaşılır.*

*İki il yarımdır ki, iki qardaş xalq arasında qanlı müharibə gedir. Moskva işğal siyasətinin mahiyyətini gizətmək məqsədiylə bunun sadəcə olaraq ”xüsusi hərbi əməlliyyat” olduğunu bəyan edir və ölkəsində ”müharibə” adının çəkilməsini qadağan edib və hətta ”müharibə” adını çəkməyə görə, məsuliyyət də tədbiq edib.*

*Ukrayna tərəfi də, Kursk vilayətinin bir hissəsini zəbt etməklərini, Ukrayna prezidentinin ofis rəhbərinin məsləhətçisi Mixail Podalyakın sözləri ilə ifadə etsək, ”Kursk vilayətinə hücumların məqsədi danışıqlar prossesində Kiyevin mövqeyini gücləndirmək və yerli əhalini qorxutmaqdır”... Nə demək olar, adekvat cavabdır.*

*Beləliklə, hələ ki, hər şey okeanın o tayında əyləşən ”kuklavodların” planlarına uyğun şəkildə davam etməkdədir. Sadəcə olaraq, ara-sıra vəziyyətdən asılı olaraq ”Sem dayının” plsnlarında bəzi korrektəkər edilir.*

*Pentaqonun mətbuat katibi Sabrina Sinqx bəyan edib ki, ABŞ, hesab edir ki, Rusiya ərazilərinə hücum, vəziyyətin gərginləşdirilməsinə xidmət etmir və buna görə də, Vaşinqton Kiyevə silah-sursat göndərməyə davam edəcək: ”Ukrayna suveren torpaqlarını işğaldan azad etmək üçün bütün imkanlarIndan istifadə edəcək. Biz bunu Kursk vilayətinə təşkil olunan hücumlarda görürük”-deyə Pentaqonun mətbuat katibi bildirib.*

*Avrokomissiyanın xarici məsələlər üzrə nümayəndəsi Peter Stano da, bəyan edib ki, ”Brüssel ukraynalıların suverenliklərini təmin etmək üçün hüquqlqtını tam şəkildə müdafiə edir. Ona görə də, Ukrayna ordusunun amerikan silahları ilə Rusiya ərazilərinə hücumunu qınamır”... Bə nədi, silahları onlara muzeydə saxlsmaq üçün verməyiblər ki?..*

*Amma, ”ədalət naminə”, ABŞ və Avropa Rusiyanın Ukrayna ərazilərinə hücumunu qınadığı kimi, gərək quru sözlərlə olsa da, Ukraynanın Rusiya ərazilərinə hücumunu da qınayaydı ki, Rusiyada incik qalmasın... Sözün bitdiyi yer...*

Vüqar Abbasov



# İrəliləyiş var?

Artıq bir neçə ildir ki, məmləkətə, Azərbaycana gələndə sosial şəbəkələrin birində bu adla statuslar paylaşırdım, amma sual işarəsi qoymadan, sadəcə ”İrəliləyiş var” adı altında. Bəzi dostlar bunu yazdığım kimi qəbul edir, düşünür və gülür, bəziləri isə ciddi qəbul edib məni ”hansı irəliləyişdən danışırsan?” - deyə qınayırdı. Bəs irəliləyiş varmı? Son illərin ən böyük irəliləyişi torpaqlarımızın işğaldan azad olunması, bayrağımızın bütün ərazilərimizdə dalğalanmasıdır. Bu boyda irəliləyişi görməmək mümkün deyil. Amma əlbətdə ki, insanlar digər sahələrdə də irəliləyiş gözləyir və haqsız da deyillər. Hər kəsin gündəlik qayğılardan azad olmaq, maddi imkanlarının daha yaxşı olması istəyini anlamaq da çətin deyil. Hələ mən məmur özbaşnalığını, vaxtaşırı yaranan işıq, qaz, su probleminin, işsizliyi və.s. demirəm. Amma bunların da zamanla yoluna düşəcəyinə inamım var. Bəlkə də bir çoxlarımıza inandırıcı görünməyə bilər. Amma nəzərə alaq ki, bir neçə il öncə torpaqlarımızı geri qaytaracağımız da çoxlarına inandırıcı gəlmirdi. Yazımı çox pozitiv başladım. Deyəsən axı məndə də (əslində, pozitiv biriyəm, bəziləri tənqidi neqativ qarşıladığı üçün belə yazdım) irəliləyiş var...

### Qiymətlər

Səmimi deyim ki, məmləkətdəki qiymətlər mənə çox baha gəldi. Qiymətlər Avropadakı, bir qədər konkretləşdirsəm, yaşadığım Niderlanddakı qiymətlərlə təxminən eynidir. İki ölkə arasındakı əmək haqqı fərqlərindən isə danışmağa dəyməz. Düzünü deyim ki, məəttəl qaldım ki, bu əmək haqqı ilə insanlar gündəlik ərzaq tələbatlarını necə ödəyirlər.

### Qayğılı üzlər

Bəlkə bu bahalığın, maddi sıxıntıların nəticəsidir ki, əksər insanların üzündə təbəssüm görmək olmur. İnsanların çoxusu qayğılı və bir qədər də əsəbi gəldi mənə. Bir çox halda birinin sözü digərinə xoş gəlmirdi. ”Xahiş edirəm,” ”Təşəkkür edirəm” və.s. bu kimi müsbət enerjili sözlər sanki unudulub, çox az istifadə olunur, mənim müşahidələrimə görə. Çox adamla söhbət etdim, çox narazı insan gördüm. Sayını unutduğum qədər insan, tanıdıqlarım və tanımadıqlarım, məndən xaricə köçməyin yolları barədə soruşdu. Həm buna, həm də onlara kömək edə bilmədiyimə görə üzüldüm.

### Yollar

Avtomobil yolları, şəhərdə, şəhərin kənarında az qala günün bütün vaxtlarında sıxlıq olurdu. Bəzən saatlarla tıxacda qalmalı olurdum. Qaydaqanuna əməl edən sürücülərin sayı olduqca az idi. Əsəbləşirdim, ancaq sonra da - ”Qayda-qanunu harda öyrəniblər? Sürücülük vəsiqəsinin necə alındığı kimə sirrdir?” - deyə düşünürdüm. Adicə dönmə zamanı müvafiq işığı yandıran sürücülərə nadir halda rast gəlmək olurdu. Bir istiqamətə tıxac olurdusa, bir çoxları əks istiqamətdə gələn avtomobillərin yoluna çıxır və tıxacı daha da sıxlaşdırır və beləcə də problemi daha da artırırdılar. ”Bu qədər də axmaqlıq olar? Bunlar heçmi düşünmürlər?” - deyə öz-özümə sual edirdim. Siqnal səsindən də qulaq tutulurdu.

Şəhərdən kənarda, məsələn, Zabrat-Pirşağı yolunda olan bütün piyada keçidlərinin (Zebra) xəttləri pozulub. Tək bu olsa idi nə vardı. Qoşa xəttlərdən başqa digər bütün xəttlər az qala görünməz dərəcədə pozulub. O xəttləri keyfiyyətli çəkmək o qədər çətindir?

Yol qırağındakı yol nişanları da yetərincə deyil. Yollardakı problemlər saymaqla bitməz. Məsələ tək yol çəkməkdə deyil, həmçinin, Türkiyə türkləri demişkən, yolsuzluğa (rüşvətə) son qoymaq lazımdır. O zaman bütün yollar düzələr, tək avtomobil yolları deyil.

### Piyadalar

Yuxarıda qeyd etdim ki, yollardakı piyada keçidləri görünməyəcək dərəcədə pozulub. Yol kənarlarında səkilər isə demək olar ki, yoxdur. Olan səkilər də dardır və səkilərdə ağaclar, elektrik dirəkləri və.s. görmək adi haldır. Sağlam adam, çətinliklə olsa da, birtəhər yoluna davam edə bilər. Amma əlil arabasında olanlar, uşaq arabası ilə olan valideynlər üçün mövcud səkilərin bir çoxundan istifadə etmək imkansızdır. Hətta bu səkilərə əlil arabası, uşaq arabası ilə çıxmaq belə mümkünsüzdür. Bu səkiləri çəkənlər heçmi düşünməyiblər? Bəs bu işləri hazır vəziyyətdə təhvil alanlar hansı ağılla bu işləri qəbul ediblər? Suallar çoxdur, cavabını verən lazımdır.

### Xidmət sahələri

Restoranlarda, regionlarda, istirahət mərkəzlərində qiymətlər çox bahadır, hər halda mənə baha gəldi. Əmək haqqı ilə yaşayan birinin ailəsi ilə ildə 1-2 gün istirahət etmək imkanı ya ola, ya olmaya. Otellərin qiymətini yazmayacam, internetdə axtarış edə bilərsiniz. Bir misalla kifayətlənəcəm. Rayonlarda 4 nəfərlik kottecin qiyməti 200-250 manatdan başlayır (bir çoxunda səhər yeməyi bura daxildir). Əmək haqqı 500-600 manat olan biri sizcə, ildə neçə gün istirahət edə bilər?

Xidmət isə o qədər də yüksək səviyyədə deyil, bu sahədə çalışanların əksəriyyəti peşəkarlıqdan çox uzaqdırlar. Nə müştəri ilə danışa bilirlər, nə də xidmət etməyi. İstisnalar isə təbii ki, hər zaman var.

### Son

Əslində, sona çatmaq üçün hələ tezdir. Çox yaza, çox sadalaya bilərdim.

Amma qısa yazmağa çalışdım, buna baxmayaraq, yenə də uzun alındı. Həm də, düzünü deyim ki, şübhə edirəm ki, bu yazını aidiyyatı olanlardan kimsə oxuyacaq. Əgər oxuyacaqlarsa belə, tədbir görəcəklərini düşünmürəm. Əgər oxusalar və tədbir görsələr, o zaman tam səmimiyyətlə: - ”İrəliləyiş var” - deyərdim.

Niderland-Azərbaycan-Niderland.
vugarabbasov@hotmail.com

## “Məhdudiyyətlərə ciddi əməl olunmalıdır”




**Şəkər xəstələrinin qidalanmasında olan məhdudiyyətlərə ciddi əməl olunmalıdır.**

Adalet.az xəbər verir ki, bu fikirləri Səhiyyə Nazirliyinin rəsmi İnstaqram səhifəsində nazirliyin mütəxəssis-eksperti, qastroenteroloq Emin Məmmədov açıqlayıb.

Onun sözlərinə görə, diabet xəstələrinə şəkəri yüksək olan qidaları azaltmaq tövsiyə olunur:

”Diabet pasiyentlərdə, xüsusilə səhər və gün ərzində yeməklərində lifli qidalara üstünlük verilməsi məsləhətdir, çünki lifli qidalar şəkərin qana dərhal keçərək yüksəlməsinə imkan vermir”.

Mütəxəssis-ekspert həmçinin qeyd edib ki, digər vacib amil isə maye balansın qorunmasıdır:

”Çay və qəhvə kimi içkilər yayda sidik qovucu təsirinə görə məsləhət görülmür. Pomidor, qarpız və digər mövsümü qidalar maye və mineral balansın təmin olunmasında faydalıdır”.

## Şirkət əmək hüquqlarının pozulması ilə bağlı 20 min manat cərimə edildi



**Əmək hüquqlarının pozulması hallarına qarşı mübarizə tədbirləri davam edir.**

Səbail rayon prokurorluğundan verilən məlumata görə, ”Cinema Plaza” MMC tərəfindən əmək hüquqlarının pozulması faktı ilə bağlı Səbail rayon prokurorluğunda araşdırma aparılıb.

Araşdırma zamanı qeyd olunan hüquqi şəxs tərəfindən əmək qanunvericiliyində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxsin işlərin yerinə yetirilməsinə cəlb edilməsi müəyyən edilib.

Faktla bağlı Səbail rayon prokurorluğunda MMC barəsində İnzibati Xətalar Məcəlləsinin 192.1-ci ( əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin(xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi) maddəsi ilə inzibati xəta haqqında iş üzrə icraat başlanaraq baxılması üçün aidiyyəti üzər məhkəməyə göndərilib və məhkəmənin qərarı ilə hüquqi şəxs 20 min manat məbləğində inzibati cərimə edilib.

Eyni zamanda Cəmiyyətin direktoru Nəsimi Tağıyev barəsində həmin Məcəllənin eyni maddəsilə inzibati xəta haqqında iş üzrə icraat başlanaraq baxılması üçün aidiyyəti üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə göndərilib və vəzifəli şəxs müvafiq qərarla 4 min manat məbləğində inzibati cərimə edilib.

## ATƏT/DTİHB ilə seçkilərdə medianın fəaliyyəti müzakirə edildi



**Medianın İnkişafı Agentliyində ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) Seçki Müşahidə Missiyasının rəhbəri Ditmir Buşati və media analitiki Kira Kalinina ilə görüş keçirilib.**

Bu barədə Adalet.az-a MEDİA-dan bilidirlib.

Qeyd edilib ki, görüşdə Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Azərbaycanda media landşaftı, bu sahədə həyata keçirilən islahatların gedişatı, Agentliyin əsas fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib, qonaqların suallarını cavablandırıb.

Görüş zamanı, həmçinin 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərdə medianın fəaliyyəti ilə əlaqədar müzakirələr aparılıb.

# Könül Nurullayeva seçki təbliğat-təşviqat kampaniyasını davam etdirir



**Könül Nurullayeva seçki təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüşünü Nizami rayonundan olan fəal gənclərlə keçirib. Deputat Qərargahından verilən məlumata görə, görüş zamanı Azərbaycanın hər bir guşəsində keçiriləcək seçkilərin, eyni zamanda səsvermə hüququndan istifadənin cəmiyyətimiz üçün əhəmiyyətinə toxunulub. Könül Nurullayeva gələcəyimiz olan gənclərlə bir arada, onlara dəstək olmaqdan məmnunluq ifadə edib. "İnanıram ki, dövlətimizin inkişafı üçün ən önəmli faktorlardan olan gənclərimizin vətənpərvər ruhda böyüməsi və təhsilli olması bizi parlaq gələcəyə doğru aparacaq", - deyə o, əlavə edib.**

Daha sonra Nizami rayonu A.Manafov 5 və Özbəkistan küçəsi 6 ünvanlarında yaşayan seçiciləri ilə görüş keçirən Könül Nurullayeva, onların problemləri ilə yaxından maraqlanıb. O, həmçinin 2020-2024-cü illər üzrə deputatlıq fəaliyyətindən bəhs edib.

Könül Nurullayeva Nizami rayonundan olan şəhidlərin ailə üzvlərini də daim diqqət mərkəzində saxlayır. Belə ki, K.Nurullayeva Vətən müharibəsi şəhidi Cavid Manafovun anası Natavan xanım və qardaşı Cahada baş çəkərək onlarla söhbətləşib. Eyni zamanda şəhid Alı Həsənlinin atası Nofəl kişini və Ramilə xanımı ziyarət edən Könül Nurullayeva, onlarla fikir mübadiləsi aparıb. Qeyd edib ki, ölkəmizin ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərin əzizlərinə diqqət göstərmək, onların problemlərinin həllinə çalışmaq hər bir Azərbaycan vətəndaşının mənəvi borcudur.

Könül Nurullayeva təbliğat-təşviqat kampaniyası çərçivəsində Nizami rayonu Rüstəm Rüstəmov küçəsi 21A, mənzil 31 və Nəsimi küçəsi 29, mənzil 48 ünvanlarında yaşayan seçiciləri Oruc Haqverdiyev və Nərgiz Məmmədovanın da evini ziyarət edib. Görüş zamanı ev sahibləri ilə yanaşı, qonşularla da səmimi söhbət edən K.Nurullayeva, onları narahat edən məsələlərlə yaxından tanış olub, fəaliyyəti ilə bağlı onları məlumatlandırıb.






**Könül Nurullayeva, həmçinin Qara Qarayev prospekti 39, mənzil 52-də yaşayan seçicisi Tahirə Məmmədovanın evinə baş çəkib. Ziyarəti zamanı daun sindromlu gəncimiz Yeganə Əmrəliyeva ilə yaxından maraqlanıb. Qeyd edib ki, xüsusi qayğıya ehtiyacı olan vətəndaşlarımız dövlətimizin qayğısı ilə əhatə olunub. "Daun sindromlu həmvətənlərimizin inkişafına, onların cəmiyyətə inteqrasiyasına töhfə vermək ihər birimizin mənəvi öhdəliyidir", - deyə o, sonda əlavə edib.**

## *Komando kursunun buraxılışı oldu*

**2024-cü il üçün hazırlıq planına uyğun olaraq, "Komando başlanğıc kursu"nun növbəti buraxılış mərasimi keçirilib.**

Adalet.az xəbər verir ki, bu barədə MN-dən bildirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Kurs iştirakçılarına Müdafiə Nazirliyi rəhbərliyinin təbrikləri çatdırılıb.

Mərasimdə çıxış edənlər Azərbaycan Ordusunda hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin yüksəldilməsi və döyüş qabiliyyətinin artırılmasında bu cür kursların əhəmiyyətini qeyd edib, kursantlara gələcək xidməti fəaliyyətlərində uğurlar arzulayıblar. Sonra kurs birincisi tərəfindən yaş kötüyünə rəmzi emblem vurulub, hərbi qulluqçulara sertifikatlar təqdim olunub.Buraxılış mərasiminin sonunda şəxsi heyət təntənəli marşla tribuna önündən keçib.

# Səhiyyə Nazirliyindən əhaliyə çağırış

**Hazırda əhali arasında arabir hərarətin yüksəlməsi, ümumi zəiflik, baş və əzələ ağrıları, yuxarı tənəffüs yollarının zədələnməsi əlamətləri olan öskürək, boğaz ağrısı, burun axması və ya tutulması kimi, bəzən isə ürəkbulanma, qusma, qarın işləməsi kimi hallar müşahidə edilir**



Adalet.az xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Təyyar Eyvazov deyib.

Onun sözlərinə görə, bunlara səbəb əsasən müxtəlif virus və bakterial infeksiyalardır:

"Hər il isti aylarda kəskin respirator virus infeksiyalarından paraqrip, adenovirus infeksiyaları mühitdə dövr etdiyindən, hazırda da bu tip xəstəliklər qeydə alınır. Hətta isti aylarda bəzən yoluxma saylarında artımlar da müşahidə olunur. Adenoviruslar təkcə tənəffüs yollarını deyil, mədə-bağırsaq sistemini də zədələyə bilir. Eyni zamanda, hər iki sistemin zədələnmə əlamətləri ilə müşayiət olunan və isti dövrlərdə rast gəlinən rotavirus, hava-damcı və təmas ilə daha çox yayılan enteroviruslardır". Ekspert bildirib ki, bu cür infeksiyaların isti aylarda yayılmasının müxtəlif səbəbləri var:

"Bunlara həddən artıq isti havanın immunitetə mənfi təsir göstərməsi, yuxarı tənəffüs yollarının quruması nəticəsində infeksiyalara müqavimətin azalması, kondisionerlərin istifadəsi zamanı açıq hava ilə müqayisədə yaşayış və iş yerlərində kəskin temperatur fərqinin olması, otaqların qapalı saxlanması, yay məzuniyyəti ilə əlaqədar əhalinin müxtəlif kütləvi istirahət tədbirləri, çimərlik mövsümünü və s. aid etmək olar".

T.Eyvazov, həmçinin qeyd edib ki, bu infeksiyalar əsasən yüngül və fəsadsız keçir:

**"Özümüzü qorumaq üçün xəstəlik əlamətləri olan şəxslərlə yaxın təmasdan çəkinməli, gigiyena qaydalarına əməl etməliyik. Unutmayaq ki, yay aylarında rast gəlinən günvurmanın əlamətləri də bu xəstəliklərlə oxşar ola bilər. Yuxarıda qeyd edilən əlamətləri özündə hiss edən insanlara vaxtında həkimə müraciət etmək tövsiyə olunur".**

## *İran İsraildən tək bir şərtlə qisas almayacağını bildirdi*



**İran, İsraildən qisas almaqdan bir şərtlə imtina edəcəyini bildirib.**

Adalet.az xəbər verir ki, "Reuters"-ə istinadən xəbər verir ki, İran rəsmiləri İranın HƏMAS-ın siyasi lideri İsmayıl Haniyənin Tehranda öldürülməsinə qarşı İsrailə hücum planından yalnız İsraillə HƏMAS arasında atəşkəs əldə olunarsa, imtina edə biləcəyini bildirib.

Mövzunun həssaslığına görə adının açıqlanmasını istəməyən mənbələr, Haniyə və Hizbullah komandiri Fuad Şükrün öldürülməsindən sonra Yaxın Şərqdə genişmiqyaslı müharibə riskinin artdığı üçün İranın Qərblə müzakirələr apardığını bildirib. ölkələrlə ABŞ-nin son günlərdə İsrailə qarşı intiqamının necə olacağı mövzusunda sıx bir dialoq içində olduğunu ifadə edib.

# *Məzahir Pənahovun MDB-nin nümayəndə heyəti ilə görüşü baş tutub*

**Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov avqustun 13-də Milli Məclisə qarşıdan gələn seçkiləri izləmək üçün ölkəmizdə səfərdə olan Müstəqil Dövlətlər Birliyi (MDB) Baş katibinin müavini Nurlan Seytimovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Adalet.az xəbər verir ki, M.Pənahov Milli Məclisə seçkilər ərəfəsində keçirilən görüşdən məmnunluğunu bildirib. O, rəhbərlik etdiyi qurumun daim şəffaf fəaliyyət göstərdiyini, əməkdaşlığa açıq olduğunu vurğulayıb. Diqqətə çatdırıb ki, beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əlaqələrə mühüm əhəmiyyət verən MSK münasibətləri bundan sonra da davam etdirmək və daha da dərinləşdirmək niyyətindədir. MDB Baş katibinin müavini N.Seytimov kifayət qədər sıx iş qrafikinə rəğmən, görüş üçün vaxt ayırdığına və səmimi qəbula görə MSK sədrinə minnətdarlığını ifadə edib. Nümayəndə heyətinin rəhbəri MDB missiyasının uzunmüddətli müşahidəçilərinin artıq fəaliyyətə başladığını, paytaxt Bakıda və regionlarda seçkilərə hazırlığı yaxından izlədiklərini deyib.

MSK sədri Milli Məclisə seçkilərin ilk dəfə Azərbaycanın bütün suveren ərazilərində keçiriləcəyini diqqətə çatdırıb, seçki komissiyalarının fəaliyyət prinsipləri, müxtəlif statuslu seçki iştirakçılarını əhatə edən genişmiqyaslı maarifləndirmə layihələri, seçici siyahılarının dəqiqləşdirilməsi istiqamətində atılan addımlar və son hazırlıq işlərindən danışıb, eləcə də beynəlxalq müşahidəçilərin suallarını cavablandırıb.

MDB Baş katibinin müavini Milli Məclisə seçkilərin qanunvericiliyin tələblərinə uyğun azad, ədalətli, şəffaf keçəcəyinə və Azərbaycanın gələcək inkişafına töhfə verəcəyinə əminliyini bildirib.

Görüş çərçivəsində, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi də aparılıb.

## *ABŞ Yaxın Şərqdə "sülh yaratmaq üçün" silahlar göndərir?...*

**ABŞ prezidenti Co Baydenin administrasiyası Səudiyyə Ərəbistanına 10 min ədəd aviabomba göndərəcək. Bunun üçün Ər-Riyadın İsrail-Fələstin münaqişəsinin sülh danışıqlarInda vasitəçiliyi nəzərə alınaraq, əvvəlcədən bu bölgəyə silah höndərilməsiylə bağlı məhdudiyyətləri aradan qaldırılıb.**



"Razılığa əsasən ilkin mərhələdə 3000 ədəd kiçik diametrli və 7500 ədəd Paveway IV bombaları göndəriləcək"- deyə bu barədə məlumat verən The Wall Street Journal qəzeti yazır.

Bundan başqa, Bayden administrasiyası İsrailə 20 milyard dollarlıq silahsursat gpndərməyi planlaşdırır.

Beləliklə, ABŞ Yaxın Şərqdə "sülh yaratmaq üçün" bu bölgəni silahlarla doldurur..?

**Rüstəm Hacıyev**




Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az


# Allahın çox istədiyi adam...

**...Biz elə bilirik ki, Allah hamını çox istəyir. Amma bu heç də belə deyil. Allah ən çox istədiyi bəndələrini ən uca zirvəyə qaldırır və görür ki, bu bəndə o ucalığa layiqdir, onu həmişə ömrünün sonuna qədər həmin zirvədə saxlayır...**

**...Allahın ucalığa qaldırdığı və orda saxladığı, sonra da sevə-sevə öz dərgahına apardığı bəndələrindən biri də Füzuli rayonundan olan böyük yazıçı, jurnalist, publisist, ziyalı və sözün həqiqi mənasında füzulilərin məhəbbətini qazanmış Oqtay Bəndalı oğlu Əliyevdir (Ərgünəş).**

**Oqtay müəllimi mən 1976-cı ildə BDU-nun jurnalistika fakültəsinin III kursunda oxuyarkən "Araz" qəzetində təcrübədə olanda tanıdım. Bir çoxları bizə qısancılqla yanaşsa da, amma o, öz sadəliyi, səmimiliyi və gülər üzüylə bizə öz sevgisini verdi. Çünki mən tək deyildim, məndən başqa tələbə dostlarım - Nizaməddin Rəfiyev və Teyfur Mehdiyev də orada idi. Elə o vaxtdan mənim yaddaşımda Oqtay Ərgünəş bir nur parçası kimin qaldı. Yadımda qalan həm də o oldu ki, o, "Araz" qəzetinin redaktor müavini idi. Bütün bunlar hamısı Oqtay müəllimin əsil-nəcabətli bir nəsildən olduğunu göstərirdi. Göstərirdi ki, atası Bəndalı kişi Sosialist Əməyi Qəhrəmanı olsa da, yüksək vəzifədə əyləşsə də övladlarına çox gözəl tərbiyə vermişdi. Daha doğrusu, onlara halallığın yolunu göstərmişdi. Elə övladları da, o cümlədən Oqtay müəllim də bu halal işıqlı yolu seçmişdilər...**



**...O, Füzulinin ən böyük ziyalılarından biriydi. Müxtəlif vəzifələrdə olsa da, maddi imkanı artsa da yenə dəyişməmişdi; 1976-cı ildə tanıdığım Oqtay müəllim idi! Amma bir şey dəyişmişdi, yaşa dolduqca bir qədər də müdrikləşmişdi, bir qədər də sadələşmişdi və bir qədər də çöhrəsində nur çoxalmışdı...**

**Mən onun kimi böyük ürək sahibi olan ziyalılar az-az tanıyıram. Heç kəsin xətrinə dəyməsin. Oqtay Ərgünəş Füzuli ziyalılarının komandanı idi. Ən azından ona görə ki, füzulilərin bütün xeyir-şərində iştirak edirdi. Və bir körpü olaraq onları bir-birinə birləşdirirdi. Tək mənə qarşı yox, Mahmud Qacara, Əbülfət Mədətoğluna, Umud Rəhimoğluna, Mais Kazımova, Süleyman Qaradağlıya... bir sözlə, bütün yaradanlara qarşı çox diqqətli idi. Mahmud Qacar dünyasını dəyişəndə canını qoymağa yer tapmırdı. Çünki onlar çox yaxın dost idilər, daha doğrusu bir-biriylə nəfəs alırdılar. Çox qısa zamanda Mahmud Qacarla bağlı onun ölümündən sonra Umud Rəhimoğlu redaktorluğu ilə çox gözəl bir unikal kitab araya-ərsəyə gətirdi. Dedim ki, Oqtay müəllim, bu kitabla Mahmud qardaşımıza yeni bir ömür verdin. Və bu kitab Mahmudun ailəsi tərəfindən çox böyük sevinclə qarşılandı, onlara bir təsəlli oldu...**

**Oqtay Ərgünəşin bir-birindən gözəl kitabları çap olunub. Hamısı da oxucular tərəfindən böyük sevgilə qarşılanıb. Onun bir neçə cümlə ilə yazdığı hekayə və deyimləri çox qeyri-adi, unikal və bal kimi şirindir. Çoxunun romanda, povestdə, hekayədə deyə bilmədiyi fikirləri, Oqtay müəllim bir cümlə ifadə edib. Bu da onun istedadının və savadının nəticəsi idi...**

**...Mənim dünyada dostlarım o qədər də çox deyil. Yəni o dostlar barmaqla sayılası insanlardır. Bir neçə ay bundan əvvəl bir yazı qələmə almışdım. Məqalənin başlığı belə idi: "İtirdim, dostları, itirdim bir-bir..." Oqtay müəllim o yazını oxuyub çox kövrəlmişdi. Məni görəndə dedi ki, nə yaxşı o dostları unutmursan, yazılarında yaşadırsan. Mən də dedim ki, mənim qardaşlıq borcumdur! Heç ağlıma gəlməzdi ki, bir aydan sonra onun barəsində belə bir ağrılı-acılı, dərdli-qəmli yazı qələmə alacam. Dostumuz və qardaşımız Əbülfət Mədətoğlunun anasının yas məclisinə o, mən və Mais Kazımov bir yerdə getmişdik.**

**Məclisdən çıxanda gözəl həkim və ziyalı Rafiq Yusifli ilə görüşdü. Onu və bizi maşınına mindirib, metronun "Elmlər Akademiyası" stansiyasına gətirdi. İstədi bizi Günəşliyə aparsın, Rafiq həkim razı olmadı. Maşından düşüb onunla xudahafizləşdik və metroya mindik. Elə yolboyu da Rafiq həkimlə Oqtay Ərgünəşin sədaqətindən, etibarından və dostluğundan danışdıq. Heç inanmazdı ki, bu bizim Oqtay müəllimlə son görüşümüz olacaq...**

**...Onu itirəndə çox kədərləndik, dərdimiz, qəmimiz bizi üzdü. Hətta Əbülfət Mədətoğlu dedi ki, Oqtay müəllimin ölüm xəbərini eşidəndə səhərə kimi ağlamışam. O adam xoşbəxtdir ki, dünyasını dəyişəndə onun dalınca ağlayanı var. Oqtay müəllimin ağlayanları bəlkə də minlərlə insan idi. Amma Oqtay müəllim istəməzdi ki, dostları, doğmaları ağlasın.**

**O, həmişə məğrur dayanardı, uca dağ, qaya kimi əzəmətli görünərdi və ömrünün sonuna qədər də elə uca dağ kimi dayandı. Ölümü də dağ kimi sevgi ilə qarşıladı. Yazımızı Ramiz Rövşənin aşağıdakı misralar ilə bitirmək istəyirik:**

**Qəbrim üstə istəmirəm**
**Bir dost-tanış ağlasın,**
**Bir az külək uğuldasın,**
**Bir az yağış ağlasın...**

## *Adam nə qədər imtahan verər?!*

**Mənim Azərbaycan müəllimlərinə lap yazığım gəlir.**

Düşünürəm ki, bizim müəllimlər dünyanın ən dözümlü və ən səbrli müəllimləridir! Ay qardaş, bu müəllimləri nə qədər imtahan eləmək olar?!İmtahan verib, orta məktəbi qurtarırlar. İmtahan verib ali məktəbə qəbul olurlar, təzədən imtahan verib müəllim olmaq üçün növbəyə durular. Bununla da iş bitmir, ha! Yenidən diaqnostik imtahanından keçirlər! Və bu da bəs eləmir! Sertifikasiya imtahanından da keçmək lazımdır! Ondan da keçirlər! Bundan sonra isə müsahibədən, yəni söhbətdən də keçmək lazımdır! Bax, burda lap ağ eləyirlər.



Əgər müəllim bu mərhələni keçirsə, bəs onda söhbətdən keçməyə nə ehtiyac var?! Bu qədər süzgəcdən keçmək görəsən, yetərli deyilmi?! Müəllim nə günah edib ki, onu bu qədər çək-çevirə salırlar?! Nə isə! Allah Azərbaycan müəllimlərinə böyük səbr verib. Və bundan sonra da onlara möhkəm səbr arzulayırıq ki, bu qədər sorğu-suala dözsünlər və əsəbləşib ürək, şəkər xəstəliklərinə düçar olmasınlar! Onsuz da onları işdən çıxarmaq üçün yüz bəhanə axtarırlar. Bax bu da o bəhanələrdən biri olar!!!

## *Piyadalar qaydaları pozurlar*

**Yol hərəkəti iştirakçısı kimi piyadaların üzərinə böyük məsuliyyət düşür! Yəni onlar yolu keçərkən yol hərəkəti qaydalarına əməl etməli və təyin olunmuş yerlərdən keçməlidir.**

Başqa sözlə demiş olsaq, onlar yeraltı və yerüstü keçidlərindən istifadə etməli, piyadalar üçün ağ zolaqlı yerlərdən, işıqforun yaşıl işığı yanarkən keçməlidirlər! Amma bu qaydalara çoxları əməl etmir və nəticədə piyadavurma halları baş verir! Hadisə baş verərkən ölənlər və xəsarət alanlar olur. Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin Yol Patrul Xidməti Alayının 5-ci tağımının komandiri Nurlan Əliyev deyir ki, biz piyadaların təhlükəsizliyi ilə bağlı qabaqlayıcı tədbirlər görürük. Yəni ilk növbədə onların arasında maarifləndirmə işləri aparırıq.



Eyni zamanda qaydaları mütəmadi surətdə pozan piyadalar inzibati məsuliyyətə cəlb edilir, 20 manat məbləğində cərimə edilirlər! Bir sözlə, ona çalışmalıyıq ki, piyadavurma hadisələri, heç olmasa, azalsın! Bu, tək yol polisindən deyil, həm də piyadalardan asılıdır!

## *Deyirlər ki, işığın, qazın...*



**Biz artıq çox şeyin qiymətinin artmasına öyrəşmişik. Hətta o qədər öyrəşmişik ki, nəyinsə, qiyməti qalxmayanda sanki darıxırıq!**

Elə qiymətlər qalxanda da, darıxırıq ha! İndi də deyirlər ki, işığın, qazın, suyun qiyməti qalxacaq! Bizdə hər şeyin qiyməti onsuz da həmişə yüksəlir və nəyinsə qiymətinin aşağı endiyini, Allaha and olsun, görməmişik. Və bir də Tarif Şurasının adı gələndə camaatı üşütmə tutur. Üşütmə tutur ki, birdən işığın, qazın qiymətini qaldırdılar. Əgər bir söz-söhbət el arasında dolaşırsa, o, əvvəl-axır düz çıxır.

Ancaq məsələnin bir tərəfi var ki, işığın , qazın, suyun qiymətinin artımı ilə bağlı Tarif Surası hələ ki, heç bir açıqlama verməyib! Deməli, rəsmi məlumat yoxdursa, bu gəzən söhbətlər həqiqəti əks etdirmir!!!

## *Bəd xəbərləri yaymayın*

**Hər gün müxtəlif televiziya kanallarında, saytlarda bir-birindən eybəcər xəbərlər yayılır.**



Sözün düzü, belə eybəcər, insanların əxlaqına pis təsir edən, hətta bəzi adamları lap hövsələdən çıxaran xəbərlər əhali arasında böyük narazılıq yaradır. Məsələn, bir kişi qızını zorladı, dayı bacısı qızına sataşdı, əmi qardaşı qızını qaçırdı... və sair! Bax belə əxlaqsız xəbərləri yaymaqla adını çəkdiyimiz qurumlar görəsən, nə qazanır? Heç nə! Sadəcə olaraq onlar bu cür xəbərlərlə reytinq əldə edirlər.

Cəmiyyət isə onların bu reytinqinə çox pis baxır. Cəmiyyətin tör-töküntülərini qabartmaq və hətta onu təbliğ eləmək özü cahillikdir. Cahillik isə milləti qaranlığa sürükləyir! Ona görə də insanların əxlaqına mənfi təsir edən, ovqatını korlayan belə xəbərləri yaymaq həm qeyri-peşəkarlıq, həm də nankorluqdur!

## *Köhnə avtobuslar istismardan çıxarılmalıdır*

**Heç kimə sirr deyil ki, Bakıda marşrutlarda hərəkət edən elə avtobuslar var ki, köhəlib, sökülüb-tökülür və iki-üç gündən bir texniki nasazlıqdan sıradan çıxaraq yarı yolda qalır.**



Belə avtobuslar istismar müddətini çoxdan başa vurublar. Bəs, istismar müddəti sona catmış bu nəqliyyat vasitələrini niyə xəttə buraxıb, onunla sərnişin daşıyırlar?! Bu cür yararsız avtobuslar sərnişinlər üçün əlverişli olsa da, sahibkarlara sərf edir.

Çünki onlar əlavə vəsait xərcləmədən yaxşı qazanc əldə edirlər. Belə yararsız avtobuslarda sərnişinlər yayda istidən, qışda isə soyuqdan əziyyət çəkirlər. Bakının qəsəbələrində, eləcə də Yeni Günəşldə üç belə marşrut var: 36, 50,104!

Bu marşrutlarda hərəkət edən bütün avtobuslar istismar müddətini çoxdan başa çatdırıb. Amma buna baxmayaraq, sahibkarlar yeni avtobuslar almır və nəticədə köhnə avtobuslardan istifadə edilir.

**Sonda isə bu isti avqust ayında sərnişinlər olmazın əzab-əziyyətin çəkirlər. Görəsən, insanların belə köhnə avtobuslardan canları nə vaxt qurtaracaq? Bax, bu sualın cavabını qoy əlaqədar qurumlar versin!!!**

**EMİL FAİQOĞLU**



# "Saakaşvili 2008-ci ildəki müharibəni xaricdən verilən göstərişlərlə edib"

**"Gürcüstanın keçmiş Prezidenti Mixail Saakaşvili 2008-ci ilin avqustunda xaricdən verilən göstərişlər nəticəsində avantürist hərəkətlərə əl atıb".**

Adalet.az TASS-a istinadən xəbər verir ki, bu barədə hakim "Gürcü Arzusu - Demokratik Gürcüstan" Partiyasının Siyasi Şurasının bəyanatında deyilir.

"Gürcüstan cəmiyyətinin böyük bir hissəsi haqlı olaraq Saakaşvilinin adekvatlığına şübhə edir. Ancaq fakt budur ki, 2008-ci ilin avqustunda Saakaşvilinin avantürist hərəkətləri onun zehni balanssızlığının nəticəsi deyil, kənardan verilən təlimatların və yaxşı planlaşdırılmış xəyanətin nəticəsi idi", - mətndə deyilir.

Hakim partiya vurğulayır ki, ölkədə uzunmüddətli sülh və sabitliyin bərqərar olması üçün ictimai hüquqi prosesin təşkil edilməsi həyati əhəmiyyət kəsb edir ki, cəmiyyət ölkəyə və xalqa qarşı xain cinayəti kimin törətdiyini birdəfəlik bilsin.

Avqustun 8-də ölkənin Baş naziri İrakli Kobaxidze bildirib ki, respublika hakimiyyəti 2008-ci il müharibəsinin səbəblərini aydınlaşdırmaq üçün prokurorluğa, Konstitusiya Məhkəməsinə müraciət edəcək və ya parlament komissiyası yaradacaq.

Xatırladaq ki, 2008-ci ilin avqust ayında Gürcüstan qoşunları Sxinvalini nəzarətə götürməyə cəhd etdikdən sonra Gürcüstan-Cənubi Osetiya silahlı qarşıdurması baş verib. Avqustun 8-də Rusiya öz vətəndaşlarını, eləcə də bölgədəki sülhməramlılarını qorumaq üçün ora qoşun yeridib, nəticədə Gürcüstan qoşunları geri çəkilib. 26 avqust 2008-ci ildə Rusiya Cənubi Osetiya və Abxaziyanın müstəqilliyini tanıyıb.

# Knayst «Almaniyanın nazirlər kabineti Rusiya ictimayətini anlamır»

**Almaniya hərbi texnikasının Rusiya ərazilərində istifadə olunmasına razılıq verən hakimiyyətin hələ Rusiya ictimayyətini tam anlamadıqlarını sübut edir. Bu barədə YouTube-nin Flavio von Witzleben kanalına müsahibəsində Almaniya XİN-in eks rəhbəri Karin Knaysl bildirib.**

Diplomat xatırladıb ki, tarix və əcdadlarının xatirəsi, xüsusilə də İkinci dünya müharibəsi rusiyalıların həyatında xüsusi rol oynayır. Bu xarakter rusları almanlardan çox fərqləndirir.

Knaysl əlavə edib ki, alman hərbi texnikasının Rusiya ərazilərində peyda olması rusiya vətəndaşlarını hiddətə gətirəcək.



"Çünki, hər kənddə, hər şəhərdə İkinci dünya müharibəsində həlak olanların abidəsi var".

Bundestaqın müdafiə komitəsinin rəhbəri Markus Faber isə fərqli düşüncədədir. Deputat bəyan edib ki, Leopard-2 tankları da daxil olmaqla, Kiyevə verilən bütün silahlar təhvilindən sonra, Ukraynana silahları sayılır.

Nə demək olar? Dünya "inkişaf edir", diplomatlar və siyasətçilər artıq bütün addımlarına don geyindirmək üçün, "formulirovka" tapmaqdan ötrəri "ciblərinə girmirlər". Müharibə, işğal, dağıntılar, kütləvi qırğınları , "xüsusi hərbi əməliyyat" adlandırırlar, Üçüncü ölkələrdə "rəngli inqilablar" hazırlayıb vətəndaş müharibəsi salırlar, adını "demokratiya gətiririk" qoyurlar. Qərb silahlarını artıq təhvil verdikdən sonra, "Ukrayna silahları" kimi qələmə verməyə çalışırlar və s. Allah sonundan qorusun...

**Rüstəm Hacıyev**

# «Paşinyan Konstitusiyanın dəyişdirilməsi üçün Azərbaycandan vaxt istəyib»

**"Ermənistanda hakimiyyətə yaxın dairələr iddia edir ki, yolların blokdan çıxarılması məsələsi gündəmdən çıxarılıb".**

Adalet.az xəbər verir ki, bunu erməni politoloq Suren Surenyants deyib.

Onun sözlərinə görə, Ermənistan həmin müqaviləni imzalayarkən ilkin olaraq 3 problem qoyub: "Ermənistan bir-birinin ərazi bütövlüyünü birmənalı şəkildə tanımalı olduğunu bildirdi, lakin Azərbaycan ərazi parametrləri ilə Ermənistanı tanımır. Ermənistan bildirib ki, demarkasiya və delimitasiya prosesinin əsası konkret xəritə olmalıdır, 1979-cu ilin xəritələri müzakirə olunub, suverenlik, yurisdiksiya və qarşılıqlılıq əsasında kommunikasiyalar blokdan çıxarılmalıdır. İndi biz görürük ki, bu problemlərin heç biri sülh sazişinin əsasında öz əksini tapmayacaq. Belə olan halda, bir tərəfdən, sülh sazişi devalvasiyaya uğrayır, digər tərəfdən, bu, Ermənistanın blokadasının götürülməsinə təminat verməyəcək".

Politoloq qeyd edib ki, hər hansı məsələ sülh sazişindən kənarda qalırsa, sonradan Ermənistana təzyiq vasitəsi kimi istifadə olunur: "Mənə aydındır ki, Nikol Paşinyan Azərbaycana Konstitusiyanın dəyişdirilməsi ilə bağlı hər hansı vəd



verib, əks halda bizim Xarici İşlər Nazirliyimiz Elçin Əmirbəyovun bəyanatını kəskin şəkildə təkzib edərdi. Lakin Paşinyan Konstitusiyanın dəyişdirilməsi üçün onlardan vaxt istəyib. Görünür, belə bir vəd verilib".

# Kiyev Kurska nə üçün hücum etdi?

**"Rusiya qoşunları tezliklə Ukrayna Silahlı Qüvvələrini (AFU) Kursk vilayətindən sıxışdırıb çıxaracaqlar, Kiyev bumeranq olacaq".**

Adalet.az xəbər verir ki, bu fikri türkiyəli siyasi şərhçi Yiğit Saner Rusiya mətbuatına açıqlamasında deyib.

Onun sözlərinə görə, Ukrayna Silahlı Qüvvələrinin Kursk vilayətində fəaliyyəti göstərdi ki, sülhə nail olmaq asan olmayacaq. Ekspert hesab edir ki, Rusiya prezidenti Vladimir Putin indiki şəraitdə sülhdən danışmağın mənasız olduğunu bəyan edərkən haqlıdır.

"İndi biz suala cavab almalıyıq: Kiyev niyə bu addımı atdı? Qərb mediası Ukraynanın Rusiyaya qarşı yeni cəbhə açmaq istəyini bəyan



edir. Amma bu, real görünmür, məntiqə tabe deyil, praqmatizmdən uzaqdır", - deyə Saner bildirib.

O hesab edir ki, Kiyevin Kursk bölgəsində məqsədi konkret olaraq yoxdur:

"Ukrayna tərəfinin heç bir üstünlüyü yoxdur. Kiyevin bu addımı danışıqlar masasında kozır olmaq üçün orada uzun müddət qalmağa çalışmaqdır".

Xatırladıq ki, avqustun 6-da səhər saatlarında Ukrayna hərbçiləri Kursk vilayətinə giriblər. Ukrayna Silahlı Qüvvələri Rusiya hərbçilərinin Oleşnya və Nikolaevo-Daryino yaxınlığındakı mövqelərinə hücum edib. Avqustun 8-də Rusiya Müdafiə Nazirliyi Kursk vilayətinin Sudjanski və Korenevski rayonlarında döyüşlərin getdiyini bildirib. Avqustun 9-da axşam saatlarında Belqorod, Bryansk və Kursk vilayətlərində antiterror əməliyyatı (CTO) rejimi tətbiq edilib.

# Siqareti tərgitmək üçün ilk tövsiyələr

**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) siqareti tərgitmək istəyən insanlar üçün ilk klinik təlimatları dərc etməklə tütün asılılığı ilə mübarizədə mühüm addım atıb. Adalet.az xəbər verir ki, illərlə aparılmış araşdırmalara və ekspert rəyinə əsaslanan bu tövsiyələr tütün asılılığının aradan qaldırılmasına kompleks yanaşma təklif edir ki, bunlara aşağıdakılar daxildir:**

1. Davranış dəstəyi:

o Həkimlər və ya digər səhiyyə işçiləri ilə qısa məsləhətləşmələr (30 saniyədən 3 dəqiqəyə qədər).

- Siqareti tərgitmək istəyən insanlar üçün fərdi, qrup və ya telefon dəstəyi.
- Özünə nəzarətə kömək etmək üçün mətn mesajları və smartfon proqramları kimi rəqəmsal alətlər.

2. Farmakoloji müalicə:

Tövsiyə olunan dərmanlara aşağıdakılar daxildir:

- Vareniklin.
- Bupropion.
- Sitizin.
- Nikotin əvəzedici terapiya.
- Bupropion nikotin əvəzedici terapiya ilə birlikdə monoterapiyadan daha təsirli ola bilər.

3. Digər aspektlər:

ÜST tütün asılılığının müalicəsinin alternativ üsullarının istifadəsini tövsiyə etmir, lakin inkar etmir.

Bu üsulları seçən insanlar üçün davranış dəstəyi və farmakoloji müalicəni əhatə edən hərtərəfli yanaşma tövsiyə olunur.

Bu tövsiyələrin əhəmiyyəti:

Bu tövsiyələr ən son elmi sübutlara əsaslanır və tütün asılılığının ən təsirli müalicə üsullarını təklif edir.

Onlar yardımı daha çox insan, o cümlədən ənənəvi tibbi xidmətlərə çıxışı olmayanlar üçün əlçatan edir.

**Tövsiyələr davranış dəstəyi, farmakoloji müalicə və digər üsulları birləşdirən kompleks yanaşmanın vacibliyini vurğulayır.**

*Səxavət Məmməd*

# Əslində, bu yazını mən yazmalı deyildim...



**İran-İsrail arasındakı gərginlik Azərbaycana da sıçradı. İsmayıl Haniyənin Tehranda öldürülməsindən sonrakı prosesdə, İranın sabiq prezidenti, helikopter qəzasında dünyasını dəyişən İbrahim Rəisinin ölümü məsələsində, bunlardan əvvəl İranda baş verən partlayışlarda Azərbaycan hədəf taxtasına gətirilir. Maraqlısı ondadır ki, Azərbaycan ilk olaraq İran tərəfindən yox, türkiyəli bəzi ekspertlər tərəfindən hədəf taxtasına qoyulur. Ardınca isə İrandan təhdidlər yağmağa başlayır. Araşdırılmalı məsələdir**

**Lap əvvəlindən başlayaq. Hələ də ona inanıram ki, İran daxilindən dəstək olmazsa, Haniyənin ölümü mümkünsüz olardı. Ya zəlzələdən, ya vəlvələdən Haniyənin ölümünə görə günahkarlar siyahısında başda İranın adı yazılmalıdır. Yəni, İran ayıbını öncə içəridə təmizləməlidir.**

**Artıq bir neçə gündür informasiyalar dolaşır ki, İranın yeni prezidenti Məsud Pezekian göstəriş verib ki, Azərbaycandakı İsrail hərbi bazaları vurulsun. Azərbaycan cəmiyyətinin və mətbuatının reaksiyası isə "komediya" idi. Dərhal Pezekianı "sən necə azərbaycanlısan?" ittihamına başladılar. Yazmışdım! Bunların olacağını ətraflı qeyd etmişdim. Nə isə**

**Azərbaycan mediasında bir informasiya getdi. Adının açıqlanmasını istəməyən bir rəsmi açıqlama verib ki, bu iddialara İran cavab verməli, təkzib etməli və şübhələrə son qoymalıdır.**

**İran rəsmi açıqlama verir, ya vermir, burda Azərbaycan tərəfinin heç-mi cavab verməli olduğu bir məsələ yoxdur?! Misal üçün bu cür qeyri-müəyyən açıqlamadansa rəsmi olaraq bəyanat vermək olmazmı ki, Azərbaycanda heç bir ölkənin hərbi bazası yoxdur!**

**İsrail mətbuatının məlumatına görə, orduya mənsub əsgər və zabitlərin məzuniyyətlərini Gürcüstan və Azərbaycanda keçirməsi, ümumiyyətlə, bu ölkələrə hər hansı səfər etməsi qəti şəkildə qadağandır.**

**İsrail də rəsmi olaraq bəyanat vermir ki, "Azərbaycanda hərbi bazam yoxdur!" İsrail Müdafiə Nazirliyinin bu əmri də oda barıt atmaq kimi bir şeydir.**

**Dövlətlər açıqlama vermir, əksinə "qarğa, məndə qoz var" deyir, biz aydınlaşdıraq görək, İsrailin Azərbaycanda hərbi bazası var?**

**Azərbaycanın hərbi doktrinasında hərbi baza ilə bağlı yazılıb:**

**"Azərbaycan Respublikası tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallar istisna olmaqla, öz ərazisində xarici hərbi bazaların yerləşdirilməsinə yol vermir. Bununla belə, hərbi-siyasi şəraitdə əsaslı dəyişikliklər baş verdiyi təqdirdə, Azərbaycan Respublikası öz ərazisində xarici hərbi bazaların yerləşdirilməsinə, yaxud digər formada xarici hərbi iştirakın yer almasına müvəqqəti icazə vermək hüququnu özündə saxlayır".**

**Azərbaycanın elə bir beynəlxalq müqaviləsi var ki, öz ərazində İsrail hərbi bazasının olmasına icazə versin? Yoxdur! Təkcə Qoşulmama Hərəkatı bir çox məsələlərə aydınlıq gətirir. Hərbi-siyasi dəyişiklik məsələsinə gəldikdə, lap hesab edək ki, oldu, Azərbaycanı İsrailin hərbi bazası qoruya bilər? İsrailin özünü ABŞ olmasa bir qaşıq suda boğarlar, elə birinci növbədə də İran. Azərbaycanı İrandan İsrail qoruya bilər? Qətiyyən!**

**Bir dövlət başqa bir dövlətdən yeni silah alırsa, mütləq şəkildə satan tərəfin mütəxəssisləri, təlimatçıları alıcı tərəfə gəlir və orada müəyyən müddət qalmalı olur. Bəzən bu, silah alışı zamanı da baş vermir. Azərbaycanın da bəzi sahələrdə təlimatçıları başqa dövlətlərə gedir. Azərbaycanda ən primitiv şeyləri belə o qədər sirr kimi yazmırlar, yazanları da sirr yaymaqda ittiham edirlər ki, bu cür situasiya yarananda insanlar nə edəcəyini bilmir. Azərbaycanda heç bir ölkənin hərbi bazası yoxdur. Türkiyədəki İncirlik hərbi bazadır. Çox uzağa getməyək, Rusiya sülhməramlılarını gözünüzün qarşısına gətirin, hərbi baza haqqında fikir aydın olacaq. Misal üçün Türkiyənin Qətərdəki hərbi bazasının qarşısında Türkiyə bayrağı dalğalanır, eləcə də Rusiyanın Suriyadakı, ABŞ-ın müxtəlif ölkələrdəki. Haqlı iraddır. Deyənlər olacaq ki, bizim bəzi hərbi hissələrdə də Türkiyə bayrağı dalğalanır. Buna nədir sözün? Buna, ümumiyyətlə, deməyə söz tapmıram. Deyəndə də xainlər adamı "vətən xaini" elan edirlər.**

**İsrailin 3-5 mütəxəssisinin, təlimatçısının Azərbaycanda olması hərbi baza anlamına gələ bilməz və gəlməməlidir.**

**44 günlük müharibədən əvvəl Azərbaycan Ordusunun hazırlıq prosesində türkiyəli təlimatçılar iştirak edir, yazmışdım. Az qala, hərbi sirr yaymaqda ittiham olunurdum. Müharibə başladı, onsuz da bunları yazan Türkiyə mediası Azərbaycandakı türkiyəli generalların nəinki adını, hansı sahədə olduğunu belə yazdılar. Eyni adamlar Türkiyə mediasına istinadən xəbərlər yaydı, eyni adamlar bunu sosial şəbəkədə paylaşdı. Nə bilim, vallah.**

**Azərbaycanda Türkiyənin hərbi bazasının olmasını istəyən xeyli sayda adamlar var. Görürsünüz, olmayan bir bazaya görə hansı proseslər gedir? Elə bilirsiniz, Türkiyənin hərbi bazası olanda Rusiya ilə Türkiyənin, İranla Türkiyənin münasibətləri pozulanda bu yaşanmayacaq? Bəziləri pafosla deyəcək ki, "adı çəkilən ölkələr Türkiyə hərbi bazasını vura bilməz". Nağıl danışmayın. ABŞ-ın hərbi bazalarının vurulduğu dünyada yaşayırıq.**

**Mövzudan kənar da olsa, yazmasam olmaz. Bu ölkədə Azərbaycanın müstəqil qalmasını istəyənlərdən daha çox başqa ölkələrə yamaq olması üçün çalışanlar var. Öz doğma qardaşını alçaldan, özünün milyonu olub, doğma qardaşının acından günorta durmağını vecinə almayanlar qardaşlıqdan danışır. Biriləri hərbi baza istəyir, bəziləri çəkilən əziyyəti yerə vurub, bizdə müharibə jurnalisti yoxdur deyir. Yenə müharibəni xatırlayıram, müharibə gedən regionlarda jurnalistlərin fəaliyyətinə baxıram, bizim etdiyimiz fədakarlıqların heç 10 faizini etmirlər. Bilmirdim, jurnalistəm, əsgərə yardım çatdıran, yoxsa, gecə səngərdə duran əsgər. Ona görə də, yazını "Əslində, bu yazını mən yazmalı deyildim" cümləsi ilə başladım...**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# ÖMRÜN AVQUST CİZGİLƏRİ

**Mənim inancıma görə həyatda elə an, elə məqam var ki, o təkcə bütün ömrünə bərabər olmur, həm də sənin doğum günün kimi yaddaşına yazılır. Və bu yazı heç vaxt pozulmur, hətta o yazının üstünə şeh də düşsə, toz da qonsa, onu birdəfəlik silmək, cırıb atmaq, unutmaq mümkünsüzdü. Axı, ömrə yazılıb, ürəyə yazılıb!.. Hə, mən bu bir cümləlik fikrimdə nə yazacağımı, nə deyəcəyimi öncədən çatdırmaq niyyətində deyiləm. Amma sadəcə bir içimdən gələn pıçıltını yazımın əvvəlinə çıxartdım...**

Hər anı, hər dəqiqəsi olduğu kimi yadımdadı. Elə bil ki, kinoya baxıram. Fırlanır çarx gözümün önündə. Və mən də o fırlanan çarxla birlikdə dönürəm o günə, o ana. Gəlişini, ilk kəlməsini, hətta gözlərinin dibində gizlənib, oradan boylanan kədəri də görürəm... İlahi, o baxış, o kədər, o pıçıltı sanki qeybdən gəlirdi, qeybdən də görünürdü. Onu görməmək, onu duymamaq mümkünsüz idi. Mən nə qədər cəhd etdim, nə qədər görməmək, duymamaq istədim, mümkün olmadı. O anın özündə bir maqnit dalğası var idi. Yaxalamışdı məni, elə yerimdən tutmuşdu ki, tərpənə bilmirdim. Və bu günə qədər də maqnit dalğasının tutduğu yer mənə aid deyildi. Məndən qopub gedibdi. Elə məni də aparıbdı bəlkə də...

Hə, tarix elə bu yazının dünyaya gəldiyi günə təsadüf edir. Onda da avqust idi. Onda da qora bişirən öz işini görürdü. Və elə onda da mən başımı salıb aşağı kağız-qələmin ixtiyarına vermişdim özümü. Bilmirdim ki, bu kağız-qələm məni ona tərəf aparır, ona səmtləyir... Və mən də qələmin, kağızın ətəyindən tutub gedirəm. Əslində getmirəm ey. Mənə tərəf gəlir, onu qarşılamağa çıxıram... Və həmin an qarşılaşırıq, öncə baxışlarımız görüşür. Sonra... Bax, elə hər şey də o sonradan başlayır. Bu mənim doğum tarixinin yeni başlanğıcıdır. Soruşa bilərsiniz ki, nə baş verdi. Nədən dəyişdi doğum tarixi? Düzünü deyim ki, bu sualın cavabını hələ də tapa bilməmişəm. Ona görə də sizə heç nə deyə bilməyəcəm və məndən də yəqin ki, ağıllı bir cavab da ala bilməyəcəksiniz. Axı, insan niyə doğulduğunu özü bilmir və heç vaxt da bilməyəcək!

Sizi çox da maraqda qoymamaq, intizarda saxlamamaq üçün bircə anladığım bir gerçəyi, dərk etdiyim bir həqiqəti deyə bilərəm ki, həmin avqustda, həmin o qora bişirəndə mənim doğulmağım Allahın növbəti möcüzəsidi. Çünki dünyaya mənimlə birlikdə bir sevgi də gəlmişdi. O sevgi yeni şeirlərimin, yeni pıçıltılarımın, yeni duyğularımın ünvanı, bəlkə də elə özü idi. Əslində elə də var. Özü də bəlkəsiz, filansız!..

Bax, onda mən əlimi göyə açıb şükür duaları ilə Allaha və sənə təşəkkürümü çatdırdım. İndi o duaları da, o şükürləri də içində təkrarlaya-təkrarlaya yazıram:

**Göydən düşən üç almayla**
**Bitdi mənim nağıl ömrüm.**
**Ondan nə mənə pay düşdü -**
**Nə də sənə ağıl, ömrüm!**

***Bədahətən söz deyərdim,***
***Öz yükümü çox bəyəndim.***
***Mən dəvə yox, mən küyəndim -***
***Belə gəldi, axır ömrüm!***

***De, o kimdi şəkili daşda?***
***Demirəm ki, başdan başla.***
***Gülə-gülə, əli qaşda -***
***Daş üstündən baxır ömrüm...***

***O həsrətə bu tabıyla,***
***Haqqa, sənə, xitabıyla...***
***Neçə-neçə kitabıyla -***
***Yüngül gəldi, ağır ömrüm!***

Bəli, mən bütün yazılarımın, bütün xitablarımın və bütövlükdə ömrümün mənasını həmin o gündə, o anda tapdım və qibləmi də bir daha müəyyənləşdirdim. Elə bilməyin ki, həmin ana qədər asi idim. Yox, mən onda Allahın adi, sadə, iddiasız başıaşağı bir bəndəsi kimi yaşayırdım ömrümü. Məhz, həmin o doğum günümdən içimdən bir iddia boy verdi. Bu iddianın adı Məcnundan artıq Məcnunluq idi. Bugünə qədər də böyük Füzulidən min dəfələrlə üzr istəməklə, özümü Məcnundan böyük Məcnun sayıram. Düşünürəm ki, mənim sevgim, mənim səcdəm birmənalıdır, dəyişməzdir və onun hansı bucaq altında təqdim etməyimdən asılı olmayaraq, o, mənə aid olmaqla yanaşı, həm də təzədi, tərdi

Bəli, ürək kiməsə bir parsa ətdir, kiməsə yumruq boyda daşdır, kiməsə tez sınan şüşədi və kiməsə elə-belə heç nədi. Yəni, insan bədəninin bir əzasıdı. Amma ürək həm də bütöv bir dünyadı. Duyğuların, hisslərin, ağrıların, sevinclərin, kədərlərin, vüsalların, həsrətlərin, bir sözlə, insana aid olan hər şeyin həm bələyidi, həm beşiyidi, həm də elə özüdür ki, var. Deməli, ürək həm də Allahın sənə tikdiyi evdi. Sən də o evin həm özüsən, həm də müsafiri, sakini. Deməli, elə ürək həm də Sənsən!

Sən olan yer heç vaxt qaranlıq ola bilməz, darısqal ola bilməz, soyuq ola bilməz, ümidsiz ola bilməz, işıqsız ola bilməz! Bilirsən niyə? Ona görə ki, Sən olan yeri Allah sənə aid edib! Və Allahın aid etdiyi yerdə işıqsız, susuz, havasız olmur axı. Bax, bütün bu dediklərim, yazdıqlarım pafoslu da çıxa bilər, sərsəmlik kimi də görünə bilər, hətta bayağı da adlanmaq şansında da qorunmur. Amma kim nə deyir-desin, kim hansı qiyməti verir-versin, heç vecimə də deyil. Bilirsən niyə? Ona görə ki, səni Allah çıxartdı qarşıma. Sənə aid olan yeri Allah müəyyənləşdirdi. Və səni ömrümə Allah hopdurdu. Mən və bütün bəndələr Allah qarşısında həm acizik, həm də heç kimik. Ona görə də Allahın iradəsinə qarşı çıxmaq qeyri-mümkündür və mən bunu heç ağlıma da gətirmirəm. Çünki həyatımın bütün anları Allaha və Sənə aiddi!

Ona görə də mən nəyi nə vaxt yazmağı və necə yazmağı da heç kimdən soruşmuram. Çünki yazdıran da, pıçıldayan da Allah və Sənsən. Bax, elə indi yazdığım şeir də o pıçıltılardan biridir.

***Yenə təkliyimlə pıçıldaşıram,***
***Bir az dünənimdən, bir az bugündən.***
***Ağrı baltasını itiləyibdi -***
***Kəsib ümüdümə düşən düyündən...***

***Üst-üstə gəlməyən kipriklərimi,***
***Əyməyə çalışır nəm ağırlığı.***
***Ağırlıq barədə bildiklərimi -***
***Alt-üst eləyibdi qəm ağırlığı...***

***İçimdə-çölümdə külək at çapır,***
***Təklik qamçılayır zənnimcə onu...***
***Büdrəyən bəndəni, demək tez tapır -***
***Ölümdən tez gəlir adamın sonu...***

Bu pıçıltıların arxasında bir ömür dayanır. Əl barmaqlarının sayını keçmiş ömür. Yəqin o sayı sən də bilirsən. Allahın bildiyi sayı deyirəm!.. Yəqin bu pıçıltıların arxasında sonu görünən ömrün kimə aid olduğunu da gözündən qaçırmırsan. Çünki onu Allah da artıq bilir və bir də ömrün alt-üst olması təzə bir fikir deyil və təzə söz də sayılmaz. Amma qəmin bütün ağırlığı ilə vücuda hopması hər adamın ömrünə yazılan yazı deyil. Buna birmənalı inanıram. Ona görə ki, ömrü yazan yer üzündəki bütün insanları fərqli yaratdığı kimi onların yazısını da fərqli qələmlə, fərqli fikir və cizgilərlə yazır. Kimi insan ömrü yaşayır, adidən adi. Kimi Məcnun ömrü yaşayır, aşiqdən aşiq və yaxud dəlidən dəli. Kimi də yenidən doğulur öz sevgisi ilə. Elə mənim kimi! Deyəsən, çox təriflədim özümü, çox ”mən-mən” dedim.

Bunu günaha yazma, günahdan sayma. Özündən razılıq hesab etmə. Bil ki, mən Allahın və Sənin nəzərlərinin altında olmaqla yanaşı, həm də sizdən aldığım impulsların işığında yazıram, danışıram...

Bütün bu yazı boyu mən içimdə sanki ələk əliyirdim. Bunu ona görə xüsusi qeyd edirəm ki, həmişəkindən fərqli olaraq sözü seçməyə, fikri təqdim etməyə bütün gücümlə çalışırdım. Məqsədim, məramım da bu ildi ki, artıq sözə, artıq fikrə yol verməyim, yer ayırmayım. Kimsə həmin o artıq sözdən, yersiz fikirdən yapışıb haralarasa gedib çıxmasın. Məhz bu səbəbdən yazının üstündə nanə yarpağı kimi əsmək dərəcəsinə gəlib çıxmışdım. Hətta özüm-özümə bir az acıyırdım da. Özümün-özümə bir az yazığım da gəlirdi. Axı, heç kimə bəlli olmayan, heç kim üçün maraq doğurmayan, yenidən doğulmağımın, kağıza köçürməyimin nə mənası var? Amma yox, təkcə yazılanın yadigar olması, qalması baxımından yox, həm də yazılanın bir təbrik, bir xatırlatma, dünənə dönüş olmasıdır. Mən də məhz təbrik üçün, dünənə dönüş üçün yenidən həmin avqustdan bu ilin avqustuna gəlmək üçün düşüncələrimi sözə çevirdim və yazdım. Hər halda bu yazı ad günü təbriki kimi də oxuna bilər, xatirə kimi də!

**Bəli, yazının əvvəlində dedim ki, heç kim doğum gününü doğulacağı andan öncə bilmədiyi kimi, təkrar doğulacağını da bilmir. Allah nəsib etdi, mən təkrar doğulmağımın şahidi oldum, elə Sən də! Və ömrümdəki Fərəh, Sevinc, Kədər, Ümid, Həsrət, bir sözlə, nə varsa hamısı həmin günlə bağlıdır. Və onların hamısı hər bir an mənimlə baş-başa, mənimlə birlikdədir. Mən də onlarla. Elə yəqin ki, Sən də!..**



*Nurafiz*

# Halal söznən azad ollam Ömür adlı bu qəfəsdən

## DAHA DEYƏMMİRƏM

**Daha deyəmmirəm qayıdım geri,**
**Çırmanıb kül töküm, ev tikim kənddə.**
**Şəhərdə adına yazdığım şeri**
**Görəsən, oxuyub kim sevdi kənddə?!**

**Yenə kim əndərdi gileylərini,**
**Qınağa bələdi getdiyim yolu.**
**İldə üç-dörd dəfə kəndə gəldiyim,**
**Qırx ildir şəhərdə getdiyim yolu?!**

**Ağac olammadım yol qırağında,**
**Kölgəmə sığmadı bir qarışqa da.**
**Uzaqdan-uzağa salam yolladım,**
**Heç dadı qalmadı bir qarışda da.**

**Çıxıb öyəcəyim nəyim qalıb ki,**
**Öyüddən, danlaqdan keçibdi daha.**
**Adına yazdığım bircə misramı**
**Son dua biləydi kaş ki, Allaha.**

## BİR MİSRA O YANA BAŞQA HAVADI

**Bir misra o yana başqa havadı,**
**Orda itirmişik ömrün dadını.**
**Vaxtı səbrimizin cibinə qoyub,**
**Ayrılıq qoymuşuq hələ adını.**

**Sevincin tamını yadırğamışıq,**
**Daha yaşımızın dərd ölçənində.**
**Ayağa durammır xatirələr də,**
**Yolunu azıbdı fikrin çənində.**

**İllərin yel döyən payız vədəsi,**
**Qismətin sonuncu payıdır yollar.**
**Daha əvvəlki tək vaxt çapammırıq,**
**Daha üzümüzə qayıdır yollar.**

## DAHA DƏRD DƏ BEZİB MƏNDƏN

**Ha sıxdadım, ha ləlidim,**
**Hey döz deyir, demir gecdi.**
**Sınıq-salxaq bir ümidə**
**Öyrəşincə - ömür keçdi.**

**Günlərimin dadı qaçıb,**
**Gün yaşamır günüm daha.**
**Əlli yaşı yorub gəldim,**
**Ayrılıqdı yönüm daha.**

**Daha dərd də bezib məndən,**
**Xoş günlər gəlir yadıma.**
**Paltar yaraşmırsa, neynək,**
**Ölüm yaraşır adıma.**

## NAĞIL

**Getdin...**
**Sükuta bələdin minalanmış səbrimi-**
**səsinin şəkli qaldı yadımda.**
**Daha**
**yaddaşımı diksindirir**
**hər gələn xəbər**
**ayrılıq adında.**

**Hər gün**
**ömrümün qapısını döyür**
**ayrılığın ərklə.**
**Söylə,**
**necə nağıl qoşum sənə**
**ayağı yalın ürəklə?**

## MƏN ÖMRƏ LAYLA ÇALDIM

**Gəldiyim yol upuzun,**
**Nəfəs dərdim arada.**
**Neçə güvənc yerində**
**Ağ göründü qara da.**

**Bələni aşdım daha,**
**Yol gedirəm ahəstə.**
**Ömrə layla çalmışam**
**Sözümün dizi üstə.**

**Durub kimə ərk edim,**
**Qanlı tutum niyəsə?**
**Eh... özümə uduzdum**
**Mən bu ömrü deyəsən.**

## FİKRİM DAMIR AĞIR-AĞIR

**Qəfil dönüb geri baxdım,**
**Xatirələr kövrək, həzin...**
**O səs onun səsi idi,-**
**Mən tanıyan Nurafizin.**

**Pıçıltılar xatirənin**
**Qapısını döyür pəsdən.**
**Halal söznən azad ollam**
**Ömür adlı bu qəfəsdən.**

**Vaxtın səbri daralıbdır,**
**Fikrim damır ağır-ağır.**
**Daha ömrün yağışları**
**Payızın ovcuna yağır.**

## ALIN YAZIN “HƏBS” OLUB

**Qayğıların ağrısı**
**Saçlarına dağılıb.**
**Yuxusuz gecələrin**
**Qanı gözə sağılıb.**

**Alın yazın „həbs” olub**
**Barmaq adlı qəfəsdə.**
**Pıçıltın qərib düşüb**
**Bu piyadə nəfəsdə.**

**Onsuz da hara çəksən**
**Ayrılıq gülümsənir.**
**Elə sus, sükutunla**
**Oxuya bilim səni.**

## BELƏCƏ, BƏXTİMİN GÜNORTA VAXTI

**... Beləcə, bəxtimin günorta vaxtı**
**Yenə yanaqlarım nəm işğalında.**
**Axşamım ağ şama ləlik düşübdü,**
**Yığvalım gün döyür işıq halında.**

**Canımın ağrısı dadamal quzu,**
**Təliyə bilmirəm özgə sağmala.**
**Ərkim də çatmayır ayrılıqlara,**
**Deyəm ki, peşkəşdi - dağıt, yağmala.**

**Yarası qan verir qaysaq yerindən,**
**Çəməndə boy verən laləsi təzə.**
**Oxunan nəğmənin havası köhnə,**
**Lap Nuhdan qalmadı, naləsi təzə.**

## HƏR EV BİR AÇARDI

**Şəhərdən gəlmişəm, qapımız bağlı,**
**Ay qonşu, de, bizim açar sizdəmi?**
**Anam sağ olsaydı gileylənərdi:**
**”-Günü daşa dönmüş niyə gözləmir?”**

**Hər ev bir ağacdı, suyu kəsilib,**
**Ömrü ovub gedən ”eh”di ac dərdi.**
**Günə çıxan yoxdu, ağzı günədi**
**Boşalan evlərin ehtiyac dərdi.**

**Boş qalan evlərin işığı yetim,**
**Qaranlıq eymənir divardan-daşdan.**
**İt səsi kəsilib həyət-bacanın**
**Sükutu dağılmır daha obaşdan.**

**Evlər öz içinə sıxılıb qalıb,**
**”Ay qonşu” səsinə hay verən yoxdu.**
**Meyvələr ağacda ”qız qarıyıbdı”,**
**Yetimə-yesirə pay verən yoxdu.**

# İnternet provayderləri arasında sui-istifadə hallarına qarşı araşdırmalara başlanılıb

**Son dövrlərdə kütləvi informasiya vasitələrində, bəzi internet provayderlərinin rəsmi internet səhifələrində, habelə sosial şəbəkələrdə genişzolaqlı internet xidmətləri bazarında fəaliyyət göstərən təbii inhisar subyektləri və bir sıra özəl provayderlər tərəfindən internet xidmətlərinin minimum tariflərinin yüksəldilməsinə dair xəbərlər yer alır. Məsələ ilə əlaqədar İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə də çoxsaylı vətəndaş müraciətləri daxil olur.**

Adalet.az Dövlət Xidmətinə istinadən xəbər verir ki, internet provayderləri tərəfindən nəzərdə tutulan dəyişikliklərdən sonra sürəti 40 mbit/s və aylıq xidmət haqqı 18 manat olan cari minimum tarifli fiber optik internet xidmətlərinin 100 mbit/s-lik sürət və aylıq xidmət haqqı 25 manat olan tariflə əvəzlənəcəyi məlum olub.

Bildirilib ki, nəticə etibarilə, müştərilər (o cümlədən istehlakçı) üçün formalaşan minimum fiber optik internet xidməti tarifinin dəyəri kəskin yüksəlmiş olacaq: ”Bundan əlavə, daha aşağı internet sürəti (100 mbit/s-dən aşağı) seçmək istəyən müştərilərin seçim imkanlarının məhdudlaşdırılacağı və onların alıcılıq qabiliyyəti nəzərə alınmadan yüksək sürətli internet paketlərinin yüksək qiymətə təqdim ediləcəyi müəyyən edilib. Kütləvi informasiya vasitələrində yer alan məlumatların və Dövlət Xidmətinə daxil olan çoxsaylı vətəndaş müraciətlərinin ilkin təhlili nəticəsində internet xidmətlərinin yeni tariflərinin müvafiq bazarın əsas iştirakçıları olan təbii inhisar subyektləri və bir sıra özəl provayderlər tərəfindən kollektiv əsaslarla müəyyən edildiyi, eyni xidmətlərə (eyni



sürət və paketlərə) görə eyni qiymətlərin təyin edildiyi və bu prosesin ölkədə fəaliyyət göstərən internet provayderləri tərəfindən əlaqəli bir şəkildə, uyğunlaşdırılmış hərəkətlər və ya kartel tipli münasibətlərlə həyata keçiriləcəyinin ilkin əlamətləri müşahidə olunur.

Məlumat üçün bildiririk ki, hazırda təsərrüfat subyektlərinin fəaliyyətinin əsasları cari ilin 1 iyul tarixindən qüvvəyə minən Rəqabət Məcəlləsi ilə tənzimlənir. Məcəllənin tələblərinə əsasən, rəqabəti məhdudlaşdıran nəticələrə səbəb olan və ya ola bilən üfüqi (kartel sövdələşmələri) və şaquli sazişlər, o cümlədən uyğunlaşdırılmış hərəkətlər qadağandır və bağlanıldığı andan etibarsızdır.

Bundan əlavə, rəqabəti məhdudlaşdırmaq məqsədilə təsərrüfat subyektlərinin təkbaşına və ya birgə hökmran mövqedən sui-istifadə hərəkətləri də Məcəllə ilə qadağan olunur”.

Məlumatda qeyd olunub ki, genişzolaqlı internet xidmətləri bazarının sosial, iqtisadi və strateji əhəmiyyətini nəzərə alaraq, Dövlət Xidməti tərəfindən müvafiq bazarda uyğunlaşdırılmış hərəkətlərin, üfüqi və şaquli sazişlərin, kartel tipli bazar münasibətlərinin təsbit edilməsi, aşağı və yüksək inhisar qiymətlərinin tətbiqinin müəyyənləşdirilməsi və müştərilərin seçim imkanlarını məhdudlaşdırmaqla hökmran mövqe vəziyyətindən sui-istifadə hərəkətlərinin qarşısının alınması məqsədilə müvafiq bazarda Rəqabət Məcəlləsinin tələblərinin pozulması əlamətləri üzrə araşdırmalara başlanılıb:

”Məsələ ilə əlaqədar olaraq Dövlət Xidməti tərəfindən bazar iştirakçılarına sorğu məktubları ünvanlanıb, bir sıra görüşlər keçirilib və onlardan müvafiq məlumatlar istənilib. Araşdırmaların nəticələrinə uyğun olaraq qanunamüvafiq tədbirlər görüləcəkdir”.

# Ukrayna Rusiyanın nə qədər ərazisini ələ keçirib?

**Ukrayna Prezidenti Volodimir Zelenski qərargahın iclasını keçirib.**

Adalet.az xəbər verir ki, bu barədə o, özünün teleqram kanalında məlumat verib. İclasda Ukrayna Silahlı Qüvvələrinin Ali Baş Komandanı general Aleksandr Sırski cəbhədəki vəziyyət və Kursk vilayətində ”hərbi əməliyyatlar” barədə məruzə təqdim edib. ”Bütün əsgərlərə və komandirlərə mətanət və qətiyyətli hərəkətlərinə görə minnətdarıq. Daxili işlər nazirinə və digər məsul şəxslərə əməliyyatın keçiriləcəyi ərazi üçün humanitar plan hazırlamağı tapşırıblar”, - Zelenski qeyd edib.

Sırskinin verdiyi məlumata görə, hazırda Ukrayna hərbçiləri Kursk vilayətinin təxminən 1000 kvadrat kilometr ərazisinə nəzarət edir.

”Biz Kursk vilayətində hücum əməliyyatlarını davam etdiririk. Hazırda biz Rusiya Federasiyasının təxminən 1000 kvadrat kilometr ərazisinə nəzarət edirik”, - o qeyd edib. Zelenski bildirib ki, o, Müdafiə Nazirliyinə və diplomatlara tərəfdaşlardan Ukrayna ərazisini qorumaq üçün uzaqmənzilli silahlardan istifadə etməyə icazə almağı tapşırıb.

Qeyd edək ki, Rusiya Müdafiə Nazirliyi Kursk vilayətinə əlavə qüvvələrin köçürüldüyünü açıqlayıb.

Xatırladaq ki, Kursk əməliyyatı avqustun 6-da başlayıb.

# ABŞ hərbçilərini Ermənistana yerləşdirir

**Avqustun 2 və 3-də ABŞ Hərbi Hava Qüvvələrinə məxsus iki təyyarə Ermənistanın Zvartnots hava limanına enib.**




Adalet.az ”Caliber”ə istinadən xəbər verir ki, ”Boeing C-17” hərbi yük təyyarələrində İrandan atılan raketlərin və digər təyyarələrin trayektoriyasını izləyən xüsusi alətlərin daxil olduğu hərbi yüklərlə yanaşı, Ermənistana bu texnikaya nəzarət edəcək şəxsi heyət də gətirilib.

Azərbaycan və İranla sərhəddə yerləşdiriləcək şəxsi heyətə diqqət çəkməmək üçün hərbçilər diqqətlə seçilib - onların əksəriyyəti ABŞ ordusunda xidmət edən erməni əsilli ABŞ vətəndaşları, həmçinin Postsovet ölkələrindən ABŞ-yə köçmüş slavyan və qafqazlı görünüşlü şəxslərdir.

Şəxsi heyət Ermənistan Silahlı Qüvvələrinin hərbi geyimi ilə təchiz olunub və Ermənistan Silahlı Qüvvələrinin Zəngəzurdakı hərbi bazasında yerləşdirilib. ABŞ-nin Ermənistandakı səfirliyi Zəngəzura amerikan hərbçilərinin yeridilməsi ilə bağlı məlumatı cavablandırmağa tələsərək ”Birləşmiş Ştatlar və Ermənistan arasında əməkdaşlığın genişləndirilməsinə yönəlmiş ”Qartal Tərəfdaş 2024” təlimi iyulun 24-də uğurla başa çatıb.

Biz təsdiq edə bilərik ki, bütün Amerika texnikası və şəxsi heyəti Ermənistanı tərk edib” deyə bildirmişdi.

Lakin ”Eagle Partner 2024” iyulun 15-dən 24-dək Ermənistanda baş tutub. Amma avqustun əvvəlində ABŞ Hərbi Hava Qüvvələrinə məxsus hərbi-nəqliyyat təyyarələri Ermənistana gəlib. Yəni, səfirlik tamamilə mövzudan kənar reaksiya verib.

# “Əksər bölgələrdə yağıntılı hava şəraiti gözlənilir”

Son aylar ölkənin bir sıra bölgələrində, xüsusilə dağlıq və dağətəyi rayonlarda müşahidə olunan yağıntılı hava şəraiti respublikanın şimal bölgəsində, o cümlədən Lahıc-Dəmirçi-Şamaxı yolunda və digər avtomobil yol infrastrukturunda müəyyən fəsadlara səbəb olub. Adalet.az xəbər verir ki, bunu Milli Hidrometeorologiya Xidmətinin rəisi Nazim Mahmudov deyib.

O bildirib ki, növbəti günlərdə də ölkəmizin əksər bölgələrində yağıntılı hava şəraiti gözlənilir, yağıntıların arabir leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var: ”Bu səbəbdən əhaliyə müraciət edirik ki, sinoptiklər tərəfindən verilən xəbərdarlıqlara diqqət yetirsinlər və ehtiyat tədbirlərini unutmasınlar.

Mövsümlə əlaqədar olaraq bölgələrə istirahət üçün üz tutan vətəndaşlardan mümkün qədər fəsad yaranmış yollardan deyil, alternativ yollardan istifadə etmələri xahiş olunur”.

*Arzu Əsəd*



# Ətrafımız od tutub yanır, lakin...

*Ətrafımız od tutub yanır. Lakin feysbuk dostluğumdakı ətrafım bütün gün çox arsız bir soyuqqanlılıqla Paris olimpiadasında hansı ölkənin neçə medal qazandığından, hansı kitabı oxumaq tövsiyəsindən, saxta deputatlığa namizədin xalqla çay süfrəsi ətrafında problemlərin həlli vədindən və sair məsələlərdən yazır. İctimai şüur sanki narkozlaşıb, ağrı, həyəcan hiss etmir.*

*Hələ elə intellektual hesab edilən şəxslər var ki, ictimai-siyasi sahədə yazan qələm sahiblərinə ironiya edir, onları panika yaymaqda ittiham edir, az qala vətən, dövlət düşməninə çevirmək cəhdləri edirlər. Xalqı, kütlələri siyasi düşüncədən məhrum etmək onu ölümə məhkum etmək deməkdir.*

*Şimal qonşumuz - dünyanın sonuncu böyük imperiyası bunu etdi və acı nəticəsini görür. Siyasətsizləşdirilən xalq sosiallığını, həmrəyliyini, birliyini itirdi. Bu gün də ərazilərini itirir. Bir gecə bir neçə yüz silahlı onun böyük bir vilayətinə daxil olur və oranı işğal edir. O boyda böyük ölkə şaşqınlıq içindədir. Hamı bir nəfərdən kömək istəyir. İdeologiya yox, siyasi şüur yox, sosial ədalət yox, əsasında müasir cəmiyyətlərin qurulduğu demokratiya yox, yox oğlu yox. Bir Duqinləri var. O da tarixin çöplüyündən çıxardığı xristian pravoslav məzhəbçilik ideyasını modern qərb fəlsəfəsindən çırpışdırıb improvizə etdiyi milli loqos və sivilizasiyaların müxtəlifliyi ideyasının qarışığından yeni ideologiya yaratmaq cəhdləri edir. Lakin tarix yalan və yamaq götürmür. Onun hər dövrə uyğun müasir tələbləri var. Ya o tələblərə cavab verib sağ qalacaqsan, inkişaf edəcəksən, ya da müxtəlif yalan manevrlərlə özün özünü məhvə məhkum edəcəksən.*

*Azərbaycan intiligensiyası öz tarixi rolunu başa düşməlidir. Lağlağının, ironiyanın, laübalılığın, səfeh yaltaqlığın, məişət xırdaçılığına yuvarlanmağın yeri və zamanı qurtarıb. 44 günlük zəfərimizi yalnız xalq və iqtidarın həqiqi həmrəyliyi, ölkədə sosial ədalətin, demokratik təsisatların bərpası, kütlələrin siyasi şüurunun yüksəldilməsi ilə, tarixin çağırışlarına imitasiya və yalanla deyil, həqiqi, adekvat cavablarımızla qoruyub saxlaya və inkişaf edə bilərik.*

*Zaman daralır və bunun yeganə əlacı tarixin tələblərinə həqiqi əməli cavablarla təfəkkürün genişləndirilməsidir. Azərbaycan ordusunu səfərbər edib, onun və xalqın həqiqi gücünə arxalanan və beləliklə də, nəyi, necə, nə vaxt edəcəyini bilən rəhbərimiz bu gün də ətrafındakı xalqdan uzaq, şitillikdə yetişdirilmiş əyan-əşrəfi kənarlaşdırıb, bu xalqın intellektual potensialını toplayıb, ona arxayın olub daxili siyasətdə sosial ədalət və demokratiya cəbhələrində də bu xalqa həqiqi zəfər qazandırmalıdır. Azərbaycan intellektualı hansı vasitələrlə olur olsun, lap canı, malı bahasına da olsa öz dövlətinin rəhbərinə, bütün ictimai şüura tarixin bu tələblərini çatdırmaqdan çəkinməməlidir. Arxada vətəndir! Bu son dərəcə qarışıq zamanda xalqın bütün maddi və mənəvi potensialını bir araya yığıb lazımi hədəflərə yönəldə bilmədiyimiz təqdirdə itirə biləcəyimiz vətən!*

# ANAMA-da işləmək istəyənlərin diqqətinə!

**Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad olunmuş ərazilərdə paramedik vəzifəsində işləmək istəyənlər üçün sənəd qəbulu elan edir.**

ANAMA-nın mətbuat xidmətindən Adalet.az-a bildirilib ki, namizədlərin ilkin tibbi yardım və ya müalicə işi ixtisası üzrə orta-ixtisas təhsili olmalıdır.

Həmçinin ANAMA Laçın mobil bazasında aşpaz, qabyuyan, xadimə, çamaşırxana işçisi, fəhlə, Horadiz regional əməliyyat mərkəzi və Ağdam mobil bazasında avtobus sürücüsü, Şuşa və Xankəndi düşərgələrində xidmətçi (xadimə) vəzifələrində işləmək istəyənlər üçün sənəd qəbulu elan edir.

Aşpaz işləmək istəyən namizədlərin müvafiq sahədə peşə təhsili, avtobus sürücüsü olmaq istəyən namizədlərin isə 2 ilə qədər iş stajı olmalıdır.

Eyni zamanda, ANAMA Bakı şəhəri İ.Dadaşov küçəsi, 260 ünvanında yerləşən inzibati binaya xadimə və fəhlə vəzifələrində işləmək istəyənlər üçün sənəd qəbulu elan edir.

Maraqlananlar əlaqə telefonu göstərməklə müvafiq vəzifəyə sənədlərin təqdim olunmasına dair ərizə, şəxsiyyət vəsiqəsinin surəti, təhsilə dair sənədlərin surəti (attestat, diplom, sertifikat, vəsiqə, arayış və digər), əmək kitabçasının surətini career@anama.gov.az ünvanına göndərməlidir.

Sənəd qəbulu cari il avqustun 31-dək aparılacaq.

**Əlavə məlumat üçün ”805” qaynar xəttinə müraciət oluna bilər.**



Rasif İmanoğlu

# Bəxti gətirməyən "bəxtəvər"

**Poeziya da, jurnalistika da, dəniz də ilk növbədə dəlicəsinə vurğunluğu və fədakarlığı sevir. Mənə inanmırsınızsa, kapitan-şair Faiq Balabəylidən soruşun. Əslində soruşmağa lüzum yoxdur. Üzünə baxan kimi, vurğunluğunu da, fədakarlığını da, əzabkeşliyini də görmək çətin deyil.Siz bir baxın...**

**Altmış il əvvəl Cəlilabad rayonunda dünyaya göz açan Faiq Balabəylini poeziya daha tez - hələ otra məktəbdə oxuduğu ilk illərdə ovsunlayıb. İlk şeirini kağıza nə vaxt pıçıldadığını yəqin özü belə xatırlayır:**

*Mən kənddə doğuldum, kənddə böyüdüm*
*At çapdım, ot çaldım, ovçuluq etdim.*
*Baş vurdum çayların axar suyuna*
*Dözmədim, üz tutub Xəzərə getdim*

**Dənizə ilk baxışdan vurulub: görən kimi! Dəniz və dənizçilər haqqında eşitdiyi maraqlı söhbətlər, oxuduğu əsərlər, baxdığı filmlər bu sevgini bir az da gücləndirib.**

**Sonralar tərcümeyi-halını səhvsiz yaza bilməyənlərin dünyanın ən asan, mənim isə ən çətin işlərdən saydığım bir işdən - dənizçi və şair yükündən heç də yüngül olmayan jurnalist yükünü daşımaqdan bir ayrı ləzzət almağa başlayıb. "Ədəbiyyat qəzeti"ndə çalışıb, "Yeni xəbər" və "Millətin səsi" qəzetlərinin yaradıcı kollektivlərinə rəhbərlik edib. Hazırda yaradıcısı və baş redaktoru olduğu "Müstəqil.az" saytı da dirigözlü açdığı səhərləri hesabına həm də bir çox yazıçı və şairlərin maraq dairəsindədir.**

**Faiq Balabəylinin dənizə, poeziyaya ya jurnalistikaya sevgisinin qədərini özü də bilmir.**

**Mənə də elə gəlir ki, hüdudsuzdur. Yoxsa hər üçünün öhdəsindən eyni ustalıqla, eyni məharətlə gələ bilərdi?**

**Kapitan-şairin təsisçisi olduğu "Dənizçilərə Sosial Dəstək" İctimai Birliyi İdarə Heyətinin sədri kimi gördüyü əvəzsiz işlərdən isə əksər dənizçilər minnətdarlıqla danışırlar.**

**Hələ mənim-sənin bilmədiyimiz nə qədər qayğısı, nə qədər dərd-səri var?! Dilinə gətirməyir. Görənlər də... gözlərini yumurlar.**

**İlk baxışdan sərt, bir az da quru adam təsiri bağışlayır.**

**Amma bu, ilk baxışdan belədir. İç dünyasına baş vuranda, gözlərinin önündə tamam başqa bir adam canlanır.**

**Kifayət qədər məlumatlı olması, çox şeydən baş çıxarması, dinləmək mədəniyyəti, inandırmaq qabiliyyəti... istər-istəməz onu həm də yaxşı müsahibə çevirir, danışdırdıqca onun haqqında ilk təəssüratından əsər-əlamət qalmır. Və hətta haqqında əvvəlki fikirlərinə görə bir qədər sıxılırsan da...**

**Paxıllıqdan, həsəddən uzaqdır. Yaxşı yazıya, yaxşı poeziya nümunəsinə yaxşı deməyi bacarır. Yaxşı şairin, qələm əhlinin uğuruna ürəkdən sevinir. İndi beləlləri çoxdur ki? Paxıllığın viran qoyduğu ürəklərin özlərindən başqa, kiminçünsə və ya nə üçünsə döyünə biləcəyinə siz inanırsınız? Siz Allah, məni güldürməyin.**

**Mən insanlıqdan piyada o qədər yazı-pozu adamı görmüşəm ki... Adam deməyə adamın dili gəlmir.**

**Dənizi kim sevmir ki?! Amma Faiqin dəniz sevgisi bir ayrı sevgidir.**

*Körfəz boyu səpələnən yosunlar,*
*balıqların qumla dolan qulağı...*
*Əgər məni incitsəniz gedərəm*
*görünmərəm gözünüzə, uzağı.*

*Bir qağayı ləleyini götürüb*
*qum üstrünə bircə misra yazaram.*
*Külək dolmuş ağ yelkənə bürünüb*
*bir adaya qayıtmağa hazıram.*

*Balıqların gözlərinə su dolmur*
*qulaqları duzlu sudan göynəyir*
*Zəncirləri tarım duran gəmilər*
*lövbərlərin ağrısına dözməyir.*

*Yamyaşıldı duzlu suyun köynəyi*
*qayaların üzü cızıq-cızıqdı.*
*Gəmiləri üzüb gedib, göynəyir*
*bu dənizin limanları, yazıqdı...*

**Kiminsə başına sığal çəkməyi xoşlamayan dəniz ondan da çox şey alıb. Amma kapitanlıq zirvəsinə ilk zəmanəti də, ilk xeyir-duanı da ona dəniz verib. Faiq Balabəylini dəniz qaldırıb, dəniz ucaldıb o zirvəyə!**



**Şeiri, poeziyanı kim sevmir ki?! Amma Faiq Balabəylinin poeziyaya sevgisi bir ayrı sevgidir.**

**Poeziyanı yalnız Faiq Balabəyli kimi duyan, şeiri yalnız Faiq Balabəyli kimi sevən, yaşayan deyə bilər ki:**

*Uzaq bir adadan uğultu səsi*
*dənizin üstüylə sürüşüb keçər*
*isti bir xatirə səmt küləyi tək*
*dünənlə, bu günlə görüşüb keçər.*

*Yosunlar qıvrılar, qız saçları tək*
*dağılar dənizin üzünə necə.*
*Qaya oyuğunda gündüzlər yatan*
*Yarasa sürüsü oyanar gecə.*

*Limanlar gözləyər,*
*gəmilər gəlməz*
*Fit səsi bürüməz körfəz boyunu*
*o nadinc, o vecsiz, günahla dolu*
*ləpələr nə edər,*
*bitməz oyunu.*

*Sönər işıqları*
*yorğun gəminin,*
*ömrünü yaşayar dor ağacında*
*qağayı ləleyi ilişib qalar*
*günahsız məhkum tək dar ağacında.*

**Söz də borclu qalmayıb. Sözü uca tutduğu gündən söz də bu istedadlı şairi ucaltmağa məşğuldur. Təsadüfi deyil ki, kapitan Faiq Balabəyli bu gün həm də sözün, poeziyamızın Balabəyli zirvəsindədir.**

**Məni heyrətləndirmək çətin olsa da, dənizçiliyi də, şairliyi də boyuna biçilən Faiq Balabəyli bunu bacarıb.**

*...Qiyma-qiyma, tikə-tikə*
*doğransam da, bu torpaqda*
*şadam elə.*
*Bu torpağa yad olana*
*bir anadan doğulsam da,*
*yadam elə.*
*Ovxarlanmış qılıncını*
*başım üstə saxla, cəllad*
*İmtahan et, sınağa çək,*
*son məqamdı, yoxla,cəllad.*
*Ürəyimdə, əməlimdə bir soyuqluq*
*görəsən əgər, haqla,cəllad*
*Soy dərimi, kəs başımı*
*canımı al, edam elə.*

*Oda oldu başı üstə Göy, türklərin*
*Oda düşüb, külü qalıb Göytürklərin.*
*Dərs olmasa mənə mənim gördüklərim*
*Adamlıqdan çıxsam əgər, haqqa gətir,*
*adam elə.*

**Həmişə bu fikirdə olmuşam ki: "Dost bir olar, ya iki". Faiq Balabəyli bu deyimin hikmətini də şübhə altına alıb. Dostlarının sayı bilinmir.**

**Həm də, etiraf edim ki, yaxşı dostlardır! Dost sarıdan bəxtinin gətirdiyini düşünmürəm. Bəxti nədə gətirib ki?! Nəyə nail olubsa, buna görə yuxusuz gecələrinə borcludur. Yəqin ona görə ki, bu bəxti gətirməyən "bəxtəvər" özü yaxşı dostdur.**

**Dənizçi olmayan yazarların yaradıcılığında mavi gözlü dənizlərin yalnız bir üzünü görmək mümkündür.**

**Faiqin yaradıcılığında dənizin hər üzü olmasa da, çox üzünü görmək olar. Dənizin üzü dönəndə, dəniz heç özünü də tanımır. Yeri yerindən, Göyü göydən qoparmaq istəyir.**

**Dənizin üzü dönəndə dəniz özü boyda əjdahaya dönür. Mən də bu iddiada olmuşam ki, dəniz cəsurları sevir. Bəlkə də tərsinədir. Dənizi məhz cəsurlar sevirlər. Dənizin imtahanlarına məhz cəsurlar dözürlər. Cəsur omayan dənizçi dənizdə nə qədər davam gətirə bilər? Uzağı... dənizin üzü dönənə kimi.**

*Dəniz elə həmənkidir*
*gah mülayim, üzügülər*
*gah da dönüb ölüm olar,*
*bisi güdər...*
*...Dənizçiyə dalğaların arasından*
*əl eləyər su pərisi.*
*Dənizçiyə ad verərlər: su pərisi...*

**Özü də dənizə oxşayır. Özünə sığmayan, rahatlığın nə olduğunu bilməyən dənizə.**

**Dənizə oxşayır. Yaxşılıqlarına pisliklə cavab verilən dənizə.**

**Dənizə oxşayır. Çirkab götürməyən dənizə...**

**Hələ ki, dənizin ona, bizim həm dənizə, həm yaxşı sözə ehtiyacımız olduğu üçün umacağım dənizdəndir: öz adamından, söz adamından muğayat ol, dəniz!**

**Mən illərin necə keçdiyini bilmədim, hiss etmədim. Yəqin Faiq də mənim kimi! 60-ın kürəyini nə vaxt yerə vurdu?**

**Arzu edirəm ki, yüzdə də Faiq Balabəylini Xəzərin sahilində dənizə şeir pıçıldaşan görsünlər. Gözlərində də: "Belə yaşamağa dəyərmiş" etirafı ilə!**

## *Türkiyəyə ən çox bu ölkələrdən turist axını var*

**Türkiyədə 2024-cü ilin ilk yarısında turizmin sürətli inkişafı tələbat artımına gətirib çıxarıb.**

Adalet.az-ın məlumatına görə, 2024-cü ilin ilk altı ayında Aralıq dənizi ölkəsini ziyarət edənlərin sayı 13,9% artıb.

Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi İstanbulda keçirdiyi mətbuat konfransında Türkiyənin 2024-cü ilin birinci yarısının nəticələrini açıqlayıb. Mədəniyyət və Turizm naziri Mehmet Nuri Ersoy, 2024-cü ilin ilk yarısında Türkiyəyə gələn ziyarətçilərin sayının illik müqayisədə 13,9% artaraq 26,1 milyona çatdığını bildirib. Türkiyənin eyni dövrdə turizm gəlirləri 9,3% artaraq 23,7 milyard dollara çatıb. Türkiyənin bir ziyarətçiyə düşən orta gündəlik xərcləri 98 ABŞ



dollarına çatıb. Nazir Ersoy bildirib ki, ilk 6 ayın nəticələri Türkiyənin il sonu 60 milyon ziyarətçi və 60 milyard ABŞ dolları gəlir hədəfinə sadiqliyini təsdiqləyir.

Bundan əlavə, Türkiyə əsas hədəf bazarlarında güclü artım əldə edib. Qardaş ölkənin ən böyük turizm mərkəzləri olan Antalya, İstanbul, İzmir və Muğlaya ziyarətçilərin axını ilə Türkiyənin ənənəvi ən böyük bazarları olan Rusiya, Almaniya və Böyük Britaniya inkişaf edib. 2024-cü ilin yanvar-iyun ayları arasında 3% artım yaradan 2,7 milyondan çox rus Türkiyəni tətil məkanı olaraq seçib. Eyni dövrdə alman ziyarətçilərin sayı 2,5 milyonu keçdi və Almaniya bazarında artım 9% olub. Türkiyənin üçüncü ən böyük bazarı olan Böyük Britaniya, ilin ilk yarısında Türkiyəni təxminən 1,8 milyon britaniyalının ziyarət etməsi ilə 19% artım göstərib. Türkiyə, keçən ilin eyni dövrü ilə müqayisədə 111% artımla 187.000-dən çox ziyarətçiyə ev sahibliyi edən Çin bazarında ən böyük artımını əldə edib. 2024-cü ilin ilk 6 ayında Türkiyəyə 56.000-dən çox yapon ziyarətçi gəlib ki, bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 96% çoxdur.

Bundan əlavə, mədəni irsə də tələbat artır. Türkiyənin dəyərli tarixi, mədəni və arxeoloji irsi bütün dünyada maraq doğurur. 2024-cü ilin ilk altı ayında Türkiyənin muzeyləri və tarixi yerləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 12% artaraq 14 milyona yaxın ziyarətçiyə ev sahibliyi edib. Bu dövrdə Türkiyənin ən çox ziyarət edilən irs yerləri İzmirdə Efes, Konyada Mövlana Muzeyi, Dənizlidə Hierapolis və Pamukkale, Kapadokya/Nevşehirdə Göreme və Zelve/Paşabağları olub.

## *Süni intellekt: gələcəyin texnologiyası və onun insana təsiri*

**Son illərdə süni intellekt (AI) texnologiyalarının inkişafı dünya miqyasında sürətlə artmaqdadır. Bu yenilik, insan həyatının demək olar ki, hər bir sahəsinə təsir edərək, cəmiyyətin və iş dünyasının inkişafında yeni mərhələ açır. Lakin bu texnologiyanın tətbiqi ilə əlaqədar olaraq həm böyük faydalar, həm də müəyyən risklər ortaya çıxır.**

Süni intellekt səhiyyə sahəsində əhəmiyyətli yeniliklər gətirir. Xəstəliklərin erkən diaqnostikasında AI alqoritmlərinin istifadəsi, səhiyyə işçilərinə dəqiq və sürətli məlumatlar təqdim etməyə imkan verir. Məsələn, AI vasitəsilə tibb mütəxəssisləri rentgen və ya MRT nəticələrini analiz edərək xəstəlikləri daha erkən mərhələdə aşkar edə bilərlər. Bu isə, müalicə prosesini daha effektiv edir və xəstələrin sağalma şansını artırır. Təhsil sahəsində süni intellekt, fərdi öyrənmə proqramlarının yaradılması ilə inqilab edir. AI əsaslı öyrənmə platformaları tələbələrin bacarıq səviyyələrini müəyyən edərək, onların ehtiyaclarına uyğun kurslar təqdim edir. Bu, müəllimlərə daha çox tələbəyə fərdi yanaşma imkanı verir və təhsilin keyfiyyətini artırır. Eyni zamanda, AI ilə təchiz olunmuş virtual müəllimlər, şagirdlərin suallarını dərhal cavablandıra bilir və bu, öyrənmə prosesini daha interaktiv edir. AI-nın tətbiqi iş dünyasında avtomatlaşdırmanı sürətləndirir, bu da bəzi sahələrdə iş yerlərinin azalmasına səbəb ola bilər. Müəyyən peşələrdə robotlar və AI sistemləri insanların yerini tutmaqla iş bazarına mənfi təsir edə bilər. Bu isə işsizlik və iqtisadi bərabərsizlik kimi problemləri yarada bilər. Digər tərəfdən, AI-nın inkişafı yeni iş imkanları və sahələr də yaradaraq, fərqli ixtisaslara ehtiyacı artırır.

Süni intellektin tətbiqi ilə əlaqədar ortaya çıxan etik məsələlər də diqqət mərkəzindədir. AI-nın qərar vermə prosesində ədalət, şəffaflıq və qərəzsizlik kimi prinsiplərin qorunması vacibdir. Bundan əlavə, AI sistemlərinin insan hüquqlarına təsiri, məlumatların qorunması və şəxsi məlumatların gizliliyi ilə bağlı narahatlıqlar da mövcuddur.

**İcbari tibbi sığorta orqanizmdə xərçəngə çevrilmə riski yüksək olan atipik hüceyrə dəyişiklikləri nəticəsində yaranan şişönü xəstəliklərin erkən diaqnostikasını təmin edir.**

Adalet.az xəbər verir ki, bu hüceyrələr adətən normal hüceyrələrin yerini alaraq onları zədələyir, sürətlə çoxalır və orqanizmin digər hissələrinə yayılır. Şişönü xəstəliklər müxtəlif orqan və toxumalarda meydana gələ bilər. Bu xəstəliklərin erkən mərhələdə aşkarlanması və müalicəsi gələcəkdə inkişaf edə biləcək xərçəng hallarının qarşısının alınması baxımından böyük əhəmiyyət kəsb edir.

İcbari tibbi sığortanın Xidmətlər Zərfinə funksional diaqnostika, şüa diaqnostikası, laborator və endoskopik müayinələr daxildir. Bu müayinələr vasitəsilə xəstəliklərin dəqiq diaqnostikasını aparmaq, orqanların funksional vəziyyətini və daxili strukturlarını qiymətləndirmək, kimyəvi və fiziki prosesləri öyrənmək, o cümlədən daxili orqanları vizual olaraq müayinə etmək mümkündür. Şişönü xəstəliklərin diaqnostikasını dəqiq və etibarlı şəkildə aparmaq üçün isə bir neçə əsas metodlardan istifadə olunur. Bu metodların hər biri müəyyən

# Onkoloji xəstəliklərlə bağlı diaqnostikalar icbari tibbi sığorta zərfinə daxil edilib

xəstəliklərin aşkarlanmasında yüksək həssaslıq və dəqiqlik təmin edir.

Maqnit rezonans tomoqrafiya (MRT) bədənin daxili strukturlarını detallı şəkildə göstərir və bir çox hallarda şişönü dəyişikliklərin aşkarlanmasını təmin edir. Bu metod, xüsusilə yumşaq toxumaların görüntülənməsi üçün effektivdir.

Kompüter tomoqrafiyası (KT) skanerləri bədənin müxtəlif hissələrinin detallı görüntülərini təqdim etməklə şişlərin yerini və ölçüsünü müəyyənləşdirməyə imkan yaradır. Bu metod xüsusilə bərk toxumalarda və orqanlarda şişlərin aşkarlanması üçün istifadə olunur.



Digər bir diaqnostik metod olan kolonoskopiya, kolorektal (yoğun və düz bağırsaq) xərçəngə çevrilmə potensialı yüksək olan şişönü lezyonların erkən diaqnostikasında geniş istifadə olunur. Bu prosedur zamanı həkim endoskop vasitəsilə kolonun daxili divarlarını yoxlayır. Şübhəli bölgələr tapıldıqda biopsiya nümunələri götürülür və laboratoriyada analiz olunur.

Qastroskopiya mədə və onikibarmaq bağırsaqda (duodenum) şişönü dəyişikliklərin diaqnozu üçün istifadə olunur. Bu metod mədəbağırsaq traktının yuxarı hissəsinin görüntülənməsini təmin edir və şişlərin erkən aşkarlanmasına kömək edir.

Kolposkopiya uşaqlıq boynu xərçəngi və xərçəngönü xəstəlikləri erkən mərhələdə müəyyən etmək üçün istifadə olunan yüksək dəqiqliyə malik ginekoloji müayinə metodudur. Bu müayinə prosesində kolposkop cihazı ilə uşaqlıq boynu optik olaraq incələnir. Şübhəli bölgələr aşkarlandığı halda isə həmin hissələrdən nümunələr götürülərək laborator analizlərə göndərilir.

Histeroskopiya qadın sağlamlığının qorunması və erkən diaqnostika üçün ən müasir metodlardan biridir. Bu prosedur zamanı histeroskop cihazı uşaqlıq boşluğuna daxil edilir və görüntü real vaxtda ekrana ötürülür. Bu sayədə uşaqlıq daxilindəki hər hansı patologiya çox asanlıqla müşahidə edilə bilir. Bu müayinə bir çox ginekoloji xəstəliklərlə yanaşı, uşaqlıq xərçənginin və şişönü xəstəliklərin aşkar edilməsində həyata keçirilən vacib müayinə metodudur.

Mammoqrafiya süd vəzilərinin və ətraf limfa düyünlərinin rentgen vasitəsilə müayinəsini təmin edən vacib bir diaqnostika üsuludur. Bu metod süd vəzilərindəki xərçəngönü xəstəlikləri erkən mərhələdə aşkar etməyə və vaxtında müalicəyə başlamaqla gələcəkdə həmin patoloji halların bədxassəli törəməyə keçməsinin qarşısını almağa imkan yaradır.Şişönü lezyonlar adlanan xərçəngə çevrilmə potensialı yüksək atipik hüceyrə bölgələrindən götürülən toxuma nümunələrinin mikroskopik analizi diaqnostikada qızıl standart hesab edilir. Bu metod hüceyrələrin struktur vəziyyətini qiymətləndirməyə imkan verməklə dəqiq diaqnostikanı təmin edir.

Həmçinin, qanda xüsusi biomarkerlərin səviyyəsi müəyyən xəstəliklərin mövcudluğunu göstərə bilər. Bu testlər sırasından olan onkomarkerlərin qanda təyini bəzi şişönü xəstəlikləri erkən mərhələdə aşkarlanmasında istifadə olunur və xəstəliyin gedişatını izləməyə kömək edir. Pap smear testi isə qadınlarda uşaqlıq boynunda (serviks) şişönü xəstəliklərin aşkarlanmasında geniş istifadə olunur.

**İcbari tibbi sığortanın tətbiqi xəstəliklərin erkən mərhələdə aşkarlanmasına, vətəndaşın vaxtında müalicəyə cəlb olunmasına və əhalinin ümumi sağlamlıq vəziyyətinin yaxşılaşdırılmasına yönəlib. İcbari tibbi sığorta ilə qarşılanan tibbi xidmətlərdən istifadə etmək üçün TƏBİB-in tabeliyindəki istənilən dövlət tibb müəssisəsinə və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 9 elmi-tədqiqat institutuna şəxsiyyət vəsiqəsi ilə müraciət etmək kifayətdir.**

VAQİF OSMANLI

# "13 ƏFSANƏ" - ƏDƏBİ ƏBƏDİ KÖRPÜ



**Zəfər şirin və qürurverici olsa da, ona gedən yol çox təəssüf ki, həm də, ağrı-acıdan, ölüm-itimdən, nisgildən, üzüntülərdən, ayrılıqlardan, dağıntılardan keçir. 44 gün davam edən Zəfərə doğru şərəfli, rəşadətli, şanlı tariximizə qızıl hərflərlə yazılan yolda Ali Baş Komandanın və Azərbaycan Ordusunun siyasət və döyüş yolu Ulu Türkün oğullarını bəşər yaranandan mifə, rəvayətə çevirən bu günkü gerçək əfsanəyə çevirdi. Bir daha təsdiq olundu ki, bir günlük azadlığı qırx illik əsarətdən üstün sayan xalqımız bu gün də Babəkləri yetişdirə bilir.**

**Xüsusi Təyinatlı Qüvvələrin birinci əfsanəvi taborunun 13 əfsanəvi şəhidinin Azərbaycan hərb salnaməsinə yazdığı 13 səhifəni ilhamının, istedadının, zəngin təxəyyülünün və Vətən sevgisinin gücü ilə tarixə həkk edən pedaqoq-şair Elnur Uğurun "13 əfsanə" poeması gerçək Vətən, torpaq, rəşadət, qeyrət, namus dastanıdır.**

**Xalq yazıçısı Çingiz Abdullayev bu poemanı "əbədiyyət abidəsi" kimi dəyərləndirir. Filologiya elmləri doktoru Vaqif Yusifliyə görə, Elnur Uğur "təsvir etdiyi qəhrəmanlara zəfər nəğməsi oxuyur. Hərçənd ki, bu zəfər nəğməsində kədərli notlarla da qarşılaşırıq. O, şəhidliklə qəhrəmanlığı vəhdət halında götürür. Çünki şəhidlik qəhrəmanlığa aparır"...**

**Poema nikbin və bədbin ovqatdan yoğrulmuş qəhrəmanıq epopeyasıdır. Şəhidlik sevinclə kədərin, qazandıqlarımızla itidiklərimizin nisbətindən, vəhdətindən yaranan ali zirvədir. Bu zirvəyə qalxanların ruh doğmalarınıqürur və fəxr ağuşuna alır, burada hüznün, kədərin yeri azdır. Çünki doğmalar Vətən üçün yetişdirdiyi oğullarının Vətənin dar günündəki hünəri ilə təsəlli tapır. Bilirlər ki, nə qədər ki, Türkün qanına susamış xain düşmən var, Vətən şəhid qanıyla suvarılmasa Vətən olmur. Vətənin azadlığı, bütövlüyünə yol həmişə qandan-qadadan keçib.**

**"Qarabağ sevdalı, Şuşa eşqinə təşnə" (Esmira Fuad) Elnur Uğurun "13 əfsanə"si "Hadrut fatehi"nin, "Sultan Şəhid"in, "Bütün yollar Şuşaya aparır"ın ürək atəşi ilə qələmə aldığı davamıdır. Bu Zəfər nəğmələri "kvartet"inin davamı olacağına məndə yaranan əminliyə səbəb Elnur müəllimin Vətən eşqidir. Məncə, "eşq" yox olmayan, azalmayan, hər an artan əbədi mənəvi dünyadır. Vətən eşqi Elnur Uğurun lirikasının nüvəsidir, ana xəttidir. Artıq böyük ümid, inam və cəsarətlə deyə bilərik ki, pedaqoq-şair Azərbaycanın haqq-ədalət savaşının - Qarabağ müharibəsinin ədəbi salnaməçilərindən biridir. O, "zamantək bir qəddar nişangaha tuşlaya bilib ömür oxunu"- qələm silahını.**

**Poemanın proloqunda XTQ-nin birinci əfsanəvi taborunun 13 əfsanəsinin yığcam tanıtımı uğurludur. Kitabın məramı ilə tanış olmaq, "qəlb"inə yol tapmaq üçün sözlə yazılan "yol nişanı", "yol xəritəsi"dir bu proloq. Yaxud qələbə yolunun mayakı da deyə bilərik.**

**Yazdı öz qanı ilə gör nə azadlıq əsəri,**
**Qəhrəman bir taborun möhtəşəm əfsanələri!**
**Sübhanımla Kamilim, Şəhriyarımla Camalım,**
**Hər biri sevgi yuxum, bir də yenilməz amalım!**
**Ramiq, Elyar, Həmidim, Xəyyam ilə Tərzanım -**
**Bir azadlıq çiçəyim, onlar ümidim, gümanım!**
**İlkinim, Beyrəyim, Elton, Kərimim - haqq mizanı,**
**Qanıdır ki, Vətənin gəldi cana bir də canı!**

**Kimlərdir 13 əfsanə - "məzarları and yeri Vətən-Vətən oğullar?" Gəlin onları Elnur Uğurun lirik və kövrək düşüncələrindən bəhrələndiyimiz qısa informasiya ilə daha dəqiq tanıyaq:**

**"Qəbri üstə əyilib Vətən deyilməyi, Vətənə oğulluq haqqını haqq edən, qanıyla bu torpağa paklıq möhürü vuran" "Qarabağ" ordenli Kamil Şirinov;**

**"Ağsudan Cəbrayıla qanıyla Vətən yazan, Vətənin alnındakı işğal adlı ləkəni qanıyla silən" "Vətən uğrunda" medallı İlkin Zülfüqarov;**

**"Beyrək adını Dədəm Qorqud verən, dörd ay nişanlı qalıb şəhadət şəhdini içən, Oğuz elinin alp ürəkli, eşq dilli Bamsı Beyrəyi", "Vətən uğrunda" medallı Beyrək Fezullayev;**

**"Dünyanın vicdanını baş daşıyla silkələyən, Neftçaladan Hadruta xəzritək əsən külək, şəhid Hadrut fatehi", Vətən Müharibəsi Qəhrəmanı Camal İsmayılov;**

**"Eşq sözünün mənasını qanıyla yazan, düşmən polkovnikini əsir götürən, Vətən torpağını məzarıyla böyüdən" Vətən müharibəsi Qəhrəmanı Sübhan Cəbrayılov;**

**"Elə yar olan, Ana Vətən eşqinə ən gözəl dildar olan, keçdiyi hər yol, cığırı qanla cana gətirən, Vətənə sadiqliyin həqiqət olduğunu göstərən" Vətən müharibəsi Qəhrəmanı Elyar Vəliyev;**

**"Hünəriylə ölümün ölümünü izləyən, tarixin alnındakı qara ləkəni təmizləyən ulu ruh", "Qarabağ" ordenli Şəhriyar Quliyev;**

**"Ölümüylə olumu əbədi var edən həyat məktəbinin şərəfli məzunu, "Sədaqətim şərəfim" deyib döyüşə girən" "Azərbaycan Bayrağı" ordenli Elton Qənbərli;**

**"Qanıyla Vətən torpağını dirildən, Ana Yurd yaşasın deyə ömrünü tez dəyişən, Ərgünəşdə ərliyini yerə, göyə sübut edən" "Qarabağ" ordenli Həmid Abbasbəyli;**

**"Torpağına susayanın su həvəsini öldürən, dirilik rəmzinə" çevrilən, "ruhundakı dağ vüqarı, qanındakı yurd sevgisi ilə coşan" "Vətən uğrunda" medallı Tərzan Haşımov;**

**"Ölümüylə Ərgünəşdə ölümə intihar yaşadan, ölüm ona heyrət gözüylə baxan ölümün kabusu" Azərbaycan Bayrağı" ordenli Kərim Əliyev;**

**"Vətən andıyla böyüyüb Ana Vətəni böyüdən, qoy dostluq yaşasın, dost yolunda ölsəm də mən" hayqıran, "nahaqqı haqla susduran" "Vətən uğrunda" medallı Ramiq Tağıyev;**

**"Ən gözəl Vətən şeirini öz güllələriylə yazan, tabuta sığmayan, Vətəni Tanrı bilib ona tapınan, zamana ərlik öyrədən "Azərbaycan Bayrağı" ordenli Xəyyam Əzizov.**

**Və bir də canlı əfsanə - 13 əfsanənin əfsanəvi qəhrəmanlığını "özüylə gələcəyə bir irs kimi aparan, xatirələri Yurdumtək o qədər yara alan", şəhid dostlarından bu dünyaya əmanət qalan kiçik gizir Ayar Abbasov. Ona da şəhid dostlarının bir əmanəti qalıb:**

**Haraya gedirsə özüylə birgə,**
**Daşıyır dostların xatirələrin.**

**Hər şəhid xatirə bir igid ömrü,**
**Hər ömür ölümə zəfər çalıbdır.**

**Elnur Uğurun Vətən sevgili lirik duyğuları təkcə bu günə yox, həm də gələcəyə ünvanlanan vətənsevərlik dərsləridir. Unutmayaq ki, söz, fikir adamı olmaqla yanaşı, o həm də məsuliyyətini, cavabdehliyini anlayan vicdanlı müəllimdir. Onun qəhrəmanlığa köklənmiş dərslərindən bu günkü şagirdləri gələcək nəslə - övladlarına, şagirdlərinə, tələbələrinə, Vətən aşiqlərinə qürurla, fəxrlə danışacaqlar. Yəni Elnur müəllimin dərsləri, düşüncələri əbədiyyətə hesablanmış Vətən sevgisi, mənəviyyat ismarışlarıdır.**

**Şair xain, bədxah, nankor düşmənə xəbərdarlıq edir:**

**Türkün düşmənlərinə,**
**Bir-bir gələcək sıra.**

**"Qonaq gəldiyi yeri öz məskəni sananlar"a acı aqibəti 44 günlük savaşda yaşatdı igidlərimiz. Vətən yollarını "qarğalardan təmizlədilər". Vətənin qoynu yaralardan - səngərlərdən təmizləndi.**

**Savaş mövzulu bədii nümunələr səngərdən, qanqadadan, ölüm-itimdən yazıldığına görə bəzən bədii yükü o qədər də ağırçəkili olmur. Ancaq Elnur Uğur lirik duyğularını bədii çəkidə saxlamağı, poetikləşdirməyi bacarır:**

**Lənətə gəlmiş müharibə**
**Nişanlı qızları barmaqlarından yıxır,**
**Özünə qayıtmağa qoymur gözləri yol çəkənləri...**

**Hərbin qızğın caynağında sevgi çapalayır...**
**... Müharibə qanunlarının hər bəndi**
**Ayrılıq yazır...**

**Qanlarla yoğrulan azadlığın**
**Mayası sevgidən olur...**

**Tabutu yurd olanın torpağı cənnət bitirər,**
**Bir şəhid sevdası göydən də şəfaət gətirər...**

**Bəli, Elnur Uğur,bizim üçün "şəhidlər körpü qurdular" - Vətənə sevgi, cəsarət, şücaət, rəşadət, Vətənin dar günündə canını fəda etmək körpüsü. Bizə isə bu müqəddəs körpüləri qorumaq və bu körpülərin "memar"larını ehtiramla yad etmək, yaşatmaq qalır. Bu da ilahi işdi...**

**Siz də bir körpü saldınız - sözə, Vətənə, Vətənin şəhid və qazi övladlarına sevginizlə, ehtiramınızla.**

**"13 əfsanə" əbədi ədəbi körpüdür. Mənəvi körpülər ürəkləri, ruhları birləşdirir...**



Allahverdi Eminov

# Kişilərin qadından istəyi...

**Qadının birinci və sonuncu arzusu gözəl, məlahətli görünməkdir, sevilməkdir. Bu cəhdi heç bir kişi kinayə ilə qarşılamamlıdır, dodaq büzməməlidir. Ərə getməmiş qız tayfası uşaqkən kuklasını oynadır: ona əlvan don biçir, qırmızı yaylıq örtür və bələyir, laylay çalır. Bununla o özündən asılı olmadan gələcək analıq duyğularını yaşayır. Qızlar məlahətli görünmək axtarışında ifrata varmamalı, süni vasitələrə əl atmamalıdır. Mənliyini itirməməklə yeniliyi qəbul etməli, dövrün tələblərilə ayaqlaşmaldır. Qadın ərini əvvəlki məhəbbətilə sevməlidir, bunu davranışında büruzə verməlidir, bununla o, İlahi tipli əxlaqi ilə öyünməlidir. Əgər şöhrətlidirsə belə, ailə borcunu itirməməlidir. Bu baxımdan azərbaycanlı qadınlar avropalı xanımlardan tamamilə seçilirlər.**

İnsanlarda: kişilərdə və qadınlarda əxlaq - davranışı daima problem olmusdur, uzun yol keçmiş, monoqamiya (təknigahlılıq) əsas aparıcı stimul olmuşdur, ibtidai insanlarda qarışıq kişi - qadın münasibətləri inkişaf etmiş, insan öz növlərini dəyişmək nəticəsində meydana gəlmişdir.

İbtidai insanlarda kişi - qadın münasibətləri ideal deyildi, hər iki cins intim bağlılıqda tam sərbəst idilər... Uşaq onu dünyaya gətirən anaya - nəsil anaya görə tanınırdı. Çox sonralar cinsi ələqələr qrup şəklində meydana çıxdı, ailələrin yaranması üçün monoqamiya forması cəmiyyətlərə sirayət etdi. Beləliklə, Məhəbbət məfhumu ortaya çıxdı, iki müxtəlif cins qarşılaşdı, birbirinin gözlərinə baxdılar, hər ikisinin gözlərindən yaş süzüldü, vücudları titrədi. Məhəbbət ailələri bir-birinə bağladı, ünsiyyəti daha da möhkəmləndirdi.

Əsrlər keçir, ailələr münasibətlərində qeyri - normal davranış adətlərinə yiyələnirdilər. Belə ki Qədim Misirdə faraonlar sülaləsində qan qarışdırıcı əlaqə (İntsest) geniş vüsat aldı, faraon kişi doğma bacısı ilə evləndi, bununla qanın təmizliyinə "nail" oldu - tamam absurd hərəkət!

Tarixdə ad qazanan Spartada əxlaqa başqa cür baxırdılar, onlar intim məsələsində tam sərbəst davranırdılar və onunla öyünürdülər ki, guya bu yolla igid uşaqlar doğulular. Halbuki fahişəlik baş alıb gedirdi. F.Engels yazırdı ki, fahişəlik ilk dəfə Ermənistanda Anait dini məbədində yaranmışdır (məncə, bu fakt oxucular üçün maraqlı olmaya bilməz). Bu əxlaqsız izlər bu gün də erməni qadınlarının xarakterində yaşamaqdadır. Rahibələr fahişəliklə qazandıqları pulla məbədlərin xərcini ödəyirdilər! Qadın ləyaqətinə seksual acgözlüklə yanaşmaq, hansı vasitə iləsə "harassment", yəni ələ etməyə çalışmaq eybəcərlik deyilmi? Təəssüf ki, bəzi vəzifəli məmurların, imkanlı biznesmenlərin adları aktrisalarla hallanır və bu, gizlədilmir. Xüsusilə, oxuyanlar - xanəndə xanımlar intervyularında etiraf edirlər ki... Ərindən ayrılmağını, bir uşağı ilə yaşadığını fəxrlə dilə gətirirlər. Cəmiyyət belə qadınları yaxşı qarşılamır. Beləələri şərəfsiz həyatını şərəfli ölümlə güdaza verərlər!..

Unutmayaq ki, belə tipli qadınlar ailə tərbiyəsindən çox uzaqda dayanırlar, onları kiməsə ərə getmək hissi daha çox maraqlandırır. İnsanlar bu barədə düşünürlər, onlar heç də tikan kolundan quşüzümü yığmırlar!

Unutmayaq ki, hər bir "yaxşı" ağac meyvə yetişdirir, barlı ağac acı məhsul gətirməz. Bağban belə ağacları kəsir odda yandırır. Ailədə belə "cızığından" çıxan qızları vaxtında tərbiyə etmək gərəkdir, sonra onlar təmiz, valideyn nəzarətilə boya-başa çatan bir oğlanı bədbəxt edir, yanıldığının ömrü boyu əzabını yaşayır. Bu baxımdan Şərq ailəsinə yalnız qibtə etmək lazım gəlir, ata-ana sədaqətli qadın olmaq, namuslu ana olmaq naminə övlad böyüdürlər. Oxuculara bəlli olmaya bilməz ki, Rusiya bu məsələdə hələ də "axsayır", ərini dəyişmək problem yaratmır. Mə-sələn, Rusiyanın Şimal bölgəsində "çukçalar" adlı xalq yaşayır. Qadınları (qızları nəzərdə tuturam) ilk nigah gecəsi buna "zivaf" gecəsi deyirik - bəyin razılığı ilə basqa bir kişilərlə intim münasibətdə olurlar. Çukca ailəsinə qonaq olan şəxs o evdə gecələyəndə ev sahibinin qadını ilə intim münasibətdə bulunur. Bu adətlə onlar - ailələr qonağın xidməti hesabına qanın təzələnməsi baş verir. Təəssüf ki, bu eybəcər, ikrah doğuran adət hələ də yaşamaqdadır...

Kişilərin qadın məxluqundan istəyi təbiidir, özünə həmdəm axtarır və sual həmişə onu düşündürür, cavab axtarmağa çalışır. O sualdır ki, qadınlar "düzəliş" edəcəklər - əminəm! Və qadınların kişilərdən istəyi nədir? - ürəklərindən keçəcəkdir - buna da əminəm!

Mən isə israrımda qalıram: əgər kişilər qadınlardan razılıq hissi ilə davranırsa, ünsiyyət bağlayırsa, məncə, ümumi razılığa gəlmək olar. Ötəri onu deyərdim ki, qadınlar müəmmalı şəkildə istərlər kişi xasiyyətcə sərt (amansız deməzdim), dönməz, inadkar olmasın, onun göstərişlərini (əmrini deməzdim) yerinə yetirsin, bir sözünü "iki "eləməsin, istəklərinə hörmətlə yanaşsın. Mağazaya girəndə barmağını hara uzatsa, o əşya alınsın, bir şərtlə evdə söz - söhbət getməsin, "sənin yüksək zövqünə həmişə inanmışam" - pıçıldasın, əlindən tutub divanda otuzdursun, televizorda kanalı dəyişdirsin! Rəqqas qadındırsa: "Yadındamı toyumuzda necə oy-nayırdım, elə sənin özün də qəşəng rəqs eləyirdin!" - sözlərdən, təriflərdən məmnunluq duyulsun. Qadın sarı rəngli xalatının yaxasını düymələsin, kişinin üzündəki narazılığı görməməzliyə vursun. Kişidən eşitdiyi: "Sarı rəngdən xoşum gəlmir, yadıma payız fəsli düşür" sözlərini gülərüzlə qarşılasın. "Unutma ki, toyumuz payızda olub!" Kəlmələrinə cavab olaraq ayağa qalxıb mətbəxə keçsin, çay tədarükünə hazırlaşsın. Qadınlar belə "sözəbaxan" kişiləri daha çox sevirlər və yataq üçün darıxılar...

Qadın ovqatının şirin və kövrək məqamında yataqdan qalxırdı, otaq solğun işıqda çapalayırdı, qəndillər səhər üçün darıxırdılar. Kişi siqaret sümürmək üçün özünü köklənmişdi. Baxışlarını pəncərəyə dikmişdi, qulağına bayırda ağaclarda hey budaqlarını dəyişən sərçələrin civiltisi dəyirdi, onların tez oyanmasından narahatdı. Deyəsən, elə qadını da nigarandı, kişisinə yorğun həvəslə baxır, nəsə suallar vermək istəyirdi. Kişinin ürəyindən o keçirdi qadını onu ən yaxşı gözündə görsün. Həyatını bağladığı qadının qəhrəmanı olsun. Bəlkə də xanımı ondan hər barədə üstündür, elmi işçidir, vəzifə daşıyır və ilaxır. Bir şərti də unutmasın - qadını üstünlüyünü ərinə hiss etdirməsin.

Kişinin məxsusi planları var: oğlu təkdir, tək böyüyür, ancaq belə olmamalıdır, baxmayaraq xanımı hələlik ikinci uşaq istəmir, ürəyindən keçən odur ki, qızı dünyaya gəlsin. Qış ərəfəsində qoca anasını yanına - şəhərə gətirmək arzusundadır, qadını onun planına maneçilik törətməsin. Axı, gəlinlər qayınanaları ilə səmimi "düşmən" olurlar. Kişi, ümumiyyətlə, qadınlardan kişilərə qarşı hörmət görmək istəyir və bunu onların mənəvi və fiziki borcu hesab edir. Bu, təkcə onun istəyi deyil, bütün kişilər öz qadınlarından hörmət - izzət görmək əzmindədirlər. Bu, kişiləri işlərində daha böyük uğurlara həvəsləndirər. Unutmamalı ki, qadın xeyir - duası mühüm stimuldur kişilər üçün.

Qadınlar kişilərlə söhbətində çox hallarda "eqo"ya üstünlük verirlər. "Mən hər qadından deyiləm", "Mən öz yerimi bilirəm", "Mən ərimin qılığına girməyi sevirəm"i dillərində cücərdirlər. Bu vərdiş heç də xoşagələn deyil. Kişilər o qadınlarla razılaşır ki, "Mən" yox, "Biz" ifadəsini işlətsinlər: "Biz birgə tamaşaya baxdıq", "Biz ev işlərində bəzən şərik oluruq", "Biz yataqda keçmişə qayıtmağı sevirik" və sair sözləri kişilər qulağına alanda fəxrlə düşünürlər, hiss edirlər ki, həyatda tək deyil, yanında böyük qüvvə vardır. Bir həqiqətdir ki, qadın kişini göylərə ucaldan varlıqdır, o, yalnız yataq xanımı deyil, enerji mənbəyidir!

Kişilər qadınlarının, onun rəfiqələrinin, tanışlarının birgə ünsiyyətini sevmirlər, onlar giley etməyi, xırda məişət narazılıqlarını "xırdalayır", kənara çıxırlar, hətta müqayisələr aparırlar ki, mənim ərim belə kişidir, qazanandır, alıb - gətirəndir və ilaxır. Bu isə qadını ərindən soyumaq dərəcəsinə gətirə bilər. Bu, eyni zamanda kişiləri sevdiyi qadından uzaqlaşdıran bir səbəb də yaradar...

**Bu söhbətim nə dərəcədə qadınların xoşuna gələcək - deməkdə çətinlik çəkirəm. Amma istərdim qadınlar kişilərinə nə istədiyinə müsbət yanaşsınlar.**



Mirzə Cəfərov,
Azərbaycan Jurnalistlər Birliyinin üzvü,
"Tərəqqi" medallı

# Mənim tanıdığım Fərman Kərimzadə

**Fərman Kərimzadə imzası bir oxucu kimi mənə hələ onunla şəxsi tanışlıqdan çox-çox əvvəl məlum idi. O vaxt respublikada çıxan ədəbi-bədii jurnallarda dərc olunan bütün əsərlərini dönə-dönə oxumuşdum.Fərman Kərimzadə o illərin mən deyərdim ki, bəlkə də, ən çox oxunan yazıçılarından idi.Xüsusilə tarixi romanları əl-əl gəzirdi, maraqla oxunurdu. Onun ssenarisi əsasında çəkilmiş "Qarlı aşırım"filmi isə respublikada böyük əks-səda yaratmışdı. Heç ağlıma da gəlməzdi ki, nə vaxtsa, çox böyük populiyarlıq qazanmış yazıçı ilə şəxsən tanış olacam, aramızda çox isti bir münasibət, yaxın dostluq yaranacaq.**

Bu belə baş vermişdi. Rayon partiya komitəsində təbliğat-təşviqat şöbəsinin müdiri işləyirdim. Rayonda kənd təsərrüfatı işlərinin qızğın çağı olduğu üçün aparatda da iş qaynayırdı. Bizim şöbənin isə işi lap gərgin idi. Rayona gələn bütün qonaqlar-müxbirlər, televiziya işçiləri, incəsənət ustaları, mühazirəçilər bizim şöbədən istiqamətlənirdi. Belə gərgin bir vaxtda rayonumuza ilk dəfə gəlmiş Fərman Kərimzadəni müşaiyət etməyi birinci katib şəxsən mənə tapşırmışdı.

İlk baxışdan mənim üçün qaradinməz, ciddi görünən Fərman müəllim, sən demə, çox söhbətcil, səmimi və sadə bir insanmış. Geriyə daranmış gur sıx saçları, enli, lopa bığları onun simasına xüsusi bir yaraşıq verirdi. Ən maraqlısı bu idi ki, onu kiməsə təqdim etməyə ehtiyac qalmırdı. Onu televiziya ekranlarında çox görmüşdülər, əl-əl gəzən kitablarındakı şəkillərinə dönə-dönə baxmışdılar. Ona görə də yazıçını görən hər kəs tanıyır, onun əlini sıxmaq, bir az da yaxından ünsiyyətdə olmaq istəyirdi. Hiss edirdim ki, elə Fərman müəllim də belə ayaqüstü söhbət və görüşlərdən çox məmnun qalır.

Fərman müəllimin rayona gəlişi xeyirxah məqsəd daşıyırdı. Rayonun əmək adamlarından, qabaqcıllarından respublikada dərc olunan ədəbi qəzetlərdən biri üçün yazı sifarişi almışdı. Birlikdə həmin illərdə rayonumuzda qabaqcıl təsərrüfatlardan birinə yollandıq. İxtisasca aqranom, gənc olsa da işgüzarlığı ilə ad qazanmış xanım sədr bizi mehribanlıqla qarşıladı, başçılıq etdiyi təsərrüfat haqqında ətraflı məlumat verdi.

Təsərrüfatda təkcə bu kolxozdan deyil, rayonda, hətta respublikada tanınan pambıqçılar, mexanizatorlar çalışırdı. Çoxusu da yüksək ordenli, medallı. Onlarda görüşlər, söhbətlər Fərman müəllimin üzünə xoş bir təbəssüm vermişdi. Az-çox, bir yaradıcı adam kimi, hiss edirdim ki, Fərman müəllimin qələmə alacağı yazı üçün kifayət qədər təsərrüfatı var. Təsərrüfatla tanışlığın, onun qabaqcıl əməkçiləri ilə bir-iki saatlıq görüşlərin necə başa çatdığından xəbərimiz olmadı. Son görüş sədrin kabinetində oldu. Xanım sədr onların təsərrüfatına gəldiyi üçün Fərman müəllimə bir daha razılığını bildirdi. Qonaqpərvərlikdə evlərinə dəvət etdi. Yazıçının hər dəfə gəlişinə ürəkdən şad olacaqlarını söylədi.

Vaxt məhdudluğundan Fərman müəllim də öz növbəsində minnətdarlığını bildirdi, uğurlar arzuladı. Ayrılanda sədr məni bir-iki dəqiqəliə saxlayıb, əlindəki zərfi qonağa bildirmədən mənə uzatdı.

- Qonağımız olmadınız,sağlığ olsun. Onda bunu qəbbul edun, özünüz harada istəsəniz, bir tikə çörək kəsərsiniz.

Axşamtərəfi bir qədər dincəlmək üçün Fərman müəllimlə əyləşib çay içirdik. Sədrin təşəbbüsü barədə qonağa məlumat verdim və zərfi ona təqdim etdim. Fərman müəllim çox təəccübləndi. Zərfi tərəddüdlə aldı. Bildirdim ki, sədr gənc qızdır. Haradasa bizimlə əyləşib bir tikə çörək kəsməyə, nədənsə utandı. Ona görə belə məsləhət bildi.

Fərman müəllimin simasında yaranmış dəyişikliyi dərhal duydum. Onun qalın qaşları bir az da, sıxlaşmışdı.

- Müəllim mən sədrdən də, rəhbərlik ediyi kolxozun əməkçilərindən də çox razı qalmışam. Belə adamlarla dağı-dağ üstə qoymaq olar. Onlar hər cürə tərifəlayiqdirlər. Biz qələm sahiblərinin də borcu onların hünərini layiqincə vəsf etməkdir. Çox xahiş edirəm, bu zərfi sədrin özünə qaytarasınız. Bilirsiniz, mən bu zərfi götürədə bilərəm, ancaq o, hər dəfə məni televiziya ekranlarında görəndə, yəqin ki, deyəcək, ona ... manat vermişəm. Xahiş edirəm qaytarasınız.



Kabinetə qayıdan kimi, xanım sədrə zəng vurdum. Elə Fərman müəllimin yanında qonağımızın hər şeydən razı qaldığını, zərfə isə ehtiyac olmadığını çatdırdım. Telefonda sədrin təəccüblə dediyi sözləri, deyəsən Fərman müəllim özü də eşitdi.

-Sən demə, belələri də varmış ... Halal olsun.

İki-üç həftə sonra qəzetdə Fərman Kərimzadənin rayonumuzun əmək qəhrəmanlarından bəhs edən geniş və məzmunlu oçerki dərc olundu. Yazı rayonda çox maraqla qarşılandı.

Fərman müəllimlə xoş münasibətlərimiz uzun illər davam elədi. Zəngləşirdik, hər dəfə Beyləqan, İmişli rayonlarına yolu düşəndə, mütləq Biləsuvarda görüşür, söhbətləşirdik.

Hansı il olduğunu xatırlamıram. Ancaq Fərman müəllimin Biləsuvar rayonuna ilk səfərindən bir, ya iki il sonra idi. Mərkəzi Komitənin xətti ilə ideoloji işçilərin seminar - müşavirəsində mən də işirak edirdim. Bir gün fasilə zamanı qonşu rayonların birindən olan həmkarım dedi:

-Axşam Fərman Kərimzadə ilə bir yerdə idik. Sizi də soruşdu, salamlarımı yetirməyi xahiş etdi və bildirdi ki müəllimdə amanat olmalıdır, gəlib bizə bir qonaqlığ versin...

Mən dərhal söhbətin nədən getdiyini tutdum. Əlbətdə, bu, ərkyana bir zarafat idi. Digər tərəfdən bu hörmət bəslədiyimiz qələm sahibi ilə görüş üçün axşı bəhanə idi. Elə həmin axşam dəniz kənarında üç dost əyləşib çörək kəsdik, xeyli shbət etdik.

**Fərman Kərimzadə kimi qüdrətli söz adamını itirmək bütün qələm dostları, çoxsaylı oxucuları və ədəbiyyatımız üçün çox ağır itgidir. Fərmanın odlu alovlü ürəyində yazıb-yaratmaq, gələcək nəsillərə yadigar qoymaq üçün yetərincə mövzular vardı. Hər biri öz vaxtını, necə deyərlər, öz məqamını gzləyirdi. Çox heyf! Onun nəcib arzularla döyünən ürəyi vəfasız çıxdı. Biz Fərman Kərimzadəni itirdik. Vaxtsız əcəl onu bizdən cismən ayırdı. Dostlarının qəlbində yaşayan şirin xatirəsi isə həmişə ürəklərdədir.**

# Rasim Balayev: "Əsl aktyor teatrda işləməli, vaxtı olanda kinoya çəkilməlidir"

*O sənətə təsadüfən gəlməmişdi Arzusu, amalı teatr aktyoru olmaq idi. Ancaq uzun sürən həvəsi teatrda işləməyə imkan vermədi. Kinoda özünü tapan aktyor ilk dəfə Bakı kinostudiyasında " Ulduzlar sönmür" əsərində kiçik bir rola çəkilir və elə həmin dövrdən etibarən ulduzu parıldamağa başlayır. Bu gün adı çəkiləndə sənət yada düşür. Və bu gün dövrümüzün dahi, unudulmaz sənətkarı olan Rasim Balayevin 76 yaşı tamam olur. Biz də öz adımızdan sənətkara uzun ömür, can sağlığı, yaradıcılığında yeni - yeni uğurlar arzulayırıq. Onunla kinodan danışdıq. Həmin müsahibəni sizə təqdim edirəm.*

*Rasim Əhməd oğlu Balayev 8 avqust 1948-ci ildə Ağsu rayonunda anadan olmuşdur. 1965-ci ildə Ağsuda orta məktəbi bitirib. 1969-cu ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirib. Rasim Balayev ilk dəfə Bakı kinostudiyasında "Ulduzlar sönmür" əsərində kiçik bir rolda çəkilib. Oynadığı "Nəsimi", "Babək" və "Dədə Qorqud" filmlərindəki rollarda tamaşaçıların sevgisini qazanıb. "Azərbaycanfilm" kinostudiyasının nəzdində fəaliyyət göstərən kinoaktyor teatr studiyasında da çalışıb. Böyük və çətin rollardan əlavə Rasim Balayev kiçik rollarda da oynayıb. "Bu şirin söz, azadlıq", "Sənin birinci saatın", "Xoşbəxtlik səhnəsi", "Mən hələ qayıdacağam", "Birisigün gecəyarısı" kimi filmlərdə o, epizodik rol oynayıb. "Özbəkfilm", "Mosfilm" və başqa studiyalarda filmlərə çəkilib.*

*1990-cı ildən 18 yanvar 2013-cü ilə qədər Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi olub. 31 may 2022-ci ildə Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri seçilib.*

### *"Bu film ölüm və olum məsələsi idi. Əgər bu rolu oynamasaydım ..."*

**- Rasim müəllim, sizin dilinizlə desək, kinoda nə var, nə yox?**

Təəssüf ki, kinomuzun bugünkü günü tək mən yox, kinoda işləyən adamları, tamaşaçıları qane etmir. Çünki heç nə çəkilmir. Düzdür yeni kino agentliyi yaradılıb, amma fakt bu günkü gündə ortada heç nə yoxdur. Kino adətən yayda, günəşli havalarda çəkilir. Söhbət naturadan gedir. Amma əfsuslar olsun ki, Azərbaycan kinosu yaxşı vəziyyətdə deyil.

**- Bunun səbəbini nədə görürsünüz?**

Kinonun inkişafı kimi bu vəziyyətə düşməsi də uzun illərin prosesidir. Pis ya yaxşı Sovet quruluşunun bir sturukturu var idi. Bizim xoşumuza gələn tərəfləri də var idi, gəlməyən tərəfləri də. Ancaq kino var idi. Azərbaycanfilm vaxtilə 8 film çəkirdi, dördü dövlət xətti ilə, qalanları mərkəzi televiziya xətti ilə. Bu gün onlar yoxdur, onlar bir qırağa, bu gün ssenari yazanlar da yox dərəcəsindədir.

Əvvəllər Azərbaycan Müstəqil Kinematoqrafiya komitəsi idi. Sonradan müstəqil idarə oldu, sonradan Mədəniyyət və Turizm Nazirliyində şöbə olaraq fəaliyyət göstərdi. İndi də bir agentlik kimi fəaliyyətini davam etdirir. Ancaq mən istəyərdim ki, müstəqil bir qurum olsun. Bu qurum həm məsuliyyəti üzərinə götürsün, həm də cavabdeh olsun bu işlərə. İndi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət universitetində də bu şöbə var, amma orada baza yoxdur. Təhsilin də kinoya mənfi təsirləri olub və Azərbaycan kinosu bu hala gəlib. Bir də ki, bəzi yaşlı nəsil dünyasını dəyişdi, bəziləri xəstədir, artıq film çəkə bilmirlər. Kino fiziki sağlamlıq tələb edir.

**- Sadaladığınız bu səbəblər tamaşaçı itkisinə gətirib çıxarır, sizə elə gəlirmi ki, kinoda dirçəliş olsa yenidən tamaşaçı aüditoriyasını qazana biləcək?**

Bizim ali məqsədimiz Azərbaycan kinosunu öz yoluna qoymaq, Azərbaycan tamaşaçılarını yenidən kinoteatra qaytarmaqdır. Bunun üçün də yaxşı böyük ustalıq lazımdır. Ən əsası isə yaxşı əsərlər təqdim olunmalıdır. Biz Qarabağ müharibəsindən zəfərlə qayıtdıq, qələbə çaldıq. Bu gün bununla bağlı ortada heç nə yoxdur. Motivasiya üçün müsabiqələr də təşkil olunur, ancaq təəssüf ki, vəziyyət ürəkaçan olmur. Əvvəllər Azərbaycanda tamaşaçılar kinoteatrlara üz tutardı, indi heç o da yoxdur. Bir də ki, gərək elə kino ərsəyə gətirəsən ki, tamaşaçı özü gəlsin. Tamaşaçını zorla kinoteatra aparmaq mümkün deyil. Bunun üçün də yeni savadlı, istedadlı nəsil yetişdirmək lazımçdır. Toy çəkən operatorlar film çəkəndə kinonun gələcəyindən danışmaq olmur. Kimsə sponsor tapıb sənətindən asılı olmayaraq kinoya gəlir. Məni görən hər kəs soruşur : "Rasim müəllim, niyə köhnə kinolar kimi kinolar çəkilmir? ". Bugünki səviyyəsiz, talantsız çəkilmiş seriallar artıq tamaşaçı bundan bezir və sosial platformalarda istədiyi qədimi, tarixi kinoları rahatlıqla axtarışa verib baxa bilirlər.



**- Rasim müəllim elə qədimilikdən, tarixilikdən danışmışkən, ən çox tarixi obrazlarla tamaşaçıların yaddaşlarında qalmısınız. Babək, Nəsimi, Dədə Qorqud və s. bəs öz yaddaşınızda qalan obrazınız hansıdır?**

Hamısı. Mən obrazlarımın arasında heç vaxt doğma ya ögey fərqi qoymamışam. Hətta epizod rollarımda belə bu fərq olmayıb, onlara ikinci dərəcəli baxmamışam. Bütün rollarımı eyni məsuliyyətlə oynamışam. Kino mənim həyatımdır. Mən hər bir roluma sağlamlığımı, həyatımı vermişəm. tarixi filmləri tamaşaçılarım daha çox sevsə də, ondan əlavə 100 - dən çox filmim var.

**-Elə epizod demişkən, Rasim Balayev üçün baş rol önəmlidir, yoxsa yaddaqalan obraz?**

Rolda dramaturji material yaxşı olanda, oynamaq üçün, özünü ifadə etmək üçün imkan varsa, hər ikisində uğur qazanmaq mümkündür. Baş rolda oynayanda tamaşaçıya daha çox fikrini çatdıra bilirsən. Çünki imkanlar çox olur. Amma hər bir rolun da öz çəkisi, dəyəri var. aktyor teatrda da, kinoda da eyni məsuliyyətlə oynamalıdır. Dramaturqun tamaşaçıya nə demək istədiyini rolu ilə ortaya çıxarmağı bacarmalıdır.

**- Bəs sizcə obrazı yaşamaq ya oynamaq lazımdır?**

Obrazı yaşamasan yaşada bilmərsən, rolunu tam əxz etməlisən özündə ki, tamaşaçını inandıra biləsən. bu gün tamaşaçını inandırmaq olduqca çətindir.

40 il öncəki tamaaşaçı ilə indiki tamaşaçı arasında da fərq var. bu gün kinoteatra gedən hər bir kəs məlumatlıdır. Əvvəllər pafosla tamaşaçının diqqətini çəkə bilirdinsə, bu günki tamaşaçı pafosa aldanmır. O qədər professionallıq tələb olunur ki, gərək aktyorluq məktəbləri olsun, isteadad, zəhmət ola. Yoxsa söz əzbərlədin çıxdın nə gəldi dedin bununla sənət olmur.

**-O vaxtlar sənətə təsadüfən gəlmiş adamlar böyük uğurlara imza ata biliblər, amma bu gün təhsil alan aktyorlar tamaşaçıya o vibrasiyanı ötürə bilmirlər. Bəs bu nədən qaynaqlanır?**

İstedad olmalıdır. Bugünki aktyorları da qınamıram. Təhsil alan hər bir aktyora özünü ifadə edə bilməsi üçün meydan lazımdır. Əgər bu aktyor yaxşı əsərdə çəkilmirsə, gözəl quruluşlu tamaşada oynamırsa o heç harda yetişə bilməz. Azərbaycan teatrının repertuarlarına baxın, klassik əsərlər barmaq sayıyladır... Əvvəllər aktyorlar dahilərin əsərlərində oynayırdı, sözün əsl mənasında yetişirdilər. Bu gün yetişməli repertuar da yoxdur. Dramaturgiya yoxdur. Kino da belədir. Təhsil nə olsun ki var, təcrübə olmadıqdan sonra tamaşaçıya heç nə ötürmək olmur.

**- Siz özünüz də teatr tamaşalarında rol almısınız.**

İnstitutda oxuyandan elə teatr aktyoru olmaq istəmişəm. o vaxtlar Akademik Milli Dram Teatrına getim və mənə dedilər ki, ştat yoxdur. Rahib Hüseynov mənə institutda saat hesabı dərs verdi. O müddətdə Kinostudiyada ştat açılmışdı və mən ora getdim. Elə kinoda da çalışdım. Düzdür, teletmaşalarda da oynamışam, Akademik Milli Dram Teatrında Hüseyn Cavidin "İblis" əsərində İblisi, Cəfər Cabbarlının "Aydın"əsərində Dövlət bəyi oynamışam. Amma kinoya çox çəkildiyim vaxtlar idi və artıq kinoya gələ bilmədim. Repertuarlar da düzü məni özünə çəkmirdi. Mənim amalım olan rollar yox idi. Əsl aktyor teatrda işləməli, vaxtı olanda kinoya çəkilməlidir. Teatr gündəlik məşqdir, hər zaman aktyor formada olur. Ancaq kino belə deyil.

**- Pərdəarxası maraqlı məqamlarınızdan, başınıza gələn hadisələrdən danışmaq yerinə düşərdi.**

Elə hadisələr çoxdur. Mən "Nəsimi" filmində çəkilirdim, onda aktyor kimi özümü sübut etməmişdim. Amma geyimimə baxıb deyirdilər budur Nəsimi. Nəsiminin əllərini, qollarını bağlayıb aparılan səhnədir. Bu kinoda bir neçə saniyəlik göstərilir amma bütün günü mən elə əlləri bağlı qalırdım. Bir dəfə ikinci rejissora dedim ki, bir az su ver, götürə bilmirəm. bir də gördüm ki, adamlardan biri qarpız, biri yemiş, biri qatıq nə var gətirib verirlər. O vaxt açığı çox kövrəldim. Gör bizim insanların Azərbaycan şairinə olan hörmətinə bax. Mənim üçün bu film ölüm və olum məsələsi idi. Əgər bu rolu oynamasaydım sənətdən getməli idim. O vaxtlar kadrarxasında hamı işinə məsuliyyətlə yanaşardı, amma indi onu görmək mümkün deyildi... Bir dəfə bekar oturmuşdum, kinoya dəvət aldım. Dedim ki, bekar oturmaqdan yaxşıdır. Amma çox peşman oldum. Çünki o çəkiliş meydanında gördüyüm sənətə məhəbbəti, peşəkarlığı görmədim. Loru dildə desək bu "xaltura" məqsədilə çəkilmiş bir şey idi. Kino uzun mətnləri sevmir. Yığcam, lakonik dialoqlar olmalıdır. Bəzən teatrda baxırsan ki aktyor 3 - 4 səhifəlik monoloqları tək deyir. O da monoton oldusa, tamaşaçını itirir. Bəzən kinoda uyğunsuzluqlar da olur, baxırsan ki, birinci ortasını çəkirlər, sonra xırını, sonda kinonun əvvəli çəkilir. Buna aktyor hazır olmalıdır.

**- Seriallara vəsait yetərincə xərclənir, amma ümumilikdə götürəndə keyfiyyət ortada olmur. Bunun səbəbini nədə görürsünüz?**

Ustalıq olmalıdır. Filmin valideyni rejissordur. Gəlin sizə başıma gələn bir əhvalatı danışım. Bir dəfə filmə dəvət aldım və getdim. Dedim ssenari ilə tanış olmaq istəyirəm. Dedilər 40 seriadan ibarətdir. Mənə iki vərəq verdilər. Dedim bu birinci seriadırsa, 39 - uncu seriası haradadır? Deyir ki, biz çəkiliş gedə - gedə yazırıq. Özü də hərəsini bir adam yazır və naşı adamlar... Kinonun imkanları nəzərə alınmalıdır, kinoda dramaturgiya olmalıdır. Xaricdə məhz kinodramaturqlar olur, dialoq müəllifləri olur. Uzun - uzadı danışıqlar, serialların 500 - 600 serialı olması da tamaşaçını bezdirir. Bilinmir ki, məqsəd nədir. Oxucuya, tamaşaçıya nəyi çatdırmaq istəyirsən? bizim nəsil filmlərlə, romanlarla, kitablarla böyüyüb. Biz əsərlərlə formalaşmışıq sözün əsl mənasında. Əgər bir serialda ibrət götürəcək şey yoxdursa, niyə çəkilir?!

**- Müasir aktyorlara nəyi tövsiyə edərdiniz?**

Sənətə vurğun olsunlar. Bu sənətə dırnaqarası baxmaq olmaz. Özünü tapa bilməyən sənətə gəlməsin. Səbir, sənətə məhəbbət, isteadad olmalıdır. Öz üstlərində çalışsınlar. Yaxşı sənətkar olmaq üçün fitri istedad, zəhmətkeşlik və bəxt lazımdır. Mən bu gün sənətə gəlmiş olsam başqa peşəyə yiyələnərdim. Kinonu bu vəziyyətdə görmək istəməzdim. Amma Sənət ölmür. Ölməyəcək də.

Mən 1970 - 1990 - cı illərdə kinoya gələndə 1200 nəfər işləyən kollektiv var idi. İndi bu kollektiv 4 - 5 nəfərə enib. Baxırsan adamın ürəyi ağrıyır. Bu gün dublyaj belə keyfiyyətsizdir. Kino çəkmək çətindir deyək, dublyaj ki çətin deyil. Bizim tamaşaçılar dublyajın dərdindən filmlərə öz dilində baxmağı seçir. Axı bizim dilin öz ahəngi var. Mən xaricdə olanda hər kəs məndən öz dilimdə danışmağı xahiş edib. Və bu dilə məst olurlar. Bizdə isə aktyorlar bu dilə etinasız yanaşır. Ən əsası isə dublyajla düzgün tələffüzü tamaşaçılara təlqin etmək lazımdır. Aktyor ədəbi dildə danışmalıdır. Hansı bölgədən olmasından asılı olmayaraq, aktyorun ləhçəsi bilinməməlidir.

**- Dublyajda aktyorlardan çox diktorların, aparıcıların olması sizcə nə dərəcədə doğrudur?**

Çox pis. Mən bunu da aydınlaşdırmışam. Yüzlərlə baş rol yazmışam: Muxtarnamə, İmam Rza, İsa peyğəmbər və s. Dublyajda baxıram ki, mətnlə ekran əsəri uyğunsuzdur. Deyirəm kim tərcümə edib? Deyir filankəs. Həmin adam isə filmin montaj prosesində işləyən adam deyil. Əvvəllər tərcüməçilər əvvəlcə filmə baxardılar sonra ona uyğun tərcümə edərdilər. Bu gün çox təəssüf olsun.

**Söhbətləşdi:**
**Şəlalə Camal**

## *Rusiya daha bir Avropa konvensiyasından çıxdı*

**Rusiya Milli Azlıqların Müdafiəsi üzrə Çərçivə Konvensiyasına xitam verib.**

Adalet.az Rusiya mətbuatına istinadən xəbər verir ki, bu barədə məlumat hüquqi aktların rəsmi nəşrinin saytında yerləşdirilib .

"2024-cü il avqustun 1-də Rusiya Federasiyası adından 1996-cı il fevralın 28-də Strasburqda imzalanmış Milli Azlıqların Müdafiəsi üzrə Çərçivə Konvensiyası Rusiya Federasiyası ilə konvensiyanın digər iştirakçıları arasında münasibətlərə xitam verilib", - sənəddə deyilir.

Rusiyada milli azlıqların müdafiəsi Rusiya Federasiyasının Konstitusiyası ilə müəyyən edilir və təmin edilir, eyni zamanda federal mərkəzin və Rusiyanın bölgələrinin birgə yurisdiksiyasındadır.

## *Acı bibərin nə kimi faydaları var?*

**Yeməklərdə istifadə etdiyimiz, acılığından qorxduğumuz, hətta sağlamlıq baxımından ehtiyatla yanaşdığımız bir tərəvəz olan acı bibər bütün dünyada istehlak edilən təbii vitamin mənbəyidir.**

Adalet.az acı bibərin faydalarını təqdim edir:

1. Aparılan araşdırmalar nəticəsində acı bibər istehlak edənlərin ümumi ölüm nisbətinin daha aşağı olduğu müəyyən edilib.

2. Acı bibərdə onu acı edən kapsaisin adlı maddə vardır. Kapsaisinin mikroorqanizmlərin çoxalmasının və piylənmənin qarşısını aldığı və koronar qan axını tənzimləyən hüceyrə mexanizmlərində rol oynadığı düşünülür.

3. Oynaqlarda iltihablaşmanın və revmatizmanın qarşısını alır.

4. Şəkər xəstələri acı bibər yeməklə şəkəri normada saxlaya bilərlər. Xüsusən də Çili bibəri qanda şəkərin miqdarını normallaşdırır.

5. Acı bibər soyuqdəyməyə, diş və boğaz ağrılarına kömək edir. Antibiotik dərmanların qəbulundansa, üyüdülmüş istiotu suya qatıb içmək orqanizmə daha çox fayda verir.

6. Əsrlərdir acı bibərdən xalq təbabətində istifadə edilir. Bəzi xalqlar acı bibərlə xüsusi müalicə üsulları hazırlayıblar. Soyuq havalarda ayaqqabıların içinə qoyulan acı bibər barmaqları donmadan qoruyur. Qanayan yaraya qoyulan acı bibər qanaxmanı dayandırır və yaranın iz qalmadan yaxşılaşmasına kömək edir.



# BAYAT



№ 19 (879)



*Bəxtiyar Vahabzadə*

## İNSAN - GÖYDƏ AY KİMİDİR

Çəmənlikdə gül-çiçəyin
Sağ-solunda ələfi var.
Dünyada hər bədbəxtliyin
Həm zərəri, həm nəfi var.

Vaxt hakimlər hakimidir,
Həyat, varkən yox kimidir.
Yaydan çıxan ox kimidir,
Hər ömrün öz hədəfi var.

Ürəkdədir sözün kökü,
Ayıra bil tükdən tükü,
Çox ağırdır amal yükü,
Çəkə bilsən şərəfi var.

Ürək fikrin tilsimidir,
Hər qatı bir lay kimidir.
İnsan - göydə Ay kimidir,
Görünməyən tərəfi var.

## GƏLİR

Tarıma çəkilmiş simə bənzə sən,
Titrə, bir yarpağın titrəməsindən.
Bil, dənizdə coşan suyun səsindən
Xəzri gəlir, yoxsa gilavar gəlir.

Bir az sıxnaşanda göydə buludlar,
Yavaşca titrəşir yerdə göy otlar,
Onlar da bilir ki, havada çən var,
Sabah yağış gəlir, sabah qar gəlir.

Hər kəsə müyəssər deyildir ancaq
Ürəkdən keçəni gözdən oxumaq.
Qaranquşdan qabaq, torpaqdan qabaq
Gərək biləsən ki, ilk bahar gəlir.

Qəlbim götürməyir bəri-bəzəyi,
Çətindir yamamaq sınmış ürəyi.
Özün dərk edəsən gərək hər şeyi,
Səni başa salmaq mənə ar gəlir.

Baxışdan söz götür, söz anla sözdən,
Həssas ol, sevgilim, ömrün boyu sən.
Əgər sevirsənsə, ayaq səsimdən
Gərək biləsən ki, Bəxtiyar gəlir!

## BİR SALAMA DƏYMƏDİ

Bu gün mən səni gördüm,
Salam vermək istədim,
Üzünü yana tutdun.
Söylə, illərdən bəri
Qəlbimizin bir duyub
bir vurduğu illəri,
Axı, nə tez unutdun?
Beş ildə gözümüzdən axan
o qanlı sellər,
Bir salama dəymədi?
Həyəcanla, fərəhlə, qəmlə dolu o illər
Bir salama dəymədi?
Heç üzümə baxmadan
yanımdan necə keçdin?
Sən eşqin salamını qorxuyamı
dəyişdin?
Yoxsa sən öz əhdinə, ilqarına ağ oldun?
O qədər yaxın ikən,
bu qədər uzaq oldun.
Şirin gülüşlərimiz, acı fəğanlarımız
Bir salama dəymədi?
Qayğılı anlarımız, qayğısız anlarımız
Bir salama dəymədi?
Sən neylədin, bir düşün!
Yalnız indi anladım:
ah, sən daha mənimçün
Əlçatmaz bir çiçəksən,
Yaşanmış günlərim tək
geri dönməyəcəksən!
Qop, ey tufan, əs, ey yel! Xəzəl olum,
tökülüm
Düz beş il ürəyimdə
Bəslədiyim məhəbbət,
bir salama dəymədi.
Bir günlük həsrətimə dözə bilməyən,
gülüm,
Bəs nə oldu?
Bu həsrət bir salama dəymədi?
Getdin, dalınca baxdım,
can ayrıldı canımdan,
Sən necə etinasız ötə bildin yanımdan,
Ah çəkdim, başım üstə yarpaqlar əsdi,
gülüm,
Sənin qəlbin əsmədi.
Arxana da baxmadın!
Niyə sənin yolunu məhəbbətin
kəsmədi?
Qazancımız de, bumu?
Deyilməmiş o salam əlvidamız oldumu?
Sən mənə zülm eylədin,
mənə zülm yaraşır.
Bir salama dəyməyən eşqə ölüm
yaraşır.

## ƏSARƏT - AZADLIQ

Əsarət odunda bişdi nəslimiz,
Azadlıq eşqinə yandıq, yaxıldıq.
Çatıb azadlığa, bu məbəddə biz,
Şükür namazını qibləsiz qıldıq.

İndi biz azadıq, bizi bir zaman,
Şeytandan qoruyan abır-həyadan.
Azadlıq düşmənə qəzəbdən, kindən,
Millət hədəf olub öz nifrətinə.

Qurtarıb özgənin əsarətindən
Düşdük özümüzün əsarətinə.
Azadlıq rəhmdən, insafdan da biz,
Millətin haqqıya üzbəüz olduq.

Ana yurdumuzun qansız, rəhmsiz,
Qəddar talançısı özümüz olduq.
Yoxdur əvəzimiz yalançılıqda,
Bu ona şər atır, o, buna böhtan.

Yurdu dağıtmaqda, talançılıqda,
Azadlıq qorxudan, Allah xofundan.
İndi azadlığım mənə qənimdir,
Bu gizli oyundan baş açmır fələk.
Məni kor quyudan çıxaran kəndir,
İndi boğazıma keçib halqa tək...

***

Biz yaxın olmuşuq qədimdən, yaxın.
O qədər yaxın ki, bizim dağların
Kölgəsi düşübdür sizin dağlara.
Mən əfsus demirəm ötən çağlara.
Baxşının kamanı bizi ağladıb,
Cabbarın cəh-cəhi sizi ağladıb.

Babam baban ilə dost olub, ancaq
Dostluqdan bir kəlmə danışmazdılar.
Biri-birimizə diş qıcardaraq
Dostqludan deyirik o ki var.

Nədir bu eyhamlar, bu atmacalar,
Yenə şeytan girib araya bəlkə?
Deyirəm, kənardan barmaq basan var
Köz tutan o köhnə yaraya bəlkə?
Torpaq istəyirsən sən indi məndən,
Bu necə qardaşlıq, yoldaşlıq oldu?
Özgə torpağına göz dikdiyindən
Sənin neçə dəfə gözün oyuldu?
Sənə dərs olmadı yenə də bunlar,
Yoxsa tökülməli artıq qanın var?

Mənə üzəvari qardaş deyirsən,
Ancaq altdan-altdan iynələnirsən.
Əyyami-qədimdən sadədiləm mən,
Baş aça bilmədim hiylələrindən.

Əgər düşmənsənsə, hiylədən əl çək,
Açıqca davalıq məramın olsun.
Mənimlə min ildir kəsdiyin çörək,
Aldığın kirvəlik haramın olsun!

Hardan sənin oldu bizim Qarabağ?
Adı sahibini demirmi aşkar?
Xoşluqla verməzlər torpağı. ancaq
Qanla möhürləyib, zorla alarlar.

Hələ göz dikmisən Naxçıvana da.
Təbriz də. Sərab da bəlkə səninmiş?
Vartazar yaşayan bütün ölkələr -
Yəni bütün dünya öz vətəninmiş?..

Günahım nədir ki, qanqal kimi sən
Bütün yer üzünə səpələnmisən?..

Arxını gəl selimə bənd eləmə,
Bu, qan davasıdır, bu, qan davası.
Xəbərimiz yoxdur... yamaqmış demə
Sərçə yuvasına qartal yuvası?!

Yatır bu torpaqda əcdadım mənim.
Şərəfim,
Şöhrətim,
Öz adım mənim...

Cəddimin yatdığı ulu torpağı,
Sinəsi sərvətlə torpağı,
Mən sənə pay verim?
Mən qul, sən ərsən?
Sən məni bu qədər axmaq bilirsən?

İsa bulağının zümzüməsini,
Cabbarın, Seyidin, Xanın səsini,
Dalğalı Qarabağ şikəstəsini,
Babək türbəsini necə pay verim?

Oğuz nəslindənəm, ər oğlu ərəm,
Özgə bağçasından bir gül dərmərəm,
Doğma torpağımdan çərək vermərəm,
Əgər dardasansa, sənə "hay" verim!

"Dığalar" yenə də yolunu azmış,
Məndən yuxarıya şikayət yazmış,
Neçə yol vermişəm, görünür azmış,
İstəyir mən ona yenə pay verim!

## QÜRBƏT - VƏTƏN

Anamız birdirsə Vətən də birdir
Nə ana, nə Vətən iki olammaz.
Qürbətdə tapdığın xeyir də şərdir
Qəlbin bu xeyirdən ısıqlanammaz.

Qürbətin xeyrinə ay aldanan kəs,
Vətənin şərinə kim ortaq olsun?
Vətəni özünə qürbət sanan kəs
Sənin anan ölüb, başın sağ olsun!

Hamı həşirdədir güzəranıyla
Ceyran belindədir bir loxma əppək.
Ana yaralıysa, oğul qanıyla
Onun yaraları yuyulsun gərək.

Yediyim, içdiyim dərddi, qəmdisə
Neyləmək? Bu ocaq, bu yurd mənimdir.
Göz yaşım axan yer qürbətimdisə,
Qanım axan yerlər, öz Vətənimdir.
Harda olursan ol, qəlbin fəhmi var
Səni torpaq çəkər, səni qan çəkər.
Qürbətdə Vətənçin gözü yaşlılar
Vətənin naminə canmdan keçər.

## QƏRİBƏ DEYİLMİ?

Qəribə dünyadır, bəzən baş yarır
Ayağın dəstəyi taxta çəliklər.
Bəzən qul sahibi qula yalvarır
Dünyanı fırladır qəribəliklər.
Dünya çalxalanır yenə dəniz tək.
Bu böyük dünyanın dərdini çəkmək
Bizəmi qalıbdır?
Vallah, nə deyim?
Sənə yox, mənəsə qalıb, neyləyim?

Qəribə deyilmi?
Sən sirr, mən də sirr.
Bu sirri bilmirik necə çözməli?
Kimi övladının dərdini çəkmir,
Kimi də xalqının dərdindən dəli!
Torpaq əldən getdi, ölkə talandı,
Sənin nə vecinə, günün ağ olsun.
Səninçün dünyada hər şey yalandı
Təki damağın çağ, canın sağ olsun.
Bu boyda millətin ağır günündə
Qaşını çatmaq da sənə əzabdır.
Qardaşın döyülsə gözün önündə
Deyərsən, nə hay-küy, nə şaphaşapdır?

Ayıra bilirsən xeyirdən şəri,
Mənfəət meydanı səninçin gendir.
Nə Vətən, nə millət?
Səndən ötəri
Harda xeyrin varsa, ora vətəndir.
Xalqın naləsinə qulaqların kar,
Millətin içində millətə yadsan.
Dərddən başımıza yağdı yağışlar,
Səni islatmadı, dərddən azadsan.
Bir qırıq dəymədi xeyrin özgəyə
Quru ağacdan da meyvə dərmisən.
Xeyrinin gözüylə baxdın hər şeyə
Dünyanı cibinə yerləşdirmisən.
Qışın çovğunu da sənə yaz gəlir
Əgər mənfəətin var isə bundan.
Xeyrindən özgə şey sənə vız gəlir
Araz açığından, Kür topuğundan.
Heç demə, dünyada dünyada kənar
Zamanın çölündə yaşayan da var...

## ÖZÜMDƏN NARAZIYAM

Təbiətin könül açan
Min rəngi, min səsi var.
Hər könülün min arzusu,
Min rəngli nəğməsi var.

Bu arzular, bu nəğmələr,
Bu səslər bir sa kimi-
Mənim solğun sözlərimdə
Heç dil açı bildimi?

Hissim dərin, sözüm solğun,
Qəlbim geniş, sinəm dar.
Məndər əvvəl doğlubdur
Sinəmdəki duyğular.

Səhv atılan addımları
Sonradan anlayıram;
Baxıb vicdan güzgüsünə,
Özümü danlayıram.

Siz ey yanlış addımlarım,
Məni dərdə saldınız
Mən sizlə döyüşdükcə
Gün-gündən çoxaldınız.

Mən haqq-hesab istəyirəm
Gecələr gündüzümdən;
Narahatam, narızıyam
Ömrüm boyu özümdən.

Bizim sənət dünyasının
Qırıq telli sazıyam;
Bircə bundan razıyam ki,
Özümdən narazıyam.

# Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 30 (2404) 16 avqust 2024-cü il



# DÜNYANIN GÖZÜ AZƏRBAYCANDA

**Böyük ölkələr elə təsəvvür edirlər ki, Azərbaycanın ermənilər tərəfindən işğal olunmuş 20 faiz torpağı hələ uzun illər ermənilərin nəzarəti altında qalacaq. Hətta düşünürdülər ki, 30 il azdır, bir 30 il də o torpaqlar işğal altında qalmalıdır. Təəssüf ki, onlar nə beynəlxalq hüquqa, nə də Birləşmiş Millətlər Təşkilatının çıxardığı 4 qətnaməyə heç bir məhəl qoymurdular.**

Əksinə, Qarabağ problemini dondurmaq üçün dəridən-qabıqdan çıxır və ermənilərə havadarlıq edirdilər. Ermənilər də o "dayılarına" çox arxayın idilər. Çünki 2016-cı ilin aprelində Azərbaycan ordusu əks hücuma keçərək işğal altında olan min hektarlarla torpaq sahəsini ermənilərdən azad eləmişdilər. Amma onların havadarları müxtəlif yollarla söz verərək, ya da təzyiqlərdən istifadə edərək o döyüşləri saxlada bilmişdilər. Və buna görə də ermənilərin ağzında şirə yeri qalmışdı.



Ancaq çox nahaq. Artıq Azərbaycan ermənilərə çox güzəşt etmişdi və onların nazı ilə oynamışdı. Bu isə o demək idi ki, artıq hər şey bitib və bıçaq sümüyə dirənib. Belə bir zamanda yenə ermənilər 2020-ci ilin sentyabrın əvvəllərindən başlayaraq bütün sərhəd boyu yaşayış məntəqələrimizi fasiləsiz olaraq iriçaplı silahlardan və artileriyalardan atəşə tuturdular. Azərbaycan prezidenti ermənilərin atəşkəsi pozması ilə bağlı dəfələrlə mötəbər kürsülərdə öz fikirlərini səsləndirmiş, onların qarşısını almağı bildirmişdi. Çox təəssüf ki, nə beynəlxalq təşkilatlar, nə də ermənilərin havadarları işğalçını heç cürə susdura bilmirdi. Təbii ki, Azərbaycan öz hüquqlarını həm beynəlxalq səviyyədə, həm də daxildə özü qorumağa məcbur idi. Ən azından ona görə ki, demokratiyadan, insan hüquqlarından və söz azadlığından dəm vuran ermənilərin havadarları bu atəşkəsə əməl edilməməsinə soyuqqanlı yanaşır, onun qarşısını almır, əksinə, təcavüzkarı dəstəkləyirdilər.

Aydındır ki, bütün bu məsələlər Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən diqqət mərkəzində saxlanılır, ermənilərin hər addımı, hər cür fəaliyyəti bir an olsun belə Azərbaycan ordusunun nəzarətindən yayınmırdı. Ermənilər artıq qudurmuş itə bənzəyirdi. Qudurmuş iti isə ancaq öldürməklə ondan can qurtarmaq olar. Ona görə də ermənilərin atəşkəsi pozduğuna görə Ali Baş Komandan, Azərbaycan prezidenti İlham Əliyev Orduya sentyabrın 27-də hücum əmri verdi. Bəli, sentyabrın 27-də Azərbaycan Ordusu bütün cəbhə boyu istiqamətdə döyüşə atıldı, təpədən-dırnağa qədər müasir silahla və ağır texnika ilə təchiz edilmiş Azərbaycan ordusu bir neçə günün içində Füzulinin və Cəbrayılın 6 kəndini işğaldan azad etdi. Bu 6 kəndin qısa zaman kəsiyində azad edilməsi Azərbaycan ordusunda çox böyük ruh yüksəkliyi yaratdı. Yəni Azərbaycan ordusu ermənilərə və onların havadarlarına bir daha göstərdi ki, bu ordu ötən əsrin 90-cı illərinin əvvəllərində olan ordu deyil. Bu ordu NATO standartlarına uyğun hazırlıq keçmiş, təlim görmüş və hər cür çətinlikləri dəf etməyə qadir olan qüdrətli bir ordudur.

Uzun müddət ermənilər öz ordusu haqqında elə bir mif yaratmışdılar ki, onların ordusu Cənubi Qafqazın ən güclü ordusudur.

Azərbaycan ordusu hər gün, hər saat, hər dəqiqə irəli getmək haqqında düşünürdü və bu ordu ermənilərin 30 il yaratdığı möhkəm istehkamları, müdafiə xəttini düşmənin dili ilə demiş olsaq, "Ohanyan səddi"ni bir neçə saatın içində darmadağın etdi. Çünki bu ordunun başında duran Ali Baş Komandan, Azərbaycan prezidenti İlham Əliyev döyüşən igidlərimiz üçün hər cür şərait yaratmışdı. Bayaq dediyimiz kimi, ən müasir texnika, silah, ağır və yüngül silahlarla Azərbaycan ordusu daha da möhkəmlənmişdi.

Artıq hər gün biz televizorun qarşısında oturub Ali Baş Komandanın xalqımıza verəcəyi xoş müjdəni gözləyirdik. Gözləyirdik ki, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan, Kəlbəcər, Hadrut, Şuşa, Laçın, Ağdam nə vaxt erməni işğalından azad olunacaq. Artıq ilk sevincli xəbəri biz eşitdik - Cəbrayıl şəhəri erməni işğalından azad olundu. Bu o deməkdir ki, ermənilərin müdafiə səddi darmadağın dağıdılmışdı və onlar döyüşmək əvəzinə canlarını sağ-salamat götürüb qaçmaq haqqında düşünürdülər. Çünki canlı qüvvə və texnika sarıdan onlar bir neçə gün ərzində böyük itki vermişdilər. Ermənilər elə düşünürdülər ki, aprel döyüşlərində olduğu kimi, yenə onların havadarları Azərbaycan ordusunun hücumunun qarşısını alacaq və onlar da rahat oturub işğal olunmuş torpaqlarımızda yaşayacaqlar. Amma onlar gördülər ki, yox, bu hənə o hənadan deyil. yeganə çıxış yolu ya döyüşmək, ya da ki bu torpaqlardan qaçıb getməkdir. Onlar döyüşmək istəmir və qaçmağa üstünlük verirdilər.

Azərbaycan əsgəri isə aslan kimi, şir kimi döyüşürdü. Artıq rayonlarımız bir-bir işğaldan azad olunurdu. Cəbrayıldan sonra Hadrut işğaldan azad edildi... Füzuli işğaldan azad edildi... Qubadlı işğaldan azad edildi... Zəngilan işğaldan azad edildi... Sonda da noyabrın 8-də Azərbaycanın üzük qaşı olan Şuşa erməni işğalından azad olundu...

Və ermənilər məcbur olub 2020-ci il noyabrın 10-da təslimolma Bəyannaməsinə imza atdı. Bu Bəyannaməyə Azərbaycan prezidenti İlham Əliyev, Rusiya prezidenti Vladimir Putin imza atmışdılar.

Bəyannamədə qeyd edilirdi ki, noyabrın 10-dan atəşkəs elan olunur və erməni ordusu müəyyən edilmiş vaxt kəsiyində Azərbaycanın Ağdam, Laçın və Kəlbəcər rayonlarından çıxırlar. Həmin vaxt tamam olanda erməni ordusu bu yaşayış məntəqələrindən çıxmağa başladı. Amma yaşayış məntəqələrindən çıxarkən yenə ermənilər öz xislətlərini göstərdilər, yeni evlərə, meşələrə od vurdular. Onların əlacı olsaydı Qarabağ torpaqlarını bellərinə şələyib Ermənistana aparardılar. Amma ermənilər Ermənistana elə bir şey apara bilmədilər, ancaq öz canlarını götürüb qaçdılar.

44 günlük İkinci Qarabağ savaşı bir daha təsdiq etdi ki, Ali Baş Komandan, prezident İlham Əliyev, Azərbaycan xalqı və Azərbaycan ordusu bir yumruq kimi birləşmişdi. Bu yumruğun qarşısında nə erməni ordusu, nə də onların havadarları 44 günlük tarixi savaşda dayana bilmədilər. Dünya tarixində analoqu və oxşarı olmayan çox möhtəşəm bir əməliyyat həyata keçirildi. Mülki əhalinin birinin belə burnu qanamadan Azərbaycan ordusu işğal altında olan torpaqlarımızı azad etdi. Hətta dünyanın ən güclü ordusuna malik olan ABŞ və Avropa ölkələri belə hər hansı ölkədə müharibə apararkən mülki əhaliyə və infrastruktura böyük ziyan vurur, şəhərləri xarabaya çevirirdilər.

**Amma Azərbaycan ordusu elə bir əməliyyat həyata keçirdi ki, bu tarixi döyüşün taktiki formaları bu gün də dünyanın hərbçiləri tərəfindən araşdırılır, öyrənilir. Çünki qüdrətli Azərbaycan ordusu XXI əsrin çox qeyri-adi və unikal Şuşa əməliyyatını həyata keçirməklə dünya hərb tarixində yeni bir qızıl səhifə yazdı. Və bu qızıl səhifə göstərdi ki, Azərbaycan ordusu və əsgəri dünyanın ən döyüşkən, cəsur ordusu və əsgəridir. Allah Azərbaycan əsgərini qorusun!**

**EMİL FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Türkiyədə qədim dövrə aid Skilla heykəl nümunələri tapıldı

**Türkiyənin Qərbi Anadolu bölgəsindəki arxeoloji abidələri ilə məşhur olan Dənizlinin Laodikeya bölgəsində Skilla qrupuna aid qədim dövrə aid olan heykəllər tapılıb. Ellinizm dövrünün barokko üslubunu əks etdirən bu qeyri-adi heykəllər yaxşı qorunub saxlanılan orijinal rəngi və bədii üslubları ilə seçilir. Laodikeya qazıntıları Anadolunun arxeoloji irsini qorumaq və gələcək nəsillərə ötürmək məqsədilə Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə həyata keçirilən "Gələcəyə Miras" layihəsinin bir hissəsidir.**

### *Qeyri-adi orijinal heykəllər*

Türk arxeoloqları YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş Laodikeyadakı Qərb Teatrının səhnə binasının bərpası zamanı Skilla heykəltəraşlıq nümunələrini aşkar ediblər. Heykəltəraşlıq qrupuna insan yeyən canavar Skillanın başı və əli, Odisseyin cəsədi, vəhşi itlərin hücumuna məruz qalaraq öldürülən yoldaşlarının iki üst bədən heykəli və Odisseyin gəmisinin burnu daxildir.

Skilla heykəltəraşlıq nümunələri eramızdan əvvəl 2-ci əsrin əvvəllərində heykəltəraşlar Athanadoros, Haqesandros və Rodoslu Polidoros tərəfindən yaradılıb. Erkən Roma dövrünə aid bu heykəltəraşlıq nümünəsinin yeganə nüsxəsi (imperator Tiberiusun yay villasında) 1957-ci ildə İtaliyanın Sperlonqa şəhərində bir mağaranın qarşısında aşkar edilmişdi. Laodikeya Skilla heykəltəraşlıq nümunələri İmperator Avqustun dövrü (e.ə. 27 - eramızın 14-cü ili) bu günə qədər tapılmış ən qədim heykəllərdir. Onlar həm də boyaları, üslubu, estetikası və bədii keyfiyyəti ilə orijinallığını qoruyub saxlayıb. Məsələn, Skilla başının barokko üslubunda işlənməsi, Skillanın avarda tutduğu boya, Skilla itlərinin hücumuna məruz qalan fiqurun üzündəki ağrının realist ifadəsi dünyada bənzəri olmayan mükəmməl nümunələrdir.

Bu heykəltəraşlıq nümunələri, güman edilir ki, qədim zamanlarda Qərb teatrının səhnə binasının ikinci mərtəbəsində nümayiş etdirilib. Məhz buna görə bu heykəltəraşlıq nümünələri orijinal xüsusiyyətlərini qoruyub saxlayıb. Bundan əlavə, məlum olur ki, ilin müəyyən günlərində bu heykəltəraşlıq nümunələri səhnədə nümayiş etdirilərkən bir nağılçı (Rhapsodos) Homerin ölməz əsəri olan "Odisseya"nı teatrda tamaşaçılara oxuyurdu. Qrupdakı heykəllərin bəziləri toxunulmaz qaldı, digərləri isə bütpərəstlikdən xristianlığa keçid səbəbiylə sındırılaraq səhnə arxası otaqlara atıldı.



### *Skillanın mifoloji hekayəsi*

Homerin "İliada" və "Odisseya"sı antik dövrün ən mühüm ədəbi əsərlərindəndir. "İliada" Troya müharibəsi hadisələrindən bəhs edərkən, "Odisseya" İtaka kralı Odisseyin on ildən sonra vətəninə qayıtmasından bəhs edir. Rəvayətə görə, aheylər Odisseyin ağlı və hiyləsi sayəsində Troya müharibəsində qalib gəldilər və onun evə dönüş səfəri çoxlu macəralarla dolu idi. Odisseydə Odissey və dəniz canavarı Skilla arasındakı qarşılaşma mühüm əhəmiyyət kəsb edir. Skilla Messina boğazında (İtaliya sahillərində) pusquda yatan qadın bədəni vəhşi itlərlə əhatə olunmuş dəniz canavarı kimi təsvir edilmişdir. Odisseyin gəmisi bu canavarın pusquda dayandığı mağaranın qarşısından keçərkən itlər hücum edərək Odisseyin altı yoldaşını (Stesios, Ormenios, Anxinos, Ornitos, Sinopos və Amfinomos) vəhşicəsinə parçalayırlar.

### *Laodikeya: Dənizlinin qədim mirası*

**Müasir Dənizlidən bir neçə dəqiqəlik şimalda yerləşən Laodikeya, Selevkilər Kralı II Antiokus Teos tərəfindən qurulmuş və həyat yoldaşı Kraliça Laodikenin şərəfinə adlandırılıb. Tarixin ən böyük ticarət mərkəzlərindən biri kimi tanınan və görməyə dəyər bir şəhərdir. Laodikeya xristian dünyası üçün də böyük əhəmiyyət kəsb edirdi. Əhdi-Cədiddə adı çəkilən Yeddi Kilsənin ən qədim nümunələrindən biri olan Laodikeyan Kilsəsi, erkən Şərqi Roma dövründə şəhər metropoliten səviyyəsində dini mərkəz kimi qurulmuşdur. Laodikeya bu gün Pamukkaleyə yaxın olması ilə də diqqət çəkir. Antik şəhəri gəzdikdən sonra eyni ərazidə bulud sahəsinə bənzəyən travertinlər və qədim Hierapolis şəhərinin göründüyü Pamukkaleyə gedə bilərsiniz. YUNESKO-nun Dünya İrsi Saytları olan Pamukkale Travertenləri və Hierapolis Qədim Şəhəri təbii və mədəni irsin möhtəşəm nümunələridir.**

## *Təbrik edirik!*

***Tanınmış jurnalist, tədqiqatçı-etnoqraf Faiq Şükürbəylinin nəvəsi Kərəmin 6 yaşı tamam olur. Bu xoş gün münasibəti ilə onu atası Kənan bəy, anası Lamiyə müəllim, babaları Kərəm müəllim və Faiq müəllim, nənələri, əmisi Sənan, dayıları İklin və Nəsimi, əmisi və dayısı uşaqları, bibiləri ürəkdən təbrik edir, ona möhkəm can sağlığı diləyirlər. Arzu edirlər ki, Kərəm atalı-analı böyüsün, orta məktəbi əla qiymətlərlə bitirib ali məktəbə daxil olsun. İnşaallah!***



## *"Ömrüm boyu Leyla xanıma minnətdar olacam"*

**Bir gün gözlənilmədən bədənimdə səpkilərin əmələ gəldiyini gördüm. Səpkilər həm də mənə dözülməz ağrı verirdi. Ağrılara dözə bilməyib həkimə müraciət etdim. Amma nə ağrılarm keçdi, nə də dərimdə əmələ gəlmiş qızartılar. Bakı şəhərinə üz tutmalı oldum. Dərimdəki səpmələrdən və ağrılardan qurtarmaq üçün dost-tanışların ünvanını, adını verdikləri həkimlərin qəbuluna getdim. Amma təyin olunan dərmanlar heç bir kömək etmirdi.**

Ağrılarım getdikcə şiddətləndiyini görən dost-tanışlar 1 nömrəli Bakı şəhər Dəri-Zöhrəvi Dispanserində işləyən həkim Lalə Məmmədovaya müraciət etməyimi məsləhət gördülər. Vaxt itirmədən həmin xəstəxanaya üz tutdum, Lalə xanımın qəbuluna düşdüm. Həkim dərimdəki səpkilərə baxan kimi onun nədən yarandığını təyin edib müalicə yazmağa başladı. Mən həkimə artıq ağrılara dözə bilmədiyimi dedim.

Lalə xanım məndən bu sözləri eşidən kimi otaqdakı tibb işçilərini aptekə göndərdi. Dərmanlar alınıb gətiriləndən sonra həkim özü mənə sistem köçürtdü. Çox keçmədi ki, həm bədənimdəki ağrılar, həm də səpkilər çəkildi, özümü gümrah hiss etdim. Sonra həkim evdə də bir neçə sistemin köçürülməsi üçün təyinat yazdı. Bu sistemlərdən sonra lap yaxşılaşdım.

Məni bu ağrılardan qurtaran 1 nömrəli Bakı şəhər Dəri-Zöhrəvi Dispanserinin həkimi tibb üzrə fəlsəfə doktoru, dermotoveroloq Lalə Məmmədovaya dərin minnitdarlığımı bildirirəm. Həkimin mənə bu cür mehribancasına yanaşmasını, qayğı göstərməsini heç vaxt unutmayacam, ömrüm boyu ona minnətdar olacam. Ağrılardan xilas olandan sonra gördüm ki, doğrudan da həkimlər insanlara şəfa verirlər. Qoy onların şəfa verən əlləri həmişə var olsun.

**Məzahir Mikayılov,**
**Naftalan şəhərinin sakini,**
**"Nur Naftalan" sanatoriyasının ağsaqqalı**

## *Əməkdar artist: "Görəsən bunlar utanmırlar?"*



**Həmişə alovlu çıxışları ilə diqqət çəkən əməkdar artist Elnarə Abdullayeva onun arxasınca danışanlara səslənib.**

Adalet.az bildirir ki, sənətçi onları özündən aşağı səviyyədə gördüyünye söyləyib:

"Mən heç kəsdən qorxan adam deyiləm. Kimə nə sözüm varsa üzbəüz deyirəm. Görəsən bu arxada danışanlar heç utanmırlar? Mənim bir əskik hərəkətim yoxdur ki, kiminsə qarşısında susum. Xahiş edirəm, heç kəs məndən danışmasın. Mən səhv buraxmamışam ki, kiminsə yanında utanım".

## *Kərim Abi: "Həmin mövzular qadağan olunsa..."*



**Məşhur meycanaçı Kərim Abi yeni meyxana deməyə başlayan həmkarlarından danışıb.**

Adalet.az bildirir ki, o, bəzi həmkarlarının meyxana deyə bilməməsindən danışıb:

"Yeni meyxana deyənləri çoxu yaxşı meyxana deyə bilmirlər. İnternet üzərindən bəzi mövzuları öyrənirlər. Elə bilirlər ki, meyxana budur. Amma meyxana sənət kimi öyrədilməlidir. Onların əzbərlədiyi mövzular qadağan olunsa, yenu meyxanaçılar heç nə deyə bilməyəcək. Çünki meyxananı dərin bilmirlər axı".

## *Gülay Zeynallı: "Ona görə onlardan uzağam"*



**Uzun zamandır efirlərdə görünməyən Gülay Zeynallı sükutu pozub.**

Adalet.az xəbər verir ki, sənətçi bəzi dostlarından incidiyini söyləyib:

"Bəzi dostlarım var ki, onlardan incimişəm. Ona görə də onlardan uzağam. Ümumiyyətlə incidiyim hər kəsdən uzaq gəzirəm. Məni incidənlərlə vuruşmağa zamanım yoxdur."

## *Sərdar Ortaç bütün maşınlarını satdı*

**Sənəti və səsi ilə yanaşı yaşadığı olaylarla da yadda qalan türkiyəli sənətçi Sərdar Ortaç hazırki maddi durumunu açıqlayıb.**

Adalet.az bildirir ki, müğənni satdığı maşınlarından danışıb:

"Hazırda maşınım yoxdur. Bütün maşınlarımı satdım. Heç əvvəldən maşın sevməmişəm. Yalnız bir mikroavtobusum və bir velosipedim var. Səhhətim imkan vermirdi ki, velosipedi sürüm. Ancaq artıq istifadə edirəm".

**Əntiqə**

## *Sahib İbrahimov: "Onunla yenə duet oxuyaram"*

**Sahib İbrahimov illərlə küsülü olduğu duet ortağı Bətürə Hüseynova ilə aralarında buzların əridiyini söyləyib.**

Adalet.az xəbər verir ki, o, xanım həmkarını salamlayıb və onunla yenidən duet oxumağa hazır olduğunu qeyd edib:

"Bətürə xanımı salamlayıram. Qadındır, inciyə-küsə bilər. Anlayıram. Mənim haqqımda dediyi acı sözləri də xanımlığına bağışlayıram. Xanımlar, analarımız, bacılarımız başımızın tacıdılar. Ona heç kinim yoxdur. Onunla yenə də duet oxuyub gözəl əsərlər yarada bilərəm. Mənim istedadım buna çatır".

**Əntiqə**

**Bakı Dövlət Rabitə və Nəqliyyat Kollecinin 3-cü kurs tələbəsi Qasımlı Əziz Arif oğluna məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

***

**"Vətən Uğrunda Şəhid Ailələri və Milli Qəhrəmanlar" İctimai Birliyinin Qaradağ rayon şöbəsinin möhür və ştampı itdiyi üçün etibarsız sayılır.**

Asif Quliyev
**Oqtay Əliyevin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**Təsisçi və baş məsləhətçi: Aqil ABBAS**
**Baş redaktor: İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 192**
Çapa imzalanmışdır: 15.08.2024